RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 168 (10188) 16 sentyabr 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# BİRLƏŞDİRİCİ, BARIŞDIRICI QLOBAL LİDER

## İLHAM ƏLİYEV: "Əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın".



## Prezident İlham Əliyev Bakıda keçirilən beynəlxalq konfransların iştirakçılarını qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev, Qazaxıstan Müsəlmanları Ruhani İdarəsinin sədri Naurızbay Taqanulı, Qırğızıstan Müsəlmanları İdarəsinin sədri Əbdüləziz Zakirov, Türkiyə Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Nuriddin Xaliknazarov, Türkmənistan Müsəlmanları Ruhani İdarəsinin sədri Rahman Qurbanmuradov, Şimali Kiprin Dini İşlər sədri Hakan Moral, Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam, IRCICA-nın (İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi) baş direktoru Mahmut Erol Kılıç, Çeçenistan Respublikası Müsəlmanları Ruhani İdarəsinin sədri, Şimali Qafqaz Koordinasiya Mərkəzinin sədri Salah-Hacı Mejiyev, Beynəlxalq İslam Fiqhi Təşkilatının baş katibi Seyid Əbdül-Qasim Əd-Dibaci, Qafqaz Müsəlmanları İdarəsinin Şimali Qafqaz üzrə qazısı, Dərbənd Cümə məscidinin imamı Şaqabitdin Kərimov, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Faiq Nəbiyev, Şərqi Gürcüstan müftisi Etibar Eminov, Qərbi Gürcüstan müftisi Adam Şantadze, Ümumdünya İslam Məzhəblərinin Yaxınlaşdırılması Assambleyasının baş katibi Həmid Şəhriyari və Suriyanın vəqflər naziri Məhəmməd Əbu Əl Xeyr Şükri daxildir.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

2-4

## Örnək liderlik nümunəsi

### Prezident İlham Əliyevin fəaliyyəti beynəlxalq miqyasda yüksək qiymətləndirilir

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin əldə etdiyi yüksək inkişaf, 2020-ci və 2023-cü illərdə əldə olunan hərbi-siyasi nəticələr və postmünaqişə dövründə irəli sürülən sülh təşəbbüsləri Azərbaycanın yeni dünya nizamının qurulmasında rolunu və mövqeyini gücləndirib.

Dövlətimizin başçısına "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim edilməsi, eyni zamanda bu ilin aprelində "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi Bakının yaratdığı sülh nümunəsinin beynəlxalq səviyyədə qəbulunu göstərdi.

30 illik işğaldan sonra regionda barışığı təmin edən bu siyasət BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan qətnamələrini öz gücü ilə icra edən liderin beynəlxalq nüfuzunu bir daha təsdiqlədi.



Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimatındakı çıxışı müharibə və etimadsızlıqdan əziyyət çəkən bütün xalqlar üçün yol xəritəsi xarakteri daşıyırdı: "Hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".

6

## Nobel mükafatı laureatı Əziz Səncər Prezident İlham Əliyevə təşəkkür edib

**Kimya üzrə Nobel mükafatı laureatı, dünyaşöhrətli alim, həkim, akademik Əziz Səncər Prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb.**

Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Məktubda Əziz Səncər "Şöhrət" ordeni ilə təltif olunmasını həyatının ən böyük qürurverici və sevindirici hadisələrindən biri kimi qiymətləndirib. O, göstərilən yüksək etimada görə dövlət başçısına dərin minnətdarlığını ifadə edib.

Əziz Səncər vurğulayıb ki, Azərbaycana olan sevgisi daim səmimi hisslərə əsaslanıb və heç vaxt hər hansı qarşılıq gözləntisi olmayıb. Azərbaycanın onun qəlbində hər zaman Türkiyə qədər doğma Vətən kimi xüsusi yer tutduğunu bildirib. Alim "Şöhrət" ordenini yalnız elmi fəaliyyətinə verilən yüksək qiymətin ifadəsi kimi deyil, eyni zamanda "Bir millət, iki dövlət" məfkurəsinə söykənən qardaşlığın rəmzi kimi böyük qürurla daşıyacağını qeyd edib.

Xatırladaq ki, Prezident İlham Əliyevin 7 sentyabr 2026-cı il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının beynəlxalq elmi və humanitar əməkdaşlığının möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Əziz Səncər "Şöhrət" ordeni ilə təltif olunub.

## Azərbaycanın innovasiya vizyonu

Son illər ölkəmizdə rəqəmsallaşmanın dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsi təsadüfi deyil. Məqsəd yalnız ayrı-ayrı xidmətləri elektron formata keçirməklə məhdudlaşmır. Rəqəmsal transformasiya dövlət idarəçiliyi və iqtisadiyyatla yanaşı, təhsil, elm, biznes və vətəndaş xidmətləri də daxil olmaqla, cəmiyyətin bir çox sahəsini əhatə edir. Bu baxımdan, sentyabrın 14-də Prezident İlham Əliyevin Bakıda Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında qurulan "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirakı xüsusi əhəmiyyət daşıyır.

"SABAH.city", sadəcə, yeni tikililərdən və müasir



infrastruktura malik ərazidən ibarət deyil. Burada əsas ideya elm, təhsil, texnologiya və biznes arasında birbaşa əlaqənin qurulmasıdır. Başqa sözlə, universitet auditoriyasında yaranan ideyanın laboratoriyada tədqiqata, oradan startapa, daha sonra isə real iqtisadi məhsula çevrilməsi üçün vahid ekosistem formalaşdırılır. Bu model Azərbaycanın bilik iqtisadiyyatına keçidini sürətləndirməyə, innovativ düşüncəli yeni nəslin imkanlarını genişləndirməyə hesablanıb.

Layihə ümumilikdə 20 hektar ərazidə icra olunacaq. Birinci mərhələ 5 hektardan çox ərazini və 20 min kvadratmetr tikili sahəsini əhatə edir.

9

## Tarixi zəfər və Qərbin ikili standartları: qlobal ədalətsizliklərə qarşı Azərbaycan reallığı

Azərbaycan 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrındakı lokal antiterror tədbirləri ilə beynəlxalq hüququ özü bərpa edərək qlobal miqyasda böyük bir presedent yaratdı.

Bu gün Qarabağda nəinki infrastruktur yenidən qurulur, artıq 48 şəhər və kənddə 90 mindən çox insan yaşayır. Həm də mənəvi yaddaşımız bərpa olunur. Bərpa işlərinə ilk başlanılan obyektin Ağdam məscidi olması və artıq 12 məscidin tam bərpa edilib və ya yenidən qurulması məhz bu mənəvi dəyərin təzələnməsidir. Lakin bütün bunlarla yanaşı, çəkilən acılar heç vaxt unutdurulmamalıdır.

Prezident İlham Əliyev tarixi yaddaşın qorunmasının vacibliyini xüsusi vurğulayıb: "Ancaq biz bizə qarşı, xalqımıza qarşı törədilən vəhşilikləri heç vaxt unutmayacağıq. Xocalı qurbanlarını unutmayacağıq, dağıdılmış məscidlərimizi, təhqir edilmiş mədəni ocaqlarımızı heç vaxt unutmayacağıq və bu yaddaş bizi daha da ayıq edəcək. Bu yaddaş imkan verməyəcək ki, biz yenə də şirin sözlərə aldanaq, imkan verməyəcəyik ki, yenə də xalqımıza qarşı hansısa məkrli planlar baş tutsun".

30 il ərzində xarici qüvvələr və Ermənistanı dəstəkləyən müəyyən dövlətlər işğal faktını uzatmağa və onu əbədiləşdirməyə çalışdılar. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qaldı. Ləğv olunmuş ATƏT-in Minsk qrupu isə münaqişəni həll etmək deyil, dondurmaq və işğala hüquqi don geyindirmək funksiyasını yerinə yetirirdi.

5

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN 16 sentyabr 2026-cı il

# BİRLƏŞDİRİCİ, BARIŞDIRICI QLOBAL LİDER

## İLHAM ƏLİYEV: "Əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın"



### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli şeyx həzrətləri.

Hörmətli qonaqlar.

Sizi səmimiyyətlə salamlayıram. Qonaqlara "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısı keçirilir. Bu, özlüyündə böyük bir beynəlxalq tədbirdir. Eyni zamanda bu günlərdə Bakıda böyük şair, mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfrans keçirilir və çoxlu qonaqlarımız bu konfransda iştirak edirlər.

Bu iki tədbirin eyni vaxtda Bakıda keçirilməsinin böyük mənası var. Çünki biz öz dahi şəxsiyyətlərimizlə, mütəfəkkirlərimizlə, şairlərimizlə həmişə fəxr edirik. Seyid Yəhya Bakuvi onlardan biridir. XV əsrdə yaşayıb-yaratmış Yəhya Bakuvi çox böyük bir iz buraxmışdır.

Azərbaycan xalqı dünya mədəniyyətinə bir çox dahi şəxsiyyətlər, şairlər, mütəfəkkirlər bəxş etmişdir. Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün islam aləmi üçün çox böyük dəyərdir.

Bilirəm ki, bizim tədbirlərdə bir çox ölkələrdən dini liderlər iştirak edirlər. Onları xüsusilə salamlayıram. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini liderlərindən başqa, bu gün Gürcüstan, Suriya dini liderləri, Şimali Qafqaz respublikalarının nümayəndələri, xüsusilə Dağıstandan, Çeçenistandan olan dini rəhbərlər iştirak edirlər. Yəni bu, birliyin nümunəsidir. Təbii ki, burada Azərbaycanın xüsusi rolu var. Çünki Azərbaycan həm türk dünyasının bir parçasıdır, həm də Qafqaz ölkəsidir. Bizim ölkəmizin tarixinə baxanda hər şey açıq-aydın görünür. Qədim Qafqaz Albaniyası məhz bizim ərazilərimizdə mövcud idi və qədim dövlətin paytaxtı Qəbələ şəhəri idi, bu gün də ölkəmizin ən gözəl yerlərindən biridir.

Qədim Atabəylər dövlətinin paytaxtı isə digər gözəl şəhərimiz Naxçıvan olmuşdur. Yəni bu bir daha göstərir ki, türk dünyası və Qafqaz - bu iki məkan, əslində, vahid bir coğrafiyanı əhatə edirdi və Türk Dövlətləri Təşkilatına üzv olan yeganə Qafqaz ölkəsi Azərbaycandır.

Təbii ki, bizim türk dünyası ilə sıx əlaqələrimiz var, Qafqaz xalqları ilə sıx qohumluq, dostluq əlaqələrimiz var. Təbii ki, burada sizin bir yerdə olmağınız çox



böyük rəmzi məna daşıyır. Çünki məhz belə birgə tədbirlər bizi daha da birləşdirir, aramızdakı dostluq, qardaşlıq əlaqələrini gücləndirir və dünyaya çox gözəl mesajlar verir.

Müsəlman dini liderlərin hər bir sözü, təbii ki, müsəlman icmaları üçün çox dəyərlidir, qiymətlidir. Bu sözlər sülhə, əməkdaşlığa, əmin-amanlığa, barışığa istiqamətləndirilirsə, deməli, yaşadığımız bölgələrdə də sülh və əmin-amanlıq üstünlük təşkil edəcək.

Bugünkü dünyada və xüsusilə müsəlman aləmində baş verən bəzi hadisələr, təbii ki, bizim hamımızı narahat edir. Biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, islam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək. Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatı, ICESCO təşkilatı xətti ilə bir çox tədbirlər keçirilmişdir. Hələ təxminən 10 il bundan əvvəl - 2017-ci ildə bizim təşəbbüsümüzlə və bütün müsəlman ölkələrinin dəstəyi ilə Bakıda IV İslam Həmrəylik Oyunları keçirilmişdir. Biz də bu oyunları, sadəcə olaraq, idman yarışı kimi deyil, böyük birlik bayramı kimi qəbul edirdik.

Gələn il Bakıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü keçiriləcək. Dünyada gedən proseslərin fonunda belə bir tədbirin məhz Azərbaycanda keçirilməsi hesab edirəm ki, təsadüfi deyil. Düzdür, bu qərar bir qədər əvvəl qəbul edilmişdir, amma, əslində, çox düzgün bir qərardır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycan təmsil olunduğu bütün təşkilatlarda birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış edir. Əminəm ki, gələn il Azərbaycanda keçiriləcək bu Zirvə görüşünün çox gözəl nəticələri olacaq. Bizim ümidlərimiz ondan ibarətdir ki, o Zirvə görüşünə qədər bəzi müsəlman ölkələri arasında gedən proseslər, anlaşılmazlıq, bəzi hallarda toqquşmalar başa çatacaq. Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın. Bizi ayırmaq istəyən, əslində, islam dininə zərbə vurmaq istəyən ünsürlər də öz yerlərinə otursunlar. Əlbəttə ki, biz ancaq müştərək səylərlə buna nail ola bilərik.

Ona görə hesab edirəm ki, sizin Bakıda olmağınız və bir yerdə tədbirlərdə iştirakınız, yenə də deyirəm, həm bölgəmizə, həm dünyaya çox ciddi və birmənalı mesajlar verəcəkdir.

Bilirəm ki, səfər zamanı siz Qarabağa da gedəcəksiniz. Mənə verilən məlumata görə, Ağdam, Xankəndi, Xocalı, Şuşa şəhərlərində olacaqsınız. Əminəm ki, bu səfər sizin üçün çox maraqlı olacaq. Çünki həm 30 ilin işğalının fəsadlarını, dağıntılarını görəcəksiniz və eyni zamanda bu gün dirçələn Qarabağın yeni simasını görəcəksiniz. Bu torpaqlar 30 il ərzində Ermənistanın işğalı altında idi. Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. Xocalı şəhərində qanlı soyqırımı törədilmişdir. Artıq Xocalıda Xocalı Memorial Kompleksi də yaradılıb və əgər vaxtınız olarsa, oraya da baş çəkə bilərsiniz.

Qarabağda və Şərqi Zəngəzurda yerləşən bütün şəhər və kəndlərimiz yerlə yeksan edilmişdir. Xalqımıza qarşı etnik təmizləmə aparılmışdır. Bir milyona yaxın azərbaycanlı Ermənistan dövlətinin etnik təmizləmə siyasəti nəticəsində öz doğma torpaqlarından didərgin salınmışdır. Bildiyiniz kimi, 30 il davam edən danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistan öz xoşu ilə torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistanı dəstəkləyən böyük sayılan dövlətlər isə məsələni həll etmək yox, uzatmaq və bu işğalı əbədi etmək istəyirdi. Bu dövlətlər Ermənistana hərbi, iqtisadi, siyasi dəstək verərək faktiki olaraq işğalçını mükafatlandırırdı.

Azərbaycan xalqı bu ədalətsizliyə son qoydu və dünyada bir presedent yaratdı. Çünki bu vaxta qədər işğal edilmiş torpaqlar əfsuslar olsun ki, azad edilmirdi. Hər halda XX əsrdə və XXI əsrdə belə hallara rast gəlinmirdi, ya da ki, çox nadir hallarda rast gəlinirdi.

Azərbaycan xalqı qan tökərək, döyüşərək bu torpaqları azad etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların canı-qanı bahasına, qəhrəman övladlarımızın fədakarlığı hesabına biz öz ədalətimizi, hüququmuzu və milli ləyaqətimizi bərpa etdik. İşğalçıları torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində qaldırdıq, separatçılığa son qoyduq. Separatçı liderlər, hərbi cinayətkarlar, uşaq qatilləri bu gün Azərbaycan həbsxanalarında öz cəzalarını çəkirlər. Bu da ədalətin təntənəsidir. Yəni ədalət tam zəfər çalmışdır və Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir.

Biz bu torpaqlara 30 ildən sonra qayıdanda nəyi gördük? Bunu indi bütün dünya görür - viran qoyulmuş şəhərlər, kəndlər, sökülmüş evlər, talanmış milli sərvətlərimiz, dağıdılmış məscidlər. 65 məscid Ermənistan dövləti tərəfindən, - mən xüsusilə bunu qeyd etmək istəyirəm, bu, Ermənistanın dövlət siyasəti idi, - Ermənistan dövləti tərəfindən tam dağıdılmışdır. Bəziləri yarıdağılmış vəziyyətdə idi. Yəqin ki, siz də o fotoları görmüsünüz, Ermənistan məscidlərdə bilərəkdən, qəsdən heyvan saxlayırdı, donuz saxlayırdı, inək saxlayırdı. Yəni bizi təhqir etmək, bizi aşağılamaq üçün, bizim həssaslığımızı dərk edərək, yəni qəsdən xalqımızı daha da incitmək üçün belə vəhşi əməllərdən də çəkinmədi. Əslində bu, təkcə bizə, xalqımıza yox, bütün islam dünyasına bir təhqir idi. Bax, budur Ermənistan dövlətinin əsl siması. Biz bunu heç vaxt unutmamalıyıq və unutmayacağıq.

Bəli, bu gün sülh var və müharibə dayanıb. Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və əminəm ki, bu, uzunmüddətli olacaq. Hər halda Azərbaycan dövlətinin mövqeyi bundan ibarətdir. Ancaq biz bizə qarşı, xalqımıza qarşı törədilən vəhşilikləri heç vaxt unutmayacağıq. Xocalı qurbanlarını unutmayacağıq, dağıdılmış məscidlərimizi, təhqir edilmiş mədəni ocaqlarımızı heç vaxt unutmayacağıq və bu yaddaş bizi daha da ayıq edəcək. Bu yaddaş imkan verməyəcək ki, biz yenə də şirin sözlərə aldanaq, imkan verməyəcəyik ki, yenə də xalqımıza qarşı hansısa məkrli planlar baş tutsun. Biz ayıq olmalıyıq, ayığıq və eyni zamanda öz hərbi gücümüzü də artırırıq. Məhz hərbi güc və övladlarımızın qəhrəmanlığı nəticəsində biz Ermənistanın işğalçı ordusunu öz torpaqlarımızdan qovmuşuq. Ona görə hərbi vətənpərvərlik tərbiyəsi bu gün Azərbaycanda çox geniş vüsət alıb. Hər kəs görür ki, bu gün dünya tamamilə dəyişib və güc amili ön plana çıxıb. "Kim güclüdür, o da haqlıdır" prinsipini biz ortaya atmamışıq. Amma biz mövcud olan reallıqlarla gərək hesablaşaq və təbii ki, hesablaşırıq. Bilirik ki, suverenliyimizin, ərazi bütövlüyümüzün, xalqımızın bundan sonra azad, müstəqil xalq kimi yaşamasının bir zəmanəti var, o da bizim iradəmiz, qətiyyətimiz, hərbi gücümüz, xalqımızın bir yumruq kimi birləşməsi, imanımız və milli dəyərlərimizdir.

Əlbəttə ki, Qarabağa səfəriniz, yenə də deyirəm, çox maraqlı olacaq. Çünki siz dirçələn Qarabağı da görəcəksiniz. Bu gün Qarabağda və Şərqi Zəngəzurda artıq 48 şəhər və kənddə insanlar yaşayır. Yəni keçmiş köçkünlər qayıdıb, orada işləyənlər, təhsil alanlar məskunlaşıb. "Böyük qayıdış" proqramı uğurla icra edilir. Bax, dediyim bu şəhər və kəndlərdə artıq 90 mindən çox insan yaşayır. Yəni həyat qayıdıb və bu, bizim böyük nailiyyətimizdir, tarixi nailiyyətimizdir. Xalqımız 30 il ərzində əzab-əziyyət içində yaşayıb. Bu gün isə qalib xalq kimi, müzəffər dövlət kimi yaşayırıq.

Onu da bildirməliyəm ki, bütün bu əzablara, işgəncələrə, soyqırımlara baxmayaraq, biz Ermənistana, Ermənistan xalqına qarşı adekvat addım atmamışıq. İkinci Qarabağ müharibəsi zamanı biz ancaq hərbi birləşmələri atəşə tutmuşduq. Biz Ermənistandan fərqli olaraq, əliyalın, mülki şəxslərə qarşı heç vaxt müharibə aparmamışıq. Bu, bizim xalqımızın mentalitetinə də, adətlərinə də ziddir. Mən hələ müharibə dövründə demişdim ki, biz intiqamımızı, qisasımızı döyüş meydanında almalıyıq və artıqlaması ilə aldıq da. Şəhidlərimizin qanı yerdə qalmadı. Biz şəhidlərimizin qanını düşməndən aldıq, düşməni məhv etdik, təslim olmağa məcbur etdik. Bir daha deyirəm, bu gün müzəffər xalq kimi qürurla yaşayırıq, qururuq.

Otuz il ərzində işğal dövründə Qarabağda Ermənistan dövləti bir daşı daş üstə qoymamışdır, bir bina tikməmişdi, ancaq öz yırtıcı, rüşvətxor və qaniçən rəhbərləri üçün villalar, imarətlər tikmişdir. İndi gedib görərsiniz, biz 4-5 il ərzində bütün o böyük ərazini, - təqribən 15 min kvadratkilometrə yaxın olan ərazi, - yəni bir ölkə boyda ərazini hansı hala gətirdik. Onu özünüz görərsiniz.

Mən bir daha sizi salamlayıram. Xüsusilə şeyx həzrətlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, türk dünyasında, islam dünyasında və dünyada böyük hörmətə malik olan şəxsiyyətdir. Onun fəaliyyəti həm Azərbaycan xalqı tərəfindən, həm qonşu dövlətlər, xalqlar tərəfindən yüksək qiymətləndirilir. Onun himayəsi, təşəbbüsü ilə keçirilən bu tədbirlərin çox böyük mənası var - həm xalqımız üçün, həm Qafqaz üçün, türk dünyası üçün, islam aləmi üçün. Ona görə hörmətli şeyx həzrətləri, sizə öz təşəkkürümü bildirmək istəyirəm. Qonaqlara da təşəkkürümü bildirirəm ki, bu gün bizimlə bir yerdədirlər. Sizə uğurlar, təmsil etdiyiniz xalqlara, ölkələrə xoşbəxtlik, əmin-amanlıq, cansağlığı arzulayıram.

Sağ olun.

*Ardı 3-cü səh.*

# BİRLƏŞDİRİCİ, BARIŞDIRICI QLOBAL LİDER

## İLHAM ƏLİYEV: "Əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın"

*Əvvəli 2-ci səh.*











**Şeyxülislam Allahşükür PAŞAZADƏ** çıxış edərək dedi:

- Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm Prezident İlham Əliyev cənabları, zati-aliləri.

Sizin sözünüzün qüvvəti, mən bir Şeyxülislam kimi Allah-taalanın nəsib etdiyi, Azərbaycanın müəyyən qədər sonrakı tarixində bu yeniliklərin əvvəlini də görmüşəm. Bu gün də mənə bu ahıl dövrümdə, bu yaşı keçmiş dövrümdə çiçəklənən Azərbaycanı görmək nəsib olub. Mən buna görə Allahıma şükür edirəm. Sizə də minnətdarlığımı bildirirəm ki, biz Sizin himayədarlığınız ilə Türk Dövlətləri Təşkilatının rəhbərləri böyük filosof, mötədil islamı təbliğ edən Seyid Yəhya Bakuvinin işığında yığışmışıq. Bu himayədarlığı da Siz etmisiniz, hər cəhətdən kömək göstərmisiniz və ona görə də Sizə minnətdarlığımı bildirirəm.

Həqiqətən də Sizin gördüyünüz işlər, atdığınız addımlar məni dünənə də aparır, bu günə də gətirir. Mənim dünənim, - Allah rəhmət eləsin, - Ulu Öndər Heydər Əliyev cənabları ilədir, onunla bərabər addımlayırdıq, görürdük, o, bizə gələcəyi göstərirdi. Hələ o dövrdə o, Azərbaycana ikinci dəfə rəhbər gələndən sonra bizi, din xadimlərini digər din nümayəndələri ilə birlikdə yığdı, bizə multikulturalizm yolunu öyrətdi, doğru yolu öyrətdi, dinlərlə birlikdə olmaq, qardaş olmaq, dost olmaq yolunu öyrətdi. Amma bir şeyi də deyim ki, o mənə deyərdi, şeyx, mən səni göndərmişəm oxumağa. Sən mənim tələbəm olmusan o dövrdə. Onu da mən demək istərdim ki, hələ 1968-ci ildə mənim mədrəsəyə gedib oxumağım Heydər Əliyev cənablarının istəyi ilə olubmuş. Mən onu bilmirdim, sonrakı dövrlərdə mənə dedi.

Bu gün mən görürəm ki, Azərbaycan çiçəklənir, Sizin rəhbərliyinizlə dünyada zirvələr fəth edir. Xüsusən zati-alinizin rəhbərliyi ilə suverenliyimizin, ərazi bütövlüyümüzün tam şəkildə bərpa edilməsi bizim üçün böyük ərməğan olub. Biz onu ancaq röyalarımızda görürdük, fikirləşirdik. Amma həyatda Allah-taala mənə nəsib etdi. Çünki bəzi adamlar var idi, deyirdilər ki, bu, ola bilməz, biz buna inanmırıq. Amma əlhəmdülillah, Sizin rəhbərliyinizlə, Sizin siyasətinizlə, Sizin apardığınız həm daxili, həm xarici siyasət, həm xalqın birliyi ilə Qələbə qazandıq, Zəfər qazandıq. Allah-taala həmişə Sizi uca eləsin, Zəfərinizi uca eləsin, bizim dualarımız Sizinlədir. Minnətdaram ki, Siz mənə bu cür qiymət verdiniz, verirsiniz və mənim qarşımda daha böyük vəzifələr qoyursunuz. Yəni verdiyiniz bu qiymətə görə mən imkan daxilində həyatımda əlimdən gələni edəcəyəm ki, gələcəkdə də islam dünyasında, dinlər arasında münasibətləri, qardaşlıq münasibətlərini, bir də ki, Azərbaycanın islam həmrəyliyini, tolerantlığını bütün dünyada yaya bilim və çatdıra bilim.

Mən bir daha Sizə təşəkkürümü bildirirəm ki, sıx iş qrafikinizə baxmayaraq, bizi qəbul etdiniz. Bu, Sizin milli-mənəvi dəyərlərə verdiyiniz böyük qiymət deməkdir. Ona görə də bizi qəbul etdiyinizə görə Sizə öz təşəkkürümüzü bildiririk. Allah-taala Sizə cansağlığı versin! Allah-taala Azərbaycanımızı qorusun! Allah-taala Sizə yeni-yeni Zəfərlər nəsib etsin, inşallah!

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** Mən istərdim ki, sözü Türk Dövlətləri Təşkilatının Baş katibinə verim.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkür edirəm.

❖❖❖

Türk Dövlətləri Təşkilatının baş katibi **Kubanıçbek ÖMÜRALIYEV** çıxış edərək dedi:

- Zati-aliləri, biz Sizin ümumi qardaşlıq naminə göstərdiyiniz səyləri yüksək qiymətləndiririk və Siz bunu bu gün bir daha göstərdiniz.

Dünən də türk dünyasının dini liderlərinin 7-ci görüşünü keçirdik. Əlbəttə ki, sonrakı beynəlxalq konfrans Bakının beynəlxalq aləmin paytaxtına necə çevrilməsini nümayiş etdirir.

Həmin Qələbədən sonra təkcə Azərbaycan xalqı deyil, həmçinin bütün dünyada yaşayan azərbaycanlılar Sizin liderlik keyfiyyətlərinizdən fərəhlənir.

Mən çox qısa danışacağam. Bildiyiniz kimi, türk dünyamızın liderliyi sayəsində biz 60-dan çox sahədə əməkdaşlıq edirik və bu sahələrdən biri dindir. Bu məsələ çox vacibdir. Xüsusilə biz Fətva komitəsinin qərarlarını bəyan etmək üçün qərarlar qəbul edirik.

İcazə verin, buna görə müftilərimiz adından zati-alinizə məktubları təqdim edim.

❖❖❖

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** Çox sağ olun. Onu da deyim ki, bu türk dövlətlərin dini liderlərinin bu toplantısının ideyası da Sizindir. Sizin adınızdan gəldilər, məsləhət oldu və biz də onu yerinə yetirdik. İnşallah, bunu da davam etdirəcəyik.

Türkdilli Dövlətlərin Dini Liderləri adından çıxış edən Türkiyə Diyanət İşləri İdarəsinin sədri **Safi ARPAQUŞ** dedi:

- Cənab Prezident, əvvəlcə bizi qəbul etdiyiniz üçün minnətdarlığımı bildirmək istəyirəm. Hörmətli qardaşınız, Prezidentimiz cənab Rəcəb Tayyib Ərdoğanın salamlarını Sizə çatdırıram.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Safi ARPAQUŞ:** Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının 7-ci görüşünün və Şeyx Seyid Yəhya Bakuvi Şirvaniyə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransın bu gözəl Azərbaycan şəhərində keçirilməsindən məmnunluğumuzu bildirmək istəyirəm. Evsahibliyinizə və qonaqpərvərliyinizə görə bütün dostlarım adından ehtiramımı bildirirəm. Azərbaycan xalqına və Azərbaycan dövlətinə əbədi davamlı birlik, həmrəylik və islam ümməti daxilində qardaşlıq arzulayır, bunun dünya mövcud olduğu müddətdə davam etməsini diləyirik. Bu hisslərlə Sizə bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm və zati-alinizə hörmətimi bildirirəm.

❖❖❖

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm, sağ olun.

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** Çox sağ olun, minnətdaram. Biz həm də belə qərara gəlmişik ki, bu konfransı zati-alinizin qarşısında dayanıb çıxış etdiyiniz Ağdam məscidində davam etdirək. Çünki yadımdadır, hələ o dövrdə bütün Qarabağ şəhidlərinin dini mərasimləri həmin məsciddə olurdu.

**Prezident İlham ƏLİYEV:** Bəli, o cümlədən Xocalı qurbanlarının.

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** Bəli, o məscid çox şeylərə şahiddir. Ona görə də belə məsləhət oldu ki, bu gün oraya yola düşək. Sabah, inşallah, orada həm Seyid Yəhya Bakuvi, həm də Türk Dövlətləri Təşkilatı dini liderlərinin konfranslarını həmin məsciddə davam etdirək. Həm də Xocalını, inşallah, ziyarət edəcəyik. Bizim belə bir məsləhətimiz var.

**Prezident İlham ƏLİYEV:** Düzdür, şeyx həzrətləri, tamamilə haqlısınız. Ağdam məscidi tarixi bir məsciddir və hamımız yaxşı bilirik ki, işğal dövründə hələ ki, Ağdam işğal olunmamışdı, bizim şəhid olmuş soydaşlarımızın dini tədbirləri, mərasimləri orada keçirilirdi. O cümlədən Xocalı qurbanlarının da bütün mərasimləri orada keçirilmişdi. Onu da bildirməliyəm ki, biz bərpa işlərinə, demək olar ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan dərhal sonra - 2021-ci ildən başlamışdıq. Bərpa edilən birinci obyekt Ağdam məscidi olmuşdur. Bu günədək artıq 12 məscid, - hansılar ki, ya tamamilə dağıdılmışdı, ya da ki, yarı dağıdılmışdır, - bərpa edilib, yenidən qurulub və bu proses davam etdirilir. O cümlədən siz Şuşada yeni inşa edilən məscidin tikintisi ilə də tanış olacaqsınız.

Yəni bir daha demək istəyirəm, xalqımızın milli-mənəvi dəyərlərimizə, dinimizə o qədər böyük sevgi və hörməti var ki, biz birinci bərpa işlərini məsciddən başladıq və bu gün bu proses davam etdirilir. Ona görə çox yaxşı bir qərardır və Ağdam da faktiki olaraq indi yenidən qurulur. Onu da bildirməliyəm ki, işğal dövründə Ağdamda bir dənə də olsun bina qalmamışdı. Nə şəhərdə, nə də ki, işğal altında olan kəndlərdə. Bütün binalar söküldü, daşlar talan edildi, aparıldı, bazarlarda satıldı. Bunun əsas məqsədi o idi ki, şəhərlər dağıdılsın, ondan sonra azərbaycanlılar heç vaxt qayıtmasınlar. Bu, birinci məqsəd idi. İkinci məqsəd, əlbəttə ki, təmənna, yəni talançılıq idi. Sökülən o daşları, binaların dam örtüklərini, çərçivələri - hamısı - hətta qəbir daşlarına qədər - onları da aparmışdılar. Sonra o rəhmətə getmiş insanların o qəbir daşlarında olan adlarını silib onları bir mərmər kimi, qranit kimi bazarlarda satırdılar. Biz, bax belə misli görünməmiş talançılıqla üzləşmişdik. Hətta qəbirləri qazıb rəhmətə getmişlərin qızıl dişlərini belə çıxardırdılar.

Bütün bunları dünya bilməlidir. Dünya 30 il ərzində buna göz yumub. Ermənistanın arxasında duran böyük dövlətlər, o cümlədən və ilk növbədə, mənfur Minsk qrupunun həmsədr ölkələri bütün bu işləri ört-basdır etmək istəyirdi. Ermənistan işğal edilmiş torpaqlara heç bir xarici müşahidəçi buraxmırdı. Ancaq Qərbdən və digər ölkələrdən olan pulla alınmış bəzi siyasətçiləri, ictimai xadimləri gətirirdilər ora göstərsinlər ki, onlar burada necə yaşayırlar. Amma beynəlxalq təşkilatlar buna səssiz qalıb. Birləşmiş Millətlər Təşkilatı, - hansı ki, Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdi ki, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələri çıxarılmalıdır, - səssiz qalıb, ATƏT səssiz qalıb. Avropa Şurası faktiki olaraq işğalı dəstəkləyib. Avropa Parlamenti işğalçı Ermənistana hər zaman dəstək verib və bu gün də bu belədir. Yəni bax bu, bizə olan münasibətin kiçik bir təsviridir. Görün, biz kimlərlə üzbəüz qalmışdıq, yəni Ermənistan təkbaşına deyildi. Ermənistan təkbaşına olsaydı, bu məsələ çoxdan həll olunardı. Yaxud da ki, o vaxt bu işğala, bu vəhşiliyə, bu soyqırımına görə Ermənistana beynəlxalq sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan həll olunardı. Eləmədilər, bilərəkdən, qəsdən. İndi yeri gəldi-gəlmədi, hər yerə sanksiyalar qoyulur. Amma yaxşı, Ermənistan burada başqa dövlətin 20 faiz torpağını zəbt edib, 700 min insanı oradan qovub, 250 min insanı - azərbaycanlıları Ermənistandan qovub, dağıdıb hər şeyi, bütün şəhərləri. Sən niyə ona sanksiya tətbiq etmirsən? Bu, deməli, ikili standartlardır. Haradan gəlir bu ikili standartlar, aydın məsələdir. Hər halda islam aləmindən gəlmir. Ona görə bax, biz hamımız bunu bilməliyik.

Mən bir də qayıdıram ön sözümə ki, bizim birliyimiz hər birimizi gücləndirəcək. Çünki biz hər birimiz tək qalanda çətinliklərlə üzləşə bilərik. Amma türk dünyası, Qafqaz, islam aləmi bir yerdə olanda heç kim bizə bata bilməz. Heç kim bizə qarşı ədalətsizlik edə bilməz. Ona görə də biz dövlət olaraq və dövlət siyasəti apararaq bu amili həmişə üstün tuturuq. Çünki biz bu ədalətsizliklə üzləşmişdik. 30 il biz bütün Avropa təşkilatlarında öz səsimizi ucaldırdıq, həqiqəti çatdırmağa çalışırdıq. Elə mən özüm şəxsən 2001-ci ildə, - o vaxt Milli Məclisin deputatı idim, Azərbaycan Avropa Şurası Parlament Assambleyasına üzv olmuşdu, mən də Azərbaycan nümayəndə heyətinin başçısı idim, - bizim nümayəndə heyəti oraya gələndə, birinci növbədə bu məsələni qaldırdıq ki, ədalətsizliyə son qoyulmalıdır və nə tələb edirdik? Tələb etmirdik ki, Avropa Şurası, gedin, Ermənistana qarşı vuruşun. Tələb edirdik ki, siyasi qərar qəbul edin. İşğalçını işğalçı adı ilə çağırın və siyasi qərarın qəbul edilməsi faktiki olaraq bir siyasi qiymətdir. Bunu etmək istəmədilər. Siyasi qiymət verilmədi. Əksinə, bizi qaralayırdılar, bizi ləkələyirdilər və bu gün də bu, davam edir. Baxın, indi Azərbaycan gücləndikcə, necə deyərlər, öz potensialını tam işə saldıqca, yenə də bizə qarşı Qərbdən çirkin media kampaniyası aparılır. Yəni bizi qaralayırlar, Azərbaycan haqqında hər gün yalan, iftira, böhtanla dolu yazılar dərc edilir.

Avropa Şurasında Ermənistana qarşı sanksiya tətbiq edilmədi. Amma biz ki, 2023-cü ilin sentyabrında Qarabağı tam azad etdik, separatçılığın kökünü kəsdik və separatçıları həbs etdik, deməli, ondan dörd ay sonra Avropa Şurası bizə qarşı sanksiya tətbiq etdi. Bax, onların əsl siması budur. Avropa Parlamenti rüşvətxorlar yuvasıdır. Bunu mən tam məsuliyyətlə deyirəm - rüşvətxorlar yuvasıdır Avropa Parlamenti. Onun vitse-prezidentinin evindən çamadanlarla dolu milyonlarla dollar çıxdı, hamısını ört-basdır etdilər. Elə bil olmayıb bu. Onun adı bəllidir, o, Yunanıstandan olan bir xanım deputatdır. Neçə il keçib onun üstündən? Bir ölçü götürülüb ona qarşı? Yox! Məsuliyyətə cəlb edilib? Yox! Sərbəst buraxılıb. Avropa Parlamenti bax, bu islamofoblardan ibarətdir və bu da daim diqqət mərkəzində olmalıdır.

Bizim dinimizə qarşı, islam dünyasına qarşı elan olunmamış müharibə gedir və islamofobiya onun kiçik bir tərkib hissəsidir. Müsəlman aləmini gözdən salmaq, ləkələmək, terrorla eyniləşdirmək, bizim dəyərlərimizə qarşı, müqəddəs "Qurani-Kərim"ə qarşı o təhqiredici faktlar. Siz hesab edirsiniz ki, bunlar elə təsadüfən baş verir? Yox! Bu, məqsədyönlü siyasətdir. Biz də nə qoymalıyıq bunun qabağına? Ancaq birliyimizi! Ona görə bu birliyə çağırış, sadəcə olaraq, şüar deyil. Azərbaycan çox nadir müsəlman ölkələrindəndir ki, Avropa təşkilatlarında iştirak edir. Ona görə biz bilirik orada nələr baş verir. Avropa Şurasının üzvü olaraq biz bu ədalətsizliklərlə üzləşmişdik, üzləşirik və yəqin ki, üzləşəcəyik. Bizə qarşı elan edilməmiş bu qarayaxma kampaniyası heç vaxt dayanmayacaq. Nə üçün? Çünki biz heç kimin qabağında baş əymirik və əyməyəcəyik, öz sözümüzü deyirik, öz milli mənliyimizi qoruyuruq, öz həyat tərzimizi qoruyuruq. İmkan vermirik ki, xalqımıza və dinimizə yad olan bəzi meyillər Azərbaycanda kök salsın. Mənəviyyat keşikçiləriyik. Bax, buna görə bizə qarşı bu kampaniyalar aparılır. Mən bizim görüşümüzün çərçivələrini bir qədər genişləndirdim, yəni sadəcə olaraq, öz fikirlərimi sübutlarla əsaslandırmaq üçün. Yəni bir daha bu əsas mesaj odur ki, biz hamımız birliyə çalışmalıyıq. Yenə də deyirəm, din xadimlərinin sözləri bütün müsəlman ölkələri üçün xüsusi məna daşıyır. Buyurun.

❖❖❖

Müsəlman Ağsaqqalları Şurasının baş katibi **Məhəmməd ƏBDÜLSALAM** çıxış edərək dedi:

- Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri Prezident İlham Əliyev.

Şeyxülislam Allahşükür Paşazadə həzrətləri.

Möhtərəm alimlər, mötəbər konfransın hörmətli iştirakçıları.

Cənab Prezident, icazənizlə, çıxışıma Sizin sözlərinizə münasibət bildirməklə başlamaq istərdim.

Cənab Prezident, Siz ölkənizi həm dünyaya, həm də islam aləminə islam qardaşlığının aparıcı nümunəsi kimi təqdim etməyə nail olmusunuz. Bu qardaşlıq bütün parçalanmaları, qarşıdurmaları, məzhəb və təriqət ayrı-seçkiliklərini aşaraq, Sizin də qeyd etdiyiniz kimi, həll yolunun islam həmrəyliyindən və birliyindən keçdiyini bəyan edir.

Alimlərin və fəqihlərin rolu olduqca mühüm məsələdir. Çünki diplomatiyanın və siyasətin səsi ilə yanaşı, alimlərin və mütəfəkkirlərin də güclü səsi olmalıdır.

İcazənizlə, Siz danışarkən və ölkənizin keçdiyi bu mühüm, həssas mərhələləri bütün aydınlığı ilə nəql edərkən ağlıma gələn bir fikri Sizinlə bölüşüm. Bu, Sizi dinləyənlərin ilk dəfə eşitdiyi bir fikir deyil. Mən Sizi bir neçə dəfə dinləmişəm və Sizin öz məsələnizdən, öz amalınızdan iman və inamla danışdığınızın şahidi olmuşam.

Bütün bunları bir ifadə ilə belə təsvir etmək istərdim: Siz müharibədə Sərkərdə olduğunuz kimi, sülhdə də Sərkərdəsiniz. Bu gün bizim ehtiyac duyduğumuz məhz budur.

Cənab Prezident, icazənizlə, Sizin şəxsinizdə bütün Azərbaycan xalqına Əl-Əzhər Əş-Şərifin Böyük İmamı, Şeyx Əhməd ət-Tayyib həzrətlərinin salamlarını, ehtiramını, məhəbbətini və dualarını çatdırım. O, bu ölkəyə böyük dəyər verir və məndən xahiş etdi ki, dünən keçirilən konfransda onun Şeyx Yəhya Bakuvi həzrətlərinin müridlərindən olduğunu, Misirdə onun davamçıları arasında yer alan Xəlvətiyyə təriqətinə mənsub olduğunu bəyan edim. Bu təriqətin əsas sütunlarından və böyük simalarından biri də qədim dövrün, eyni zamanda müasir dünyamızın müsəlman filosofu Şeyx Seyid Yəhya Bakuvidir.

Sizin də qeyd etdiyiniz və vurğuladığınız kimi, dünyamızın getdikcə daha çox qarşıdurma və parçalanmalarla üzləşdiyi bir vaxtda biz belə alimlərin irsinə ehtiyac duyuruq. Biz Seyid Yəhya Bakuvinin elmi irsinə, düşüncəsinə və təliminə ehtiyac duyuruq ki, mötədillik, mehriban qonşuluq, dövlətlərin suverenliyinə hörmət, xalqların və ölkələrin təhlükəsizliyinin qorunması kimi dəyərlərin yalnız beynəlxalq münasibətlərdə, diplomatiyada və siyasətdə qəbul edilmiş qaydalar deyil, həm də dini, əxlaqi və bəşəri dəyərlər olduğunu bir daha təsdiq edək.

Sizin çıxışınızda qeyd etdiyiniz, eləcə də konfransda mötəbər alimlərin vurğuladıqları kimi, din adı altında insanın öz vətəninin hüdudlarını, ləyaqətini və sabitliyini aşan, vətənin, eləcə də digər ölkələrin təhlükəsizliyini və sabitliyini təhdid edən hər hansı sədaqət anlayışı mövcud ola bilməz.

Cənab Prezident, biz hamımızın - Əl-Əzhər Əş-Şərifin, bu müdrik insanın - Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin üzvü olmaq şərəfinə nail olduğu Müsəlman Ağsaqqalları Şurasının, həmçinin türk dövlətlərinin ölkələrin möhtərəm alimlərinin adından bəyan edirik ki, Şeyx Seyid Yəhya Bakuvinin elmi irsi və islam həmrəyliyinə dair sufi fəlsəfəsi bu gün dünyamızın ən çox ehtiyac duyduğu dəyərlərdəndir. Bu irs insan ləyaqətini, xalqların və dövlətlərin sabitliyini qorumağa xidmət edir.

Cənab Prezident, sonda Sizə demək istəyirəm ki, xalqınız Sizinlə fəxr etdiyi kimi, biz də Sizinlə fəxr edirik. Biz Sizin əməyiniz, fədakarlığınız, islam ümmətinə sədaqətiniz, islama və müsəlmanlara, xalqınıza və regionunuza xidmətiniz, həmçinin alimlərin irsinə göstərdiyiniz hörmət və ehtiram ilə fəxr edirik.

Çıxışınızın əvvəlində alimlərin yaşadıqları tarixləri və bu ölkədən keçmiş, burada yetişmiş böyük alimləri xronoloji ardıcıllıqla qeyd etməyiniz mənim üçün çox təsirli oldu. Siz bu irsin bu gün də həyatımız üçün bir dəyər olduğunu vurğuladınız. Bütün dünyada liderlərdən, mütəfəkkirlərdən və alimlərdən ehtiyac duyduğumuz yanaşma məhz budur.

Bir daha qeyd edirəm: Siz müharibədə qəhrəman oldunuz, eyni zamanda sülhdə də qəhrəman oldunuz.

Dünən Siz böyük sevgi və ehtiramla bəyan etdiniz ki, layiq olduğunuz və böyük xidmətinizə, Azərbaycan və Ermənistan arasında tarixi sülh sazişinin əldə olunmasında göstərdiyiniz böyük səylərə görə qazandığınız "Zayed İnsan Qardaşlığı Mükafatı"nı xalqınıza, azad edilmiş ərazilərə və onun inkişafına töhfə vermək məqsədilə bağışlayırsınız. Bu, Sizin vətəninizə və ümmətinizə sədaqətinizin daha bir nümunəsidir.

Sizə dərin təşəkkürümü bildirirəm. Allah Sizə bərəkət versin, Azərbaycana bərəkət versin.

Qardaşımın da qeyd etdiyi kimi, Azərbaycan artıq konfranslar paytaxtına çevrilib. Həqiqətən də Azərbaycan mühüm və əhəmiyyətli konfransların paytaxtına çevrilmişdir.

Zati-alinizə, Sizinlə birlikdə çalışan bütün şəxslərə, eləcə də bizim qardaşımız və ağsaqqalımız hesab etdiyimiz möhtərəm Şeyxülislam həzrətlərinə dərin ehtiramımızı, minnətdarlığımızı və ən xoş arzularımızı bildiririk.

Allah Sizə bərəkət versin. Təşəkkür edirəm.

❖❖❖

**Prezident İlham ƏLİYEV:** İlk növbədə, xahiş edirəm ki, mənim salamlarımı və hörmətimi böyük İmama çatdırasınız. Onunla Misirdə, Əl-Əzhərdə görüşümü mən heç vaxt unutmayacağam. O cümlədən onun Bakıda olmasını da məmnunluqla xatırlayıram. Onu yenidən Bakıda görməyi çox istərdim və müvafiq məktublar da göndərildi. Ümid edirəm ki, bizim dəvətimizi qəbul edəcək.

Eyni zamanda sizə bir daha təşəkkürümü bildirmək istəyirəm, Şeyx Zayed adına olan bu mükafata görə. Bu mükafat çox böyük məna daşıyır, təbii ki, mənim üçün. Çünki çox mötəbər bir münsiflər heyəti tərəfindən qərar verilmişdir və bilirəm ki, orada seçim prosesi çox dəqiqdir və çox həssasdır, bir çox amillər nəzərə alınır. Buna görə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda bu mükafat sülhə atılmış növbəti bir addım idi. Bu, bizim sülh gündəliyimizi dəstəkləyən bir addım idi. Çünki mən bir daha demək istəyirəm, biz indi Ermənistanla sülh şəraitində yaşayırıq. Ancaq bizim ürəyimizdə olan yaralar sağalmayıb. Xalqımızın qəlbində olan o yaralar sağalmayıb və nə vaxt sağalacaq, bunu heç kim bilə bilməz.

Qanlı toqquşmalardan, 30 illik işğaldan cəmi iki il keçməmiş sülhə addımlamaq çox böyük həm cəsarət tələb edir, uzaqgörənlik tələb edir və eyni zamanda bir daha Azərbaycanın sülh gündəliyini nümayiş etdirir. Əlbəttə, müxtəlif yollar seçilə bilərdi və təbii ki, seçim Azərbaycanın idi. Çünki Azərbaycan müharibədə qalib gəlmişdir. Ermənistan tam məğlub edilmişdir, kapitulyasiya aktına imza atmışdır və əlbəttə ki, biz istənilən gündəliyi diktə edə bilərdik. Ancaq biz sülh gündəliyini seçdik və bu seçimin nə qədər müdrik olması bu gün bütün dünyaya, necə deyərlər, aydındır və bütün dünya bunu görür. Çünki bu qarşıdurma, bu müharibə nə vaxtsa dayanmalı idi və onu biz dayandırmasaq, onu heç kim dayandıra bilməzdi. Biz onu dayandırmasaydıq, bu, elə əbədi davam edəcəkdi, qan töküləcəkdi, şəhidlər veriləcəkdi və ölkəmizin normal inkişafı mümkün olmayacaqdı. Ona görə bax, bu sülh gündəliyini praktiki işlərlə dəstəkləyən məhz Sizin mənə və Ermənistanın Baş nazirinə verdiyiniz mükafat idi.

*Ardı 4-cü səh.*

# BİRLƏŞDİRİCİ, BARIŞDIRICI QLOBAL LİDER

## İLHAM ƏLİYEV: "Əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın"



*Əvvəli 3-cü səh.*

Bəli, bəyanatlar verilmişdir. Ermənistanla Azərbaycan arasındakı sülh müqaviləsinin paraflanmasına, demək olar ki, bütün beynəlxalq birlik dəstək vermişdir, yəni siyasi bəyanatlar verilmişdir. Amma bu mükafat onları daha da gücləndirdi. Əbu-Dabidə sizin təşkil etdiyiniz o təntənəli mərasim, sizin şəxsi münasibətiniz və orada dünya liderlərinin sülh prosesinə dəstək verməsi, əlbəttə ki, bu müsbət meyilləri gücləndirir.

Biz cəmi bir ildən bir qədər çox - bir il bir aydır sülh şəraitində yaşayırıq. Sülh hələ ki, tam oturuşmayıb. Bəli, bizim güclü iradəmiz var. Biz sülh gündəliyinə sadiqik. Ancaq dünyada və ətrafımızda gedən proseslər, - indi hər kəs görür, - faktiki olaraq idarəolunmaz səviyyəyə gəlib çıxıb və hətta xaotik vəziyyət dərinləşə bilər, həm mövcud münaqişələr çərçivəsində, həm də genişlənə bilər. Biz görürük ki, artıq bir çox ölkələr müxtəlif bölgələrdə qarşıdurmadadırlar. Yəni bu, iki ölkə arasındakı qarşıdurmalar deyil. Artıq bir çox ölkələr bu qarşıdurmalarda fəal iştirak edir və bu qanlı toqquşmaların coğrafiyası genişlənir. Ona görə türk dünyasını, Qafqaz bölgəsini sülh şəraitində saxlamaq və sülhü qorumaq üçün hər birimiz böyük səylər göstərməliyik. Ona görə mən bir daha sizə təşəkkürümü bildirirəm ki, sizin bizə verdiyiniz o mükafat həm ictimai fikirdə, həm ondan sonra siyasi addımların atılmasında və sülhü artıq geridönməz etməsində çox böyük rol oynadı. Ona görə bir daha təşəkkür edirəm və bütün xoş sözlərinizə görə sizə minnətdaram.

❖❖❖

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** İslam Əməkdaşlıq Təşkilatının nümayəndəsi, IRCICA-nın baş direktoru Mahmut Erol Kılıç cənabları da bir-iki kəlmə danışmaq istəyir.

**Prezident İlham ƏLİYEV:** Buyurun.

IRCICA-nın (İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi) baş direktoru **Mahmut Erol KILIÇ** çıxış edərək dedi:

- İslam Əməkdaşlıq Təşkilatının (İƏT) törəmə mədəniyyət qurumu olan IRCICA adından gözəl Bakı şəhərində bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə, cənab Prezident, Sizə bir daha minnətdarlığımı ifadə etmək istəyirəm. Bildiyiniz kimi, İƏT 57 üzv dövləti bir araya gətirir və onlardan biri Azərbaycandır, biri də mənim ölkəm Türkiyədir. Tarix, mədəniyyət və incəsənət üzrə fəaliyyət göstərən İƏT-in törəmə qurumu IRCICA-nın mənzil-qərargahı İstanbuldadır. Biz gözəl konfranslar təşkil edirik. Mən fikirlərimdən birini sizinlə bölüşmək istəyirəm. Xüsusilə islam dünyasında dinin anlayışı dəhşətli şəkildə təhrif olunur. Buna bəzi regionlarda sələfilik və bu kimi adlar verilir. Bu kimi məfhumlar dini məhv edir. Lakin biz bilirik ki, Azərbaycanda gözəl Sufizm tarixi var. Füzuli, Seyid Yəhya Şirvani, Neymətulla Naxçıvani kimi mülayim düşüncəli sufi mütəfəkkirlər və bir çox digərləri olub. Ona görə mən sizdən şəxsən xahiş edirəm ki, xüsusilə islam dünyasına və bütün dünyaya islamın bu gözəl və mülayim tərəfini göstərmək üçün tərəfimizdən daha çox tədbirlər görülməlidir.

Bir daha çox sağ olun.

❖❖❖

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** Mən də sizə təşəkkürümü bildirmək istəyirəm. Bilirsiniz nəyi? Mədrəsə, Mir-i Ərəb mədrəsəsi, Siz ki, oraya getdiniz.

**Prezident İlham ƏLİYEV:** Şəkil də çəkdirdik Sizin portretinizin fonunda. Mən Mehriban xanıma dedim, gəlin, şəkil çəkdirək və şeyxə göndərin. O şəkil ki, onun mədrəsəsində dostumuzla çəkdirdik.

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** Şavkat Mirziyoyevin babası da orada oxuyub.

**Prezident İlham ƏLİYEV:** Bəli, şəkli var, sizin də şəkliniz.

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** Bəli, mənim də şəklim var. Minnətdaram ki, Siz o milli-mənəvi dəyərlərə bir daha qiymət verdiniz. Əlbəttə, bu görüş bizim hamımızı çox sevindirdi. Bu, türk dövlətlərinin xüsusi bir görüşü idi.

**Prezident İlham ƏLİYEV:** Belə tez-tez yığışırsınız.

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** Bu görüşlərdə bir mülayimlik, bir mərhəmət var. Bu görüşlər türkdilli xalqları daha sıx birləşdirir.

**Prezident İlham ƏLİYEV:** Təbii ki, indi türk dövlətlərinin müsəlman liderlərinin görüşləri müxtəlif ölkələrdə keçirilir və sıra ilə keçiriləcək. Amma bax, bu konfrans ki, keçirilir, bunu biz ənənəvi edə bilərik. Ənənəvi edə bilərik, ya hər il, ya iki ildən bir ki, bu, həm gözəl bir toplantı kimi, həm fikir mübadiləsi, həm müzakirə, həm də birliyin nümayişi olsun. Ona görə bu haqda da fikirləşin. Yenə də təşəbbüsü mən irəli sürürəm, sizdən də konkret təkliflər gözləyirəm.

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:** Minnətdarlığımızı bildiririk, çox sağ olun, bu qədər vaxtınızı bizə ayırdınız.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖❖❖

Sonda xatirə şəkli çəkdirildi.

# Qardaşlıq və strateji müttəfiqlik münasibətləri bütün istiqamətlər üzrə uğurla inkişaf edir

## Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Hakan Fidan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan-Türkiyə qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın "Bir millət, iki dövlət" prinsipi əsasında daha da möhkəmləndiyi məmnunluqla qeyd edildi.

Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq, alternativ enerji istiqamətində beynəlxalq bazarlara yeni çıxış yolları ilə bağlı fikir mübadiləsi aparıldı. Ölkələrimizin logistika baxımından əhəmiyyəti, o cümlədən Avropa ilə Asiya arasında mühüm körpü rolu oynadıqları vurğulandı, beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizin əlaqələndirilməsinin önəmi qeyd olundu.

Görüşdə ikitərəfli əlaqələrimizin perspektivləri, regional məsələlər və qarşılıqlı maraq doğuran digər mövzularla bağlı fikir mübadiləsi aparıldı.

# A.N.Əsgərovun Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Ayaz Nəriman oğlu Əsgərov Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 sentyabr 2026-cı il*

# Pan-Afrika Parlamentinin prezidenti Azərbaycana səfərə gəlib



Pan-Afrika Parlamentinin prezidenti Fateh Butbiqin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Pan-Afrika Parlamentinin nümayəndə heyətini Milli Məclisin Qambiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Eyvaz Qurbanov və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***



# *Tarixi zəfər və Qərbin ikili standartları:* qlobal ədalətsizliklərə qarşı Azərbaycan reallığı

**Beynəlxalq münasibətlər sistemində ədalət, hüquq və bərabərlik prinsipləri tez-tez ikili standartların, siyasi oyunların kölgəsində qalır.**

Xüsusilə Qərb təsisatlarının dərinləşən islamofobiya və qərəzli yanaşmaları fonunda Azərbaycan öz prinsipial mövqeyi, suverenliyi və milli maraqları uğrunda mübarizəsi ilə regional və qlobal miqyasda tamamilə yeni bir reallıq yaradıb. Bu reallığın əsasında bir tərəfdən islam dünyası ilə sarsılmaz bağlılıq, digər tərəfdən isə tarixi ədalətin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə rəğmən milli imkanlar hesabına bərpa edilməsi dayanır.

Azərbaycan dünyada və xüsusilə müsəlman aləmində baş verən mürəkkəb proseslər fonunda islam həmrəyliyinin gücləndirilməsini öz xarici siyasətinin mühüm prioritetlərindən birinə çevirib. Ölkəmiz bu ideyanı yalnız bəyanatlarla deyil, konkret və praktiki addımlarla dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və ICESCO çərçivəsində keçirilən mühüm tədbirlər, eləcə də 2017-ci ildə Bakıda yüksək səviyyədə təşkil edilən IV İslam Həmrəylik Oyunları Azərbaycanın islam aləmindəki birləşdirici və aparıcı rolunu bütün dünyaya nümayiş etdirdi.

Bu addımlar islam mədəniyyətinin dünyada təbliğinə və müsəlman ölkələri arasında dostluq körpülərinin möhkəmlənməsinə xidmət edir. Dövlətimizin başçısı sentyabrın 15-də Bakıda beynəlxalq konfransların iştirakçıları ilə görüşündəki çıxışında bu strateji xətti növbəti dəfə aydın şəkildə bəyan edib. Vurğulanıb ki, Azərbaycan hər zaman islam aləminin birliyinə, həmrəyliyinə öz töhfəsini verib və bundan sonra da verəcək: "Bugünkü dünyada və xüsusilə müsəlman aləmində baş verən bəzi hadisələr, təbii ki, bizim hamımızı narahat edir. Biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, islam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək".

Ermənistanın 30 il ərzində həyata keçirdiyi işğalçılıq siyasəti təkcə torpaqlarımızın zəbt edilməsi ilə bitməyib, həm də böyük humanitar və mədəni fəlakətlə nəticələnib. Xocalı soyqırımı kimi bəşəri cinayətlər, şəhər və kəndlərimizin yerlə yeksan edilməsi, bir milyona yaxın soydaşımızın doğma yurdundan didərgin salınması Ermənistan dövlətinin və ona havadarlıq edənlərin əsl xislətini göstərir. Xüsusilə dini və mədəni irsimizə qarşı törədilən vandalizm aktları ortadadır. İşğal dövründə Azərbaycanın 65 məscidi Ermənistan tərəfindən tamamilə dağıdılıb, təhqir olunub və məqsədyönlü şəkildə heyvan saxlanılan yerlərə çevrilib. Bu məscidlərin dağıdılması təkcə Azərbaycan xalqına deyil, bütün islam dünyasının mənəvi dəyərlərinə qarşı törədilmiş açıq hörmətsizlikdir.

Azərbaycan 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrındakı lokal antiterror tədbirləri ilə beynəlxalq hüququ özü bərpa edərək qlobal miqyasda böyük bir presedent yaratdı.

Bu gün Qarabağda nəinki infrastruktur yenidən qurulur, artıq 48 şəhər və kənddə 90 mindən çox insan yaşayır. Həm də mənəvi yaddaşımız bərpa olunur. Bərpa işlərinə ilk başlanılan obyektin Ağdam məscidi olması və artıq 12 məscidin tam bərpa edilib və ya yenidən qurulması məhz bu mənəvi dəyərin təzələnməsidir. Lakin bütün bunlarla yanaşı, çəkilən acılar heç vaxt unutdurulmamalıdır.

Prezident İlham Əliyev tarixi yaddaşın qorunmasının vacibliyini xüsusi vurğulayıb: "Ancaq biz bizə qarşı, xalqımıza qarşı törədilən vəhşilikləri heç vaxt unutmayacağıq. Xocalı qurbanlarını unutmayacağıq, dağıdılmış məscidlərimizi, təhqir edilmiş mədəni ocaqlarımızı heç vaxt unutmayacağıq və bu yaddaş bizi daha da ayıq edəcək. Bu yaddaş imkan verməyəcək ki, biz yenə də şirin sözlərə aldanaq, imkan verməyəcəyik ki, yenə də xalqımıza qarşı hansısa məkrli planlar baş tutsun".

30 il ərzində xarici qüvvələr və Ermənistanı dəstəkləyən müəyyən dövlətlər işğal faktını uzatmağa və onu əbədiləşdirməyə çalışdılar. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qaldı. Ləğv olunmuş ATƏT-in Minsk qrupu isə münaqişəni həll etmək deyil, dondurmaq və işğala hüquqi don geyindirmək funksiyasını yerinə yetirirdi.

Dövlətimizin başçısı beynəlxalq tədbirdə xatırlatdı ki, Azərbaycan hələ 2001-ci ildə Avropa Şurası Parlament Assambleyasına üzv seçiləndən bəri bütün Avropa platformalarında ədalətin bərqərar olunmasını, işğalçıya qarşı adekvat siyasi qiymət verilməsini tələb etsə də, bu çağırışlar məqsədyönlü şəkildə cavabsız saxlanılırdı.

Daha böyük ədalətsizlik və riyakarlıq isə Avropa təsisatlarının sonrakı addımlarında özünü göstərdi. 30 illik işğal dövründə Ermənistana qarşı heç bir sanksiya tətbiq etməyən, onun təcavüzkar siyasətinə və etnik təmizləmələrə göz yuman Avropa Şurası və Avropa Parlamenti hər zaman işğalçının yanında yer aldı. Açıq riyakarlıq isə 2023-cü ildə baş verdi. Azərbaycan öz suverenliyini bərpa edib separatçılığın kökünü kəsdikdən cəmi 4 ay sonra Avropa Şurası ölkəmizə qarşı sanksiya tətbiq etdi. Bu gün də Azərbaycan gücləndikcə Qərb mediasında yalan, iftira və böhtan dolu çirkin kampaniyalar davam etdirilir. Prezident İlham Əliyev Avropa təsisatlarının bu riyakar simasını və rüşvətxorluq bataqlığını açıq şəkildə ifşa edib: "30 il biz bütün Avropa təşkilatlarında öz səsimizi ucaldırdıq, həqiqəti çatdırmağa çalışırdıq". Dövlətimizin başçısı qeyd edib ki, bizi qaralayırdılar, bizi ləkələyirdilər və bu gün də bu, davam edir: "Baxın, indi Azərbaycan gücləndikcə, necə deyərlər, öz potensialını tam işə saldıqca, yenə də bizə qarşı Qərbdən çirkin media kampaniyası aparılır. Yəni bizi qaralayırlar, Azərbaycan haqqında hər gün yalan, iftira, böhtanla dolu yazılar dərc edilir".

Ölkəmizə qarşı aparılan sistemli qarayaxma kampaniyası və Avropa təsisatlarında kök salmış islamofobiya Azərbaycanın müstəqil iradəsinə və tutduğu prinsiplərə təsir göstərə bilməz. Dövlətimizin başçısı çıxışında bir daha bəyan etdi ki, Azərbaycan öz milli ləyaqətini və suverenliyini hər şeydən uca tutur və heç bir təzyiq qarşısında geri çəkilməyəcək: "Azərbaycan çox nadir müsəlman ölkələrindəndir ki, Avropa təşkilatlarında iştirak edir. Ona görə biz bilirik orada nələr baş verir. Avropa Şurasının üzvü olaraq biz bu ədalətsizliklərlə üzləşmişdik, üzləşirik və yəqin ki, üzləşəcəyik. Bizə qarşı elan edilməmiş bu qarayaxma kampaniyası heç vaxt dayanmayacaq. Nə üçün? Çünki biz heç kimin qabağında baş əymirik və əyməyəcəyik, öz sözümüzü deyirik, öz milli mənliyimizi qoruyuruq, öz həyat tərzimizi qoruyuruq".

Azərbaycan öz gücü, dəmir iradəsi və Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə beynəlxalq hüququ təkbaşına bərpa etdi. Nə xarici təzyiqlər, nə də Qərb təsisatlarının qərəzli kampaniyaları ölkəmizi tutduğu haqq yolundan döndərə bilmədi. Bu gün Azərbaycan regionda uzunmüddətli sülhün tərəfdarı kimi çıxış edir və Ermənistanla sülh prosesini irəliyə aparır. Lakin gələcəyə yönəlmiş sülh siyasəti keçmişin silinməsi demək deyil. Əksinə, davamlı sülh üçün keçmişdə baş verənlər cəmiyyətin yaddaşında dürüst qiymətləndirilməlidir. Azərbaycan həm öz suverenliyini tam təmin etmiş qürurlu dövlət, həm də islam dünyasının həmrəyliyinə öncüllük edən aparıcı və birləşdirici güc mərkəzi kimi yoluna davam edir.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında



**Sentyabrın 15-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin payız sessiyasında ilk iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasın gündəliyinə 10 məsələ - komitədə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabat, komitənin 2026-cı ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı və bir sıra qanun layihələri daxil edilib.

Komitənin sədri Əli Hüseynli, əvvəlcə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin gördüyü işlər barədə hesabatı nəzərə çatdırıb. Bildirilib ki, ötən dövr ərzində komitənin 28 iclası keçirilib, 126 məsələyə baxılıb. Komitənin müzakirəsinə çıxarılmış qanun layihələri süni intellekt texnologiyalarından sui-istifadə hallarının qarşısının alınması, şəxslərin hüquq və azadlıqlarının, şərəf və ləyaqətinin qorunması, bu sahədə müvafiq hüquqi mexanizmlərin tətbiqi, rəqəmsal mühitdə uşaqların hüquqlarının müdafiəsinin gücləndirilməsi, sosial şəbəkə platformalarının fəaliyyətinə dair hüquqi mexanizmlərin təkmilləşdirilməsi kimi dəyişiklikləri əhatə edib. Bildirilib ki, bunlarla yanaşı, sözügedən dövrdə ictimai dinləmə və ya ictimai müzakirənin Elektron Hökumət İnformasiya Sistemi üzərindən də təşkil edilməsi, vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadəsinin elektron qaydada təşkili ilə bağlı sənədlər də komitədə nəzərdən keçirilib. Eyni zamanda ötən sessiyalarda vətəndaşlardan, idarə və təşkilatlardan daxil olmuş ərizə və məktublara, digər müxtəlif xarakterli sənədlərə komitədə baxılaraq müvafiq tədbirlər görülüb.

2026-cı ilin payız sessiyasının iş planı barədə məlumat verən Əli Hüseynli diqqətə çatdırıb ki, növbəti sessiyada komitədə qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələri, o cümlədən dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri, bəzi qanunlarda ediləcək dəyişikliklər ilə bağlı müzakirələr aparılacaq.

İclasda 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində görülən işlər qənaətbəxş hesab olunub, komitənin cari ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib.

Sonra gündəlikdəki qanun layihələri müzakirəyə çıxarılıb.

İclasda iştirak edən Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri Kəmalə Abıyeva və Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədov Mülki Prosessual Məcəllədə və İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinin (birinci oxunuş) mahiyyəti ilə bağlı fikirlərini açıqlayıblar.

Bildirilib ki, sənəddə təklif olunan dəyişikliklərin böyük bir qismi aidiyyət institutu ilə bağlıdır. Burada həm məhkəmə aidiyyəti, həm də ərazi aidiyyəti nəzərdə tutulur. Qanun layihəsində "məhkəmə aidiyyəti" və "ərazi aidiyyəti" arasındakı sərhəd konkretləşdirilir, hər iki aidiyyət növü üzrə mübahisələrə məhkəmələrdə baxılması, şikayət, apellyasiya, kassasiya şikayətlərinin verilməsi qaydaları ətraflı əks olunaraq sistemli şəkildə tənzimlənir. Digər dəyişiklik adıçəkilən hər iki məcəllədə işi mahiyyəti üzrə həll etməyən məhkəmə aktlarından verilmiş apellyasiya şikayətlərinə, habelə kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılmış işlərlə bağlı çıxarılmış məhkəmə qətnamələrindən verilmiş apellyasiya şikayətlərinə hakim tərəfindən təkbaşına baxılması müddəasının əlavə edilməsi ilə bağlıdır. Bununla yanaşı, Mülki Prosessual Məcəllədə yazılı icraat qaydasında baxılmalı olan işlərin siyahısı genişləndirilir, bir sıra maddələrə təkmilləşmə xarakterli dəyişikliklər nəzərdə tutulur.

Sonra Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin rəisi Elçin Nəsibov "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumat verib. Qeyd edilib ki, sənəddə ədliyyə orqanlarının tibb xidmətində hərbi qulluqçuların hüquqi statusunun müəyyənləşdirilməsi, bu sahədə xidmət keçmənin hüquqi əsaslarının təkmilləşdirilməsi və bəzi müddəaların dəqiqləşdirilməsi məqsədi ilə bir sıra dəyişikliklər təklif olunur.

Elçin Nəsibov, həmçinin "İcra haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, "İcra haqqında" qanuna "Tələbin borclunun qiymətli kağızlarına yönəldilməsi" adlı yeni maddənin əlavə edilməsi təklif olunur. Dəyişiklikdə tələbin həm borclunun özündə aşkar edilən sənədli qiymətli kağıza, həm də borclunun adına qeydə alınmış sənədsiz qiymətli kağıza, habelə mərkəzi depozitarda saxlanılan sənədli qiymətli kağıza yönəldilməsi mexanizmi müəyyən edilir. Bununla yanaşı, "Qiymətli kağızlar bazarı haqqında" qanunda uyğunlaşdırma xarakterli bəzi dəyişikliklər nəzərdə tutulur.

Sonra komitə sədri Əli Hüseynli gündəlikdəki digər məsələləri diqqətə çatdırıb.

Bildirilib ki, Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə mexanizmlərinin gücləndirilməsi, hüquqi şəxslərin bu sahədə məsuliyyətinin daha dəqiq müəyyən edilməsi, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin və FATF-ın müvafiq standartlarının milli qanunvericilikdə daha səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədi daşıyır.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı qeyd olunub ki, Məcəllənin 22.1-ci maddəsinin mövcud tələblərinə əsasən, adları həmin maddədə sadalanan şəxslərin Azərbaycan Respublikasında qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Bu maddəyə təklif edilən dəyişikliyə əsasən, həmin şəxslərin siyahısı daha da dəqiqləşdirilir, onların qeydiyyatının müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilməsi üçün Azərbaycan Respublikasında 15 gündən artıq olma müddəti müəyyən edilir. Bununla yanaşı, həmin şəxslərə qeydiyyat vəsiqəsinin verilməsi, müvafiq elektron sistemə məlumatların yerləşdirilməsi ilə bağlı qaydalar təkmilləşdirilir.

Gündəlikdəki növbəti məsələ - Mülki Məcəllədə, Gömrük Məcəlləsində, "Xidməti və mülki silah haqqında", "Polis haqqında", "Əməliyyat axtarış fəaliyyəti haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Ovçuluq haqqında", "İxrac nəzarəti haqqında" və "Telekommunikasiya haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı bildirilib ki, sənəddə "Lisenziyalar və icazələr haqqında" qanunun icrası ilə əlaqədar uyğunlaşdırma xarakterli düzəlişlər təklif olunur.

Sonra "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasına İkinci Əlavə Protokolun təsdiq edilməsi barədə" qanun layihəsi nəzərdən keçirilib. Sözügedən Protokol cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım mexanizmlərinin müasirləşdirilməsinə, tərəflərin səlahiyyətli orqanları arasında əməkdaşlığın operativ həyata keçirilməsinə, müasir kommunikasiya və prosessual imkanlardan istifadə edilməsinə xidmət edir.

Gündəliyin sonuncu məsələsi - "Azərbaycan Respublikası Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında "Hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında Saziş"ə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Ukraynanın Nazirlər Kabineti arasında Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsi ilə bağlı bildirilib ki, sənəd hökumət rabitəsi sahəsində səlahiyyətli orqanlar barədə müddəanın yenilənməsini nəzərdə tutur.

Məsələlər ətrafında aparılan müzakirələrdə komitənin üzvləri Erkin Qədirli və Azay Quliyev çıxış edərək fikir və qeydlərini səsləndiriblər.

Sonda gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Ceyhun Bayramov və Hakan Fidan Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin gündəliyini müzakirə ediblər

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Türkiyənin xarici işlər naziri Hakan Fidan sentyabrın 15-də Azərbaycan və Türkiyə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçiriblər.**

AZƏRTAC xəbər verir ki, nazirlər prezidentlərin rəhbərliyi və baxışları əsasında formalaşmış və Şuşa Bəyannaməsində təsbit olunmuş strateji müttəfiqlik münasibətlərinin geniş gündəliyini nəzərdən keçiriblər. Müzakirələr zamanı siyasi dialoq, iqtisadi və ticarət əlaqələri, investisiyalar, enerji, nəqliyyat və logistika, təhlükəsizlik və müdafiə, humanitar əməkdaşlıq, eləcə də beynəlxalq və regional təşkilatlar çərçivəsində koordinasiya məsələləri müzakirə olunub.



Nazirlər Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiya kimi institusional mexanizmlərin əhəmiyyətini vurğulayıblar. Tərəflər BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə, D-8 və digər beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Nazirlər Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Pakistan-Türkiyə və Azərbaycan-Özbəkistan-Türkiyə kimi üçtərəfli və dördtərəfli əməkdaşlıq formatlarının regional təhlükəsizliyə, iqtisadi inkişafa və əlaqələndirməyə verdiyi töhfəni qeyd ediblər.

Görüşdə ötən il ərzində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində əldə olunan irəliləyiş, eləcə də davamlı sülhün və regional əməkdaşlığın təmin olunması üçün atılacaq praktiki addımlar müzakirə edilib.

Nazirlər Yaxın Şərqdə və digər regionlarda baş verən hadisələr, yeni geosiyasi reallıqlar və davam edən münaqişələr barədə də fikir mübadiləsi aparıblar.

Tərəflər münaqişələrin və hərbi qarşıdurmaların siyasi və diplomatik yollarla həll edilməli olduğuna dair ortaq mövqelərini bir daha təsdiqləyiblər.

# Örnək liderlik nümunəsi

## Prezident İlham Əliyevin fəaliyyəti beynəlxalq miqyasda yüksək qiymətləndirilir



**Bu gün Azərbaycan regionda davamlı sülhün və sabitliyin əsas təminatçısıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən uzaqgörən siyasət nəticəsində Cənubi Qafqaz onilliklər boyu davam edən münaqişə zonasından əməkdaşlıq və inkişaf məkanına çevrilib.**

Bu tarixi fəaliyyətin və sülh quruculuğu missiyasının beynəlxalq miqyasda yüksək qiymətləndirilməsinin bariz nümunələrindən biri dövlətimizin başçısının nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsidir. Sentyabrın 14-də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam tərəfindən bu mükafatın sertifikatının Prezident İlham Əliyevə təqdim olunması ölkəmizin sülh gündəliyinin qlobal səviyyədə təqdir edildiyini bir daha göstərdi.

Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsi istiqamətində göstərdiyi yorulmaz səylərə və qlobal sülh missiyasına görə bu nüfuzlu mükafata layiq görülüb. Mükafatın şərtlərinə əsasən təqdim edilən 500 min dollar məbləğində pul vəsaitinin Prezident İlham Əliyev tərəfindən tam olaraq Qarabağ Dirçəliş Fonduna köçürülməsi barədə qərar qəbul edilməsi isə böyük dövlət xadiminin xalqına, öz torpağına və quruculuq ideallarına sadiqliyinin növbəti parlaq və nümunəvi təzahürüdür.

### Əbu-Dabi görüşündən Vaşinqtona

Azərbaycanın irəli sürdüyü sülh gündəliyi addım-addım real nəticələrə çevrilərək regionda de-fakto sülhü bərqərar edib. Ötən ilin 10 iyul tarixində Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabi şəhərində keçirilən görüşü Bakının təşəbbüskar rolu ilə prosesdə əsl dönüş nöqtəsi oldu. Heç bir vasitəçi olmadan, ikitərəfli formatda aparılan bu səmərəli dialoq göstərdi ki, iki dövlət arasında normallaşmanın ən etibarlı platforması məhz birbaşa danışıqlardır. Əbu-Dabi görüşündə sərhədlərin delimitasiyası və etimad quruculuğu istiqamətində əldə olunan mühüm razılaşmalar tarixi Vaşinqton Zirvəsi üçün möhkəm zəmin yaratdı.

Nəticədə, ötən il avqustun 8-də Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişi mətninin paraflanması və Birgə Bəyannamənin imzalanması ilə üç onillikdən artıq davam edən qanlı münaqişəyə son qoyuldu. Azərbaycanın nümayiş etdirdiyi sülh iradəsi nəticəsində Ermənistana təkcə tranzit məhdudiyyətləri aradan qaldırılmadı, həm də neft məhsullarının ixracı və ticarət əlaqələrinin qurulması kimi əməli əməkdaşlıq addımları atıldı.

Bir sözlə, üç onillik boyu davam edən işğala son qoyan Azərbaycan, qalib tərəf olmasına baxmayaraq, qarşı tərəfə sülh əli uzadan nadir ölkələrdəndir. Bakının səyləri ilə Cənubi Qafqazda gerçəkləşən normallaşma böyük bir coğrafiyada əməkdaşlığa da geniş qapı açıb.

Bu mənada Azərbaycanın yanvar ayında Davosda "Sülh Şurasının Nizamnaməsi"ni ("Board of Peace Charter") imzalayan ölkələr sırasında yer alması təsadüfi deyildi. Prezident İlham Əliyevin tədbirdə iştirak edərək sənədin imzalanma mərasimində yer alması dövlətimizin sülh gündəliyinin qlobal müstəvidə əhəmiyyətli rol oynadığının göstəricisi idi.

Bəli, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin əldə etdiyi yüksək inkişaf, 2020-ci və 2023-cü illərdə əldə olunan hərbi-siyasi nəticələr və postmünaqişə dövründə irəli sürülən sülh təşəbbüsləri Azərbaycanın yeni dünya nizamının qurulmasında rolunu və mövqeyini gücləndirib.

Dövlətimizin başçısına "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim edilməsi, eyni zamanda bu ilin aprelində "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi Bakının yaratdığı sülh nümunəsinin beynəlxalq səviyyədə qəbulunu göstərdi.

30 illik işğaldan sonra regionda barışığı təmin edən bu siyasət BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan qətnamələrini öz gücü ilə icra edən liderin beynəlxalq nüfuzunu bir daha təsdiqlədi.

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimatındakı çıxışı müharibə və etimadsızlıqdan əziyyət çəkən bütün xalqlar üçün yol xəritəsi xarakteri daşıyırdı: "Hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".

### Vətən quruculuğuna töhfə

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın 500 min dollar məbləğindəki pul vəsaitinin tam şəkildə Qarabağ Dirçəliş Fonduna bağışlanması ilə bağlı qərarı dərin mənəvi, siyasi və ideoloji məzmuna malikdir.

Sülh missiyasına görə qazanılan beynəlxalq mükafata görə verilən pul vəsaitinin birbaşa müharibədən zərərgörmüş torpaqların dirçəlişinə yönəldilməsi sülhün ən ali, əməli nəticəsidir. Prezident İlham Əliyev bu qərarı ilə onun üçün Qarabağın bərpasının prioritet olduğunu bu şəxsi nümunəsində bir daha nümayiş etdirdi.

Prezidentin 4 yanvar 2021-ci il tarixli fərmanı əsasında yaradılan Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini özündə ehtiva edir. Həmçinin bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə görülən işlərlə bağlı ölkə daxilində və ölkə xaricində informasiya təminatını, maarifləndirmə və zəruri təşviqat işlərini həyata keçirir.

Prezident İlham Əliyevin bu ianəsi fondun resurslarını artırmaqla yanaşı, həmrəylik mədəniyyətinə yeni təkan verir. Həmçinin dövlətin strateji xəttinin quruculuğa, insan amilinə və parlaq gələcəyə inamının təzahürüdür.

Vurğulandığı kimi, ölkəmizin rəhbərinin nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi və sentyabrın 14-də mükafat sertifikatının Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam tərəfindən təqdim edilməsi regional zəfərin qlobal sülh modelinə çevrildiyinin bəyanıdır. Bu hadisə uzun illər davam edən münaqişədən sonra Azərbaycanın bölgədə yaratdığı yeni ədalətli reallığın beynəlxalq miqyasda ən ali səviyyədə təsdiqidir.

Həmçinin sülh missiyasına görə qazanılan beynəlxalq mükafatın pul vəsaitinin tam şəkildə məhz müharibənin yaralarının sarınmasına və azad olunmuş yurdlarımızın bərpasına yönəldilməsi bütün dünya üçün nadir humanizm və örnək liderlik davranışı kimi tarixdə qalacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İslam Əməkdaşlıq Təşkilatı ilə Azərbaycanın əlaqələri genişlənir



Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrlərdən etibarən suveren Azərbaycan dövlətinin dünya birliyinə inteqrasiya kursunun müəyyənləşdirilməsi və qısa müddətdə həyata keçirilməsi bu sahədə tarixi uğurların qazanılmasına gətirib çıxarıb. Bu kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi xarici siyasət sahəsində yeni nailiyyətlərin əldə olunmasına yol açıb.

Azərbaycanın beynəlxalq aləmlə münasibətlərinin və dünya birliyinə inteqrasiyasının əsas istiqamətlərini ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrlə yanaşı, regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq təşkil edir. Bu mənada İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə münasibətlərin inkişafı ölkəmizin milli maraqlarının təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) 1969-cu ildə müsəlman ölkələrinin dövlət və hökumət başçılarının Mərakeşin paytaxtı Rabat şəhərində keçirilən konfransında təsis edilib və hazırda Azərbaycan da daxil olmaqla 60-dan çox dövləti özündə birləşdirir. Bəzi ölkələrin müsəlman icmaları, habelə bir sıra beynəlxalq təşkilatlar İƏT yanında müşahidəçi statusuna malikdir. 1972-ci ildə qəbul edilmiş nizamnaməyə görə, İƏT-in ali orqanı dövlət və hökumət başçılarının konfransıdır, icraçı orqanı isə baş katiblikdir. Baş katibliyin iqamətgahı Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşir. İƏT Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə sıx əməkdaşlıq edir və 1975-ci ildə BMT yanında müşahidəçi statusu alıb.

İslam Əməkdaşlıq Təşkilatının böyük regional qurum kimi genişmiqyaslı və fəal fəaliyyətə başlaması təşkilata üzv dövlətlərin sosial-iqtisadi, ictimai-siyasi, elmi və mədəni həyatında yeni bir tarixi mərhələ kimi dəyərləndirilə bilər. İƏT-in üzv dövlətlərin inkişafına mane olan problemlərin həlli, qarşıda dayanan əsas vəzifələrin yerinə yetirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi uğrunda fəaliyyəti təqdirəlayiqdir. Təşkilatın konfransları və digər mötəbər tədbirləri bu istiqamətdə mühüm rol oynayıb və müasir dövrdə də əvəzsiz əhəmiyyət daşıyır.

İslam Konfransı Təşkilatı (indiki İslam Əməkdaşlıq Təşkilatı) ilə Azərbaycanın əlaqələri hələ müstəqillikdən əvvələ gedib çıxır. 1986-cı ildə İslam Konfransı Təşkilatının himayəsi ilə Bakıda "Müsəlmanlar sülh uğrunda mübarizədə" beynəlxalq İslam konfransı keçirilib. Konfransın işində dünyanın 60 ölkəsindən 600-dən çox nümayəndə iştirak edib.

İƏT ilə əməkdaşlığı zəruri edən amillərdən biri də müstəqilliyinin ilk illərində beynəlxalq iqtisadi əlaqələrin inkişafında geri qalan ölkəmiz üçün təşkilatın geniş və perspektivli imkanlar yaratması, Azərbaycanın dünya bazarına qoşulmasına dəstək verməsidir. Məhz bu kontekstdən çıxış edən Ümummilli Lider Heydər Əliyev Azərbaycan iqtisadiyyatını böhrandan çıxarmaq üçün beynəlxalq iqtisadi münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verib və ölkəmizin İƏT ilə əlaqələrinin daha da genişləndirilməsinə çalışıb.

Sağlam təməl üzərində qurulan Azərbaycan-İƏT əlaqələri Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət nəticəsində yüksələn xətlə inkişaf edib. Son 23 ildə bu əlaqələr elə bir yüksək səviyyəyə çatıb ki, Azərbaycan təşkilatın zirvə görüşlərinin, toplantılarının və digər tədbirlərinin keçirildiyi əsas mərkəzlərdən birinə çevrilib. Əməkdaşlığın güclənməsinin göstəricilərindən biri də İƏT-ə üzv ölkələrin daxil olduğu digər qurumların mötəbər tədbirlərinin Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsi və ölkəmizin bu tədbirlərdə yüksək səviyyədə iştirak etməsidir.

16 il bundan öncə, iyun ayında Bakıda İslam İnkişaf Bankının Direktorlar Şurasının XXXV illik toplantısı keçirilib. Tədbirin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib. Toplantı çərçivəsində ölkəmizin bank və maliyyə sistemi üçün bir sıra yeni imkanlar əldə olunub, bu istiqamətdə müvafiq sənədlər imzalanıb.

2013-cü ilin aprelində isə Bakıda İƏT-in Əmək Nazirlərinin Konfransı baş tutub. Toplantıda əmək, miqrasiya, işçi qüvvəsi, təcrübə mübadiləsi və sosial müdafiə sahəsində üzv ölkələr arasında gələcək prioritetləri müəyyən edən "Çərçivə Sənədi" qəbul olunub. Konfransın mühüm qərarlarından biri də Azərbaycan Prezidenti İlham Əliyevin təklifi ilə İƏT Əmək Mərkəzinin (OIC Labour Center) yaradılması olub. Azərbaycanın 2013-cü ilin oktyabr ayından etibarən BMT Təhlükəsizlik Şurasına ikinci sədrliyi dövründə, ölkəmizin təşəbbüsü ilə 2013-cü il oktyabrın 28-də "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda yüksəksəviyyəli iclas təşkil edilib. Bu, BMT tarixində həmin mövzuda keçirilən ilk belə iclas olub. 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi və Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə həmin ilin "İslam Həmrəyliyi İli" elan edilməsi islam həmrəyliyinin möhkəmləndirilməsi, islam dəyərlərinin dünyada təbliği baxımından önəmli hadisələrdəndir.

Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatı ilə Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət verir. İƏT çərçivəsində əməkdaşlıq ölkəmizin tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, dinlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verir.

2021-ci il aprelin 8-də Azərbaycan Prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd Əl-Useymini qəbul edərkən, Azərbaycan Respublikası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə baş katib "Dostluq" ordeni ilə təltif olunub.

Azərbaycan Respublikası Prezidentinin 8 iyul 2023-cü il tarixli sərəncamına uyğun olaraq, Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən birgə icra edilən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində 2025-2026-cı tədris ili üzrə 51 ölkədən 100 nəfər təhsil qrantına layiq görülüb. Proqrama əsasən, İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv ölkələrin, İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələrin və milli azlıqların yaşadığı ölkələrin vətəndaşlarının 5 il ərzində Azərbaycan Respublikasının ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə təhsil almaları nəzərdə tutulub.

2025-ci ilin iyununda İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasının yekununda "İstanbul Bəyannaməsi", habelə ölkəmizin təşəbbüsü ilə irəli sürülmüş 5 qətnamə qəbul edilib. Sessiya zamanı Qərbi Azərbaycan İcması ilə bağlı qətnamənin qəbul edilməsi xüsusilə əlamətdar hadisə hesab olunub. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində ilk dəfə qəbul olunan "Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı qətnamədə təşkilata üzv ölkələrin Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyi ifadə olunub. Həmçinin Ermənistan tərəfindən icmanın hüquqlarının inkar olunması qınanılıb.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, son bir neçə ildə Azərbaycanda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin yüksəksəviyyəli görüşləri keçirilib. Belə görüşlərdən biri də dövlətimizin başçısının bu günlərdə Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı qəbul etməsi zamanı reallaşıb. Görüş zamanı ölkəmizlə Müsəlman Ağsaqqalları Şurası arasında həyata keçirilən uğurlu əməkdaşlıq xüsusi qeyd olunub. Eyni zamanda İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Azərbaycanın qlobal səviyyədə oynadığı vacib rola toxunulub. Bu xüsusda Türk Dövlətləri Təşkilatının Müsəlman dini liderlərinin Bakıda keçirilən 7-ci görüşünün, həmçinin gələn il Azərbaycanda təşkil olunacaq İslam Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısının əhəmiyyəti vurğulanıb. Ölkəmizdə dini münasibətlərin yüksək səviyyədə tənzimləndiyi qeyd edilib. Görüş zamanı Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam "Zayed İnsan Qardaşlığı Mükafatı"nın sertifikatını dövlətimizin başçısına təqdim edib. Reallıq budur ki, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə Azərbaycan əlaqələri ölkəmizin milli maraqlarının təmin edilməsi baxımından böyük əhəmiyyət daşıyır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Bakıda türk dünyasında əməkdaşlığın inkişafına dair panel iclas keçirilib

Bakıda Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi tərəfindən "Türk dünyası dialoqları: Ortaq gələcək, ortaq vizyon" mövzusunda panel iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə türk dünyası birliyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.



Panel iclasında Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi rəhbərinin köməkçisi Fərhad Pirinççi Bakının türk dünyası üçün əvəzsiz yer olduğunu vurğulayıb. Onun sözlərinə görə, Bakı "İkinci Vətən"dən daha çox, Ümummilli Lider Heydər Əliyevin də qeyd etdiyi kimi, "Tək millət, iki dövlət" ifadəsinə tam uyğundur.

"Türk dünyasını bir-birinə bağlayan köklü və tarixi mədəni bağlar mühüm yerə sahibdir. Bu gün Türk Dövlətləri Təşkilatı regional və qlobal miqyasda mühüm aktorlardan birinə çevrilib. Lakin düşünürəm ki, bu gün çatdığımız nöqtə potensialın yalnız bir hissəsinin reallaşdırılmasıdır. Əsas məsələ başda Türk Dövlətləri Təşkilatının "2040 Vizyonu" olmaqla bundan sonrakı prosesdə bu potensialı artıqlaması ilə həyata keçirməkdir", - deyə Fərhad Pirinççi bildirib.

Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Burhanəddin Duran panel iclasa videomüraciətlə qoşularaq qeyd edib ki, beynəlxalq sistem gedərək dərinləşən böhranlar, artan geopolitik rəqabət, tədarük zəncirləri, enerji və ərzaq təhlükəsizliyi problemləri, iqlim dəyişikliyi, qeyri-müəyyənliklər, kibertəhdidlər və dezinformasiya kimi çoxşaxəli sınaqlarla üz-üzədir. Belə bir dövrdə türk dünyasının ortaq ağıl və güclü həmrəyliklə hərəkət etməsi daşıdığımız məsuliyyətin və zamanın tələbidir.

Onun fikrincə, bu baxımdan regional sülhə töhfə verən, iqtisadi inkişafı dəstəkləyən Orta dəhlizdən enerji sahəsinə, ticarətdən rəqəmsal iqtisadiyyata, süni intellektdən fəlakətlərin idarə olunmasına qədər bir çox sahədə inkişaf etdirilən tərəfdaşlıqlar türk dünyasının sahib olduğu böyük potensialın bariz göstəricisidir.

Türkiyə Prezidentinin baş müşaviri Seyit Sertçelik Türk Dövlətləri Təşkilatının bugünkü vəziyyətə gəlib çatmasının olduqca qürurverici olduğunu deyib. O vurğulayıb ki, təşkilatın illər ərzində keçdiyi inkişaf yolu və bu gün türk dövlətlərini bir araya gətirən mühüm platformaya çevrilməsi böyük əhəmiyyət daşıyır.

"Bu gün türk dövlətlərinin bir araya gəlməsi, ortaq tarix və mədəniyyət ətrafında həmrəyliyin daha da güclənməsi təşkilatın gələcəyindən xəbər verir", - deyə Seyit Sertçelik vurğulayıb.

Milli Məclisin deputatı Fariz İsmayılzadə regionda və dünyada baş verən geosiyasi proseslərin Türkiyə və Azərbaycan üçün yeni imkanlar yaratdığını vurğulayıb: "Sürətlə inkişaf edən texnologiyalar, xüsusilə süni intellekt, hərbi sənayeni və müharibə üsullarını dəyişir, ona görə də türk dünyası bu sahədə əməkdaşlığı gücləndirməlidir. Həmçinin TDT-nın gələcəyi bu geniş əməkdaşlıqlardan asılıdır. Mən hesab edirəm ki, bütün bu proseslərdən ölkələrimiz daha güclü və daha hazırlıqlı şəkildə çıxmalıdır".

İsmayıl Qaspiralı Xarici Siyasət İnstitutunun direktoru Esma Özdaşlı bildirib ki, bu gün Türkiyə müdafiə sənayesi qlobal səviyyədə rəqabət aparan texnologiyalar ortaya qoyur və bu imkanlar Azərbaycanla da paylaşılır. Esma Özdaşlı qeyd edib ki, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığında mühüm irəliləyişlər əldə olunub.

Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycan-Türkiyə münasibətlərinin tarixi, siyasi və təhlükəsizlik baxımından əhəmiyyətindən danışıb. Bildirib ki, Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə və digər ziyalılar türk birliyi ideyasının formalaşmasına böyük töhfə veriblər. F.Şəfiyev qeyd edib ki, TDT güclü və müstəqil dövlətlərin birliyinə əsaslanır. O çıxışında həmçinin media və informasiya mühitində Azərbaycan-Türkiyə münasibətləri ilə bağlı yayılan dezinformasiyalara qarşı mübarizənin və bu sahədə düşüncə mərkəzləri arasında əməkdaşlığın vacibliyinə diqqət çəkib.

Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin sədr müavini Nazim Cəfərov isə dürüstlük və qarşılıqlı etimad əsasında əməkdaşlığın inkişaf etdirilməsi, məsuliyyətsiz yanaşmaların qarşısının alınmasının vacib olduğunu vurğulayıb. Onun sözlərinə görə, təşkilat prosesləri diqqətlə təhlil etməli və ortaq layihələr çərçivəsində tərəfdaşlığı daha da gücləndirməlidir.

Sonda panel iştirakçılarına hədiyyələr təqdim olunub.

# Gürcüstan mediası Azərbaycan Prezidentinin bəyanatlarını geniş işıqlandırıb

Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşdə səsləndirdiyi fikirlər Gürcüstan mətbuatının diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, Gürcüstanın "imedinews.ge", "newshub.ge", "1tv.ge", "rustavi2.ge" portalları və televiziyaları dövlətimizin başçısının Avropa Şurası və Avropa Parlamenti ilə bağlı açıqlamalarını xəbər lentlərinə çıxarıb, onun fikirlərindən sitatlar dərc edib və videomateriallar yayımlayıblar.

"İmedinews.ge" telekanalının xəbər portalı Prezident İlham Əliyevə istinadla yazır: "Avropa Parlamenti rüşvətxorlar yuvasıdır. Bunu mən tam məsuliyyətlə deyirəm - rüşvətxorlar yuvasıdır Avropa Parlamenti. Onun vitse-prezidentinin evindən çamadanlarla dolu milyonlarla dollar çıxdı, hamısını ört-basdır etdilər. Elə bil olmayıb bu. Onun adı bəllidir, o, Yunanıstandan olan bir xanım deputatdır. Neçə il keçib onun üstündən? Bir ölçü götürülüb ona qarşı? Yox! Məsuliyyətə cəlb edilib? Yox! Sərbəst buraxılıb. Avropa Parlamenti bax, bu islamofoblardan ibarətdir və bu da daim diqqət mərkəzində olmalıdır".

Portalın başqa bir xəbərində Prezident İlham Əliyevin Azərbaycanın Avropa Şurasına üzv olması və qarşılaşdığı problemlərlə bağlı fikirlərinə yer verilib: "Azərbaycan çox nadir müsəlman ölkələrindəndir ki, Avropa təşkilatlarında iştirak edir. Ona görə biz bilirik orada nələr baş verir. Avropa Şurasının üzvü olaraq biz bu ədalətsizliklərlə üzləşmişdik, üzləşirik və yəqin ki, üzləşəcəyik. Bizə qarşı elan edilməmiş bu qarayaxma kampaniyası heç vaxt dayanmayacaq. Nə üçün? Çünki biz heç kimin qabağında baş əymirik və əyməyəcəyik, öz sözümüzü deyirik, öz milli mənliyimizi qoruyuruq, öz həyat tərzimizi qoruyuruq. İmkan vermirik ki, xalqımıza və dinimizə yad olan bəzi meyillər Azərbaycanda kök salsın. Mənəviyyat keşikçiləriyik. Bax, buna görə bizə qarşı bu kampaniyalar aparılır".

ილჰამ ალიევი: როგორც ევროპის საბჭოს წევრი, ჩვენ წავაწყდით უსამართლობას, ახლაც ვაწყდებით და, სავარაუდოდ, მომავალშიც წავაწყდებით



ილჰამ ალიევი

ფოტო: აზერბაიჯანის პრეზიდენტის ადმინისტრაცია

ილჰამ ალიევი: სრული პასუხისმგებლობით ვამბობ - ევროპარლამენტი კორუმპირებული პირების ბუდეა



ილჰამ ალიევი

ფოტო: აზერბაიჯანის ადმინისტრაცია

"Newshub.ge", "1tv.ge" portalları və "rustavi2.ge" kanalı da həm efirdə, eləcə də sosial şəbəkə hesablarında eyni mövzuda materiallar yayıblar.

Materiallarda dövlətimizin başçısının Avropa Parlamentindəki korrupsiya qalmaqalına istinad etdiyi, qurumun həmin hadisələrə münasibətilə yanaşı, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətinə olan mövqeyini tənqid etdiyi bildirilib.

# Seyid Yəhya Bakuviyə həsr olunmuş konfransda ilahiyyatçı filosofun irsinin gənclərə çatdırılmasının vacibliyi vurğulanıb

Sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının 7-ci görüşü çərçivəsində islam dünyasının mötəbər mütəfəkkiri, görkəmli azərbaycanlı alim, ilahiyyatçı filosof Şeyx Seyid Yəhya Bakuvi Şirvaniyə həsr olunmuş Birinci Beynəlxalq elmi-praktik konfrans işini bölmə iclasları ilə davam etdirib.



AZƏRTAC xəbər verir ki, "İslam dünyasının mədəni irsində Seyid Yəhya Bakuvi zirvəsi: mötədil dəyərlər və müasir çağırışlar" mövzusunda Birinci Beynəlxalq konfransda çıxışlarda müsəlman sivilizasiyasının böyük intibah dövrü, Azərbaycanın islam elmlərinin və elmi düşüncənin inkişafındakı rolu, Seyid Yəhya Bakuvinin fəlsəfi və mənəvi irsi, Xəlvətilik təriqətinin yayılmasında xidmətləri və onun irsinin müasir dövrdə öyrənilməsinin əhəmiyyəti barədə fikirlər səsləndirilib.

Qeyd olunub ki, möhtəşəm müsəlman sivilizasiyası kontekstində yaranan böyük intibah misli görülməmiş dini, elmi və mədəni inkişafla müşayiət edilib. Həmin böyük inkişaf nəticəsində müsəlman aləmi elmin bir çox sahəsində - fəlsəfə, riyaziyyat, həndəsə, coğrafiya, astronomiya, incəsənət, ədəbiyyat və poeziyada misli görülməmiş çiçəklənmə dövrünə qədəm qoyub. Mənəvi paklaşma və saflaşma yolunu təbliğ edən cərəyanlar geniş vüsət alıb, müxtəlif sufi təriqətlər yaranıb.

Bildirilib ki, Azərbaycan yalnız alim və mütəfəkkirlərin yetişdiyi bir məkan olmayıb, həm də islam elmlərinin beşiyi, elmi düşüncənin, maarifçiliyin, idrakın və irfanın inkişafı üçün əlverişli məkan olub. Azərbaycan çox zəngin tarixə, mədəniyyətə və ənənələrə malikdir. Burada həm ölkə daxilində, həm də Şərq və Qərbdə geniş yayılmış sufi ənənələri inkişaf edib.

Vurğulanıb ki, XV əsrdə yaşamış Seyid Yəhya Bakuvi sufilik dünyasının böyük müəllimlərindən biridir. Onun təsiri Azərbaycandan kənara, əsasən Xəlvətilik təriqəti vasitəsilə yayılıb. Xəlvətilik Şimali Afrika, Anadolu və Balkanlar da daxil olmaqla müxtəlif bölgələri əhatə edib. Seyid Yəhya Bakuvi Xəlvətilikdə piri-sani ruhu ilə təriqətin zikr, xəlvət kimi anlayışını sistemləşdirən bir ustaddır. Çox sayda xəlifə və mürşid yetişdirib. Onun yetişdirdiyi xəlifələr təriqətin Anadolu və Balkanlarda təşkilatlanaraq yayılmasını təmin ediblər.

Bildirilib ki, Yəhya Bakuvinin həyat yolu onun mənəvi tərbiyə və qəlbin təmizlənməsi yolunda böyük xidmətlər göstərmiş türk-islam təsəvvüf alimi olduğunu göstərir. Mənəvi tərbiyə və qəlb saflığı təlimi mühüm əhəmiyyət daşıyır. Çünki bütün yaxşı əməllər əvvəlcə insanın qəlbində yaranır. Davamlı və möhkəm əməllər də əvvəlcə insanın qəlbində meydana gəlir, sonra həyata keçirilir. Şeyx Şirvaninin mənəvi və fəlsəfi düşüncəsi insan ruhunu yüksəlməyə, ucalmağa və ilahi mərifətə çatmağa çağırır. Həmin xəlvəti təsəvvüf yolu nəfsin tərbiyəsi zamanı islam şəriətinin müəyyən etdiyi çərçivədən kənara çıxan ifrat təsəvvürdən fərqlənir.

Şirvani düşüncəsinin fəlsəfi, mənəvi və tərbiyəvi xarakter daşıdığı bildirilib. Bu düşüncə tövhid, zikr, Peyğəmbərə məhəbbət, bütün səhabələrə heç bir ayrı-seçkilik qoymadan məhəbbət, nəfsin saflaşdırılması, qəlbin hazır olması və ona nəzarət edilməsi kimi əsaslara söykənir.

Vurğulanıb ki, tarazlıq və mötədillik islamın gözəlliyidir. Bu, Seyid Yəhya Bakuvi kimi sufilərin də öyrətdiyi dəyərdir. Qloballaşma və rəqəmsallaşma dövründə cəmiyyətimizi və dəyərlərimizi qorumaq yalnız sufi ənənəsinin tarazlıq mesajı vasitəsilə mümkündür.

Şeyx Seyid Yəhya Bakuvinin əlyazma və çap olunmuş bütün əsərlərinin toplanması və onların mötəbər elmi ensiklopediya şəklində nəşr edilməsi təklif edilib. Həmçinin Seyid Yəhya Bakuvinin əsərlərinin tərcümə edilməsinin, şərh olunmasının və gənclər üçün kitab şəklində nəşr edilməsinin vacibliyinə diqqət çəkilib.

Qeyd edək ki, konfransın həmtəşkilatçıları Qafqaz Müsəlmanları İdarəsi və TDT ilə birgə Azərbaycan Milli Elmlər Akademiyası, ICESCO, IRCICA, Müsəlman Ağsaqqalları Şurasıdır.

## *Həsən KODİROV:*

# "Yəhya Bakuvinin əsərləri tərcümə edilib nəşr olunmalıdır"



"Yəhya Bakuvinin həyat yolu bizə göstərir ki, o, mənəvi tərbiyə və qəlbin təmizlənməsi yolunda böyük xidmətlər göstərmiş türk-islam təsəvvüf alimi olub. Mənəvi tərbiyə və qəlb saflığı təlimi mühüm əhəmiyyət daşıyır. Çünki bütün yaxşı əməllər əvvəlcə insanın qəlbində yaranır. Davamlı və möhkəm əməllər də əvvəlcə insanın qəlbində meydana gəlir, sonra həyata keçirilir".

AZƏRTAC xəbər verir ki, bunu Daşkənd şəhərindəki **Siroj Solih məscidinin imamı Həsən KODİROV** Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının 7-ci görüşü çərçivəsində keçirilən "İslam dünyasının mədəni irsində Seyid Yəhya Bakuvi zirvəsi: mötədil dəyərlər və müasir çağırışlar" mövzusunda Birinci Beynəlxalq konfransın ikinci günündə çıxışı zamanı deyib.

O bildirib ki, xüsusilə sosial şəbəkələrin inkişaf etdiyi, faydalı məlumatlarla yanaşı, insan qəlbinə mənfi təsir göstərən zərərli məlumatların da çoxaldığı bir dövrdə bəşəriyyət mənəvi tərbiyə və qəlb saflığına dair nəzəri və praktiki təlimlərə, eləcə də ustadlara ehtiyac duyur.

Həsən Kodirov deyib ki, konfransın faydalı olması üçün Yəhya Bakuvinin əsərləri tərcümə edilməli, şərh olunmalı və gənclər üçün kitab şəklində nəşr edilməlidir. Onun sözlərinə görə, mənəvi tərbiyəni davam etdirməyə qadir olan şəxslər də bu gün gəncləri tərbiyə etməlidirlər.

## *Şərqi Gürcüstan müftisi:*

# "İslamofobiyanın yayıldığı bir dövrdə müsəlmanların birlik və bərabərliyi vacibdir"

"Bu gün müsəlman dünyasının birlik və bərabərliyə ehtiyacı var. Prezident İlham Əliyevlə görüşdə o da vurğuladı ki, müsəlman aləminin birlik olması, bərabər olması lazımdır. Bunun göstəricilərindən biri də Seyid Yəhya Bakuviyə həsr olunmuş tədbirdir. Belə tədbirlər milli və mənəvi dəyərlərə sahib çıxmaq deməkdir".

AZƏRTAC-a açıqlamasında bunu **Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftisi Etibar EMİNOV** deyib.



O bildirib ki, məhz Bakuvi kimi alimlərin sayəsində həmin irsə sahib çıxmaq və gələcək nəsillərə birlik və bərabərlik dəyərlərini çatdırmaq ümidindədir. "Biz bu coğrafiya olaraq dinimizlə və milli mənəviyyatımızla çox zəngin bir toplum olmuşuq. Bizim toplumda müsəlmanlar da, qeyri-müsəlmanlar da, bütün insanlar dinindən, rəngindən, irqindən seçilmədən bir bölgədə qardaşcasına yaşayıblar", - deyə müfti vurğulayıb.

# "Azərbaycan-Özbəkistan biznes-barometri" təqdim edilib

CASPIA Analitik Mərkəzində CASPIA və Özbəkistanın Proqressiv İslahatlar Mərkəzinin (CPR) birgə təşəbbüsü olan "Azərbaycan-Özbəkistan biznes-barometri"nin təqdimatı keçirilib. Tədbirdə CPR-in rəhbəri Mirşohid Aslanov, həmçinin ekspert və işgüzar dairələrin nümayəndələri iştirak ediblər.



Yeni platforma Azərbaycan və Özbəkistan biznesinin real ehtiyaclarını müntəzəm olaraq izləmək, mövcud maneələri aşkar etmək və iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanları müəyyən etmək məqsədi daşıyır.

Təqdimat zamanı Mirşohid Aslanov Azərbaycan və Özbəkistan arasında iqtisadi əlaqələrin əhəmiyyətli dərəcədə artdığını qeyd edib. Onun sözlərinə görə, təxminən on il əvvəl qarşılıqlı ticarət dövriyyəsi təxminən 10-15 milyon dollar təşkil edirdisə, bu gün bu göstərici 800 milyon dollara çatıb. Bunun 300 milyon dollara yaxını əsas ticarətin, 508 milyon dolları isə qiymətli metallar ticarətinin payına düşür. Bununla belə, onun qiymətləndirməsinə görə, mövcud ticarət həcmi hələlik iki bazarın bütün potensialını əks etdirmir. CASPIA və CPR-in birgə təhlili göstərir ki, Özbəkistan Azərbaycana ixracı təxminən 500 milyon dollar artıra bilər, Azərbaycanın Özbəkistan istiqamətində əlavə ixrac imkanları isə 650 milyon dolları ötür. "Ümumilikdə ticarət dövriyyəsinin səviyyəsi asanlıqla bir milyard dolları keçə bilər", - deyə M.Aslanov bildirib. Onun sözlərinə görə, bu potensialın reallaşdırılması üçün, sadəcə, statistika kifayət deyil. Biznesə potensial tərəfdaşlar, mallar, sertifikatlaşdırma tələbləri, gömrük prosedurları, tariflər, logistika və bazara çıxışın digər şərtləri barədə ətraflı məlumatlara çıxış lazımdır. Bu baxımdan, biznes-barometrin əsas vəzifələrindən biri idxalçı və ixracatçılara lazımi məlumatları daha tez tapmağa və praktiki qərarlar qəbul etməyə imkan verəcək informasiya ekosisteminin formalaşdırılması olacaq. Xüsusi diqqət yeni bazara çıxışı çox vaxt potensial tələb və mövcud prosedurlar haqqında məlumat çatışmazlığı səbəbindən çətinləşən kiçik və orta biznesə yönəldiləcək. CPR rəhbərinin qeyd etdiyi kimi, ölçüsündən və fəaliyyət göstərdiyi regiondan asılı olmayaraq şirkətlər üçün bu cür məlumatları maksimum dərəcədə əlçatan və anlaşıqlı etmək lazımdır.

Ayrı bir istiqamət biznes və dövlət strukturları arasında qarşılıqlı fəaliyyətin rəqəmsallaşdırılması, o cümlədən sənədlərin qarşılıqlı tanınması, sertifikatlaşdırma və lazımi məlumatların ilkin mübadiləsi olacaq. M.Aslanovun fikrincə, bu, malların keçid müddətini qısaltmağa və biznesin xərclərini azaltmağa imkan verəcək.

Təşəbbüs çərçivəsində Orta dəhlizə, nəqliyyat infrastrukturuna və Azərbaycan ilə Özbəkistan arasında ticarət-iqtisadi əlaqələrin daha da genişlənməsinə töhfə verə biləcək logistika imkanlarına böyük diqqət yetiriləcək. Eyni zamanda layihə yalnız hazır məhsulların təhlilindən kənara çıxmağı nəzərdə tutur. M.Aslanovun sözlərinə görə, əməkdaşlığın növbəti mərhələsi Azərbaycan, Özbəkistan və regionun digər ölkələrinin iştirakı ilə birgə istehsal zəncirlərinin formalaşdırılması ola bilər. "Azərbaycan və Özbəkistan qarşılıqlı ticarətin genişləndirilməsindən üçüncü ölkələrin bazarlarına yönəlmiş birgə istehsal zəncirlərinin yaradılmasına keçə bilər", - deyə o qeyd edib. Onun sözlərinə görə, Özbəkistanın sənaye potensialı ilə Azərbaycanın tranzit imkanlarının birləşməsi birgə istehsal və sonradan daha böyük beynəlxalq bazarlara çıxış üçün əsas yaradır. Perspektivli istiqamətlərdən biri müxtəlif ölkələrin müəssisələrinin ayrı-ayrı komponentlərin istehsalı üzrə ixtisaslaşması və sonradan onların ümumi dəyər yaratma zənciri çərçivəsində birləşdirilməsi ola bilər. Bu yanaşma Mərkəzi Asiya və Türk Dövlətləri Təşkilatı ölkələrinə də şamil edilə bilər ki, bu da daha rəqabətqabiliyyətli regional istehsal zəncirlərinin formalaşmasına imkan verəcək. M.Aslanov həmçinin ölkələrin istehsal imkanlarının, sadəcə, hazır məhsullar səviyyəsində deyil, həm də komponentlər, xammal, materiallar və ayrı-ayrı texnoloji proseslər səviyyəsində daha dərindən təhlil edilməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, sənaye kooperasiyasının perspektivli istiqamətlərini müəyyən etmək üçün məhz belə detallı məlumat lazımdır.

CASPIA Analitik Mərkəzinin direktoru Orxan Yolçuyev isə öz növbəsində qeyd edib ki, Azərbaycan-Özbəkistan münasibətlərinin gələcək inkişafını, sadəcə, ticarət dövriyyəsinin həcmi ilə deyil, həm də iqtisadi əlaqələrin keyfiyyəti ilə qiymətləndirmək lazımdır. Onun sözlərinə görə, bu mərhələdə iki ölkənin biznesi üçün tərəfdaş tapmağın, birgə layihələrə başlamağın və dövlətlərarası səviyyədə əldə olunan razılaşmaları real investisiya və kommersiya təşəbbüslərinə çevirməyin nə dərəcədə asan olduğunu anlamaq vacibdir. "Bu, təkcə ticarətin həcminin öyrənilməsi məsələsi deyil, həm də iqtisadi əlaqələrin keyfiyyətinin öyrənilməsi məsələsidir", - deyə Orxan Yolçuyev vurğulayıb.

"Azərbaycan-Özbəkistan biznes-barometri" şirkətlərlə müsahibələr, işgüzar dairələrin nümayəndələri arasında sorğular və iqtisadi məlumatların təhlili əsasında aylıq olaraq yenilənəcək. Platforma çərçivəsində ixrac-idxal prosedurları, gömrük rəsmiləşdirilməsi, tarif güzəştləri, sənədləşmə və sertifikatlaşdırma tələbləri, texniki və sanitariya standartları, logistika və nəqliyyat dəhlizləri öyrəniləcək. Təşəbbüs Azərbaycan və Özbəkistanın işgüzar icmaları arasında informasiya mübadiləsi üçün daimi mexanizm yaratmaq və yeni tərəfdaşlıqların, investisiya layihələrinin, birgə istehsalatların və ticarət-logistika imkanlarının inkişafına töhfə vermək məqsədi daşıyır. Daha uzunmüddətli perspektivdə biznes-barometr qarşılıqlı ticarətin artımından iki ölkə arasında daha dərin və dayanıqlı iqtisadi əlaqələrin formalaşmasına keçid üçün praktiki alətə çevrilməlidir.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# *Hafiz PAŞAYEV:* "Yaxşı vətəndaş ibtidai məktəbdən yetişməlidir"

Bəşəriyyəti universitetlərin yaramasına gətirən səbəb peşəkar bilikləri sistemləşdirilmə və mövcud həqiqətlərin hüdudlarını birgə axtarışlar vasitəsilə sorğulama ehtiyacı idi. Orta əsrlərdə Bolonya, Paris, Oksford kimi məkanlardan bu günə qədər uzanan universitet missiyasına dair fikirlər də əsasən iki məktəbə haçalanır. İki böyük təhsil mütəfəkkirinin təbirincə desək, Viktorian dövrünün alimi Henri Nyuman universiteti intellektual yetkinlik və hərtərəfli şəxsiyyəti formalaşdıran ocaq kimi qiymətləndirirdi. İkinci Dünya müharibəsindən sonrakı Almaniyada yeni dünyaya nəzər salan Karl Yasper isə elmi tədqiqatı peşə təlimindən ayırmırdı və universiteti həqiqətin fasiləsiz axtarışının meydanı kimi görürdü. Müstəqil Azərbaycanın müasir universitet sualına cavabı olan ADA Universiteti bu il 20 illiyini qeyd edir. Universitetin rektoru, tanınmış alim və diplomat Hafiz Paşayev ASAN Radionun direktoru Emin Musavi ilə müsahibəsində iki onilliyə nəzər salıb gələcək barədə fikirlərini bölüşmüşdür. AZƏRTAC müsahibəni təqdim edir.



*- Hafiz müəllim, bugünkü ADA illər öncə təsəvvür etdiyiniz kimidir, yoxsa?*

- Hərdən buna möcüzə kimi baxıram. Bu qədər gözləmirdik. İdeyası təbii surətdə yarandı, çünki ölkədə yeni universitetə böyük ehtiyac var idi. Mən 2006-cı ildə Amerikada səfir vəzifəmi bitirəndə son çıxışımı universitetlərdən birində etmişdim və demişdim ki, bura akademiyadan gəlmişəm, akademik dünyaya da qayıtmalıyam. İlk növbədə, əlbəttə, təhsil sahəsini nəzərdə tuturdum. Amerika universitetləri nümunəsində görürdüm ki, onlar cəmiyyəti qidalandıran və inkişaf etdirən mənbədir. Hamı bilir ki, əlbəttə, universitet vacib bir institutdur - cəmiyyət onsuz inkişaf edə bilməz. Qayıtdıqdan sonra cənab Prezidentlə söhbətdə bildirdim ki, icazə versəniz bir universitet yaradardıq. O, qeyd etdi ki, əvvəl diplomatiya sahəsini təkmilləşdirmək, yeni kadrlar yetişdirmək lazımdır. Azərbaycan Diplomatik Akademiyası belə yarandı. Xarici İşlər Nazirliyində bir neçə əməkdaşla iki otaqda başladıq. Diplomatlara ilk təlimləri keçmək üçün ABŞ-nin Corctaun Universitetindən üç professor dəvət etmişdik. Yerimiz olmadığına görə, ilk təlimləri o zaman fəaliyyətdə olan "Abşeron" hotelində keçdik. Birhəftəlik təlim, demək olar ki, bizim gələcək istiqamətimizi müəyyənləşdirdi. Daha sonra universitet ideyası üzərində işləyəndə, bunun kampus şəklində olması bizim üçün vacib idi. Tikinti işlərimizə amerikalı memarlarla başladıq. İndiyə qədər də eyni üslubda davam edirik. 2012-ci ildə yeni kampusumuzun açılışında cənab Prezident iştirak etdi və burada Azərbaycan səfirlərinin toplantısı keçirildi. Çox yaxşı qarşılandı.

Amma, əlbəttə ki, universiteti universitet edən tək binalar deyil, onun tələbələridir. Ona görə də tələbə artımı və tədris proqramlarının genişlənməsi və yenilənməsi həmişə diqqətimizdə olub. Bu gün 5000-dən çox tələbəmiz, 40-a yaxın bakalavr və magistr proqramlarımız var. Əsl böyük universitetə çevrilmişik. Amma bundan daha çox böyümək planlarımız yoxdur. Bəlkə tələbələrimizin sayını 7000-ə çatdırdıq. Çox yox. Çünki həm keyfiyyəti, həm də universitetin simasını saxlamaq istəyərdik. Açdığımız ixtisasların əksəriyyətini, deyim ki, cənab Prezident özü müəyyənləşdirib. Məsələn, ən son əlavə etdiyimiz İtaliya-Azərbaycan Universiteti çərçivəsində kənd təsərrüfatı, qida elmləri, memarlıq, dizayn kimi ixtisasları. Onlar sırf cənab Prezidentin baxışına uyğun həyata keçirildi. Bu ixtisaslar üzrə artıq yüzlərlə tələbəmiz var. Doğurdan da, olduqca vacib sahələr kimi, diqqətimizi onlara yönəldirik ki, həmin ixtisasların nüfuzu qalxsın və bura yaxşı oxuyan tələbələr gəlsin. Sirr deyil, kənd təsərrüfatı sahəsinə cavanlar o qədər də meyil etmirlər. Lakin gələcək bu ixtisaslarla bağlıdır. Həmişə deyirəm, bu sahə ölkəmizin ən vacib sahələrindən olacaq və həm də yüksək maaşlar verəcək. Gənclər də bunu başa düşməlidir. Builki qəbul ballarında həmin ixtisaslara dair yüksəliş görürük. Başqa ixtisaslarımız həmişə yüksək ballı tələbələr cəlb edirdi. Bu sahəyə maraq isə artıq hiss olunur. Beləliklə, bizim vəzifəmiz odur ki, dünya kontekstində Azərbaycanın ehtiyaclarını nəzərə alaraq inkişaf edək. Ölkənin hazırkı inkişaf mərhələsi yeni kadrlar tələb edir. Əks təqdirdə, biz qabaqcıl ölkələrdən geri qala bilərik. Hər şeyi müəyyənləşdirən təhsildir. Bu mənada, biz, sanki ön cəbhədəyik və müəllimlərimiz də, bütün heyətimiz də bunu yaxşı başa düşür və məsuliyyətlə yanaşırlar.

Gələcəklə bağlı digər planlarımız burada yarada bildiyimiz təhsil standartlarını bölgələrimizdə də yaratmaqdır. Çünki bölgədən olan tələbə dörd-beş il evindən ayrılıb gəlir Bakıya. Bu, ona həm iqtisadi, həm də sosial baxımdan çətindir. Elə etmək istəyirik ki, bölgədən olan tələbə təhsilini elə evə yaxın alsın. Ümumiyyətlə, dünya trendləri bakalavr təhsilinin üç ilə mümkün olduğunu göstərir. Onun üzərində də çalışırıq və yaxın gələcəkdə tətbiq edəcəyik.

*- Siz özünüz də yəqin şahidi olursunuz ki, əvvəllər gənclər imkan olanda ya öz hesablarına, ya da Xaricdə Təhsil Dövlət Proqramı hesabına Amerika, Avropa və ya digər ölkələrin universitetlərinə üz tuturdular. Amma indi trend dəyişdi - ADA-ya qəbul olub, ingilis dilində təhsili burada almaq istəyənlərin sayı çoxalıb.*

- Elədir. Amma qeyd etmək lazımdır ki, bu trend öz-özünə dəyişmədi. Onu biz dəyişdirdik. Əslində, məqsədlərimizdən biri də əzəldən bu idi - bizim cavanlar keyfiyyətli təhsili ailədən ayrılmadan ölkədə ala bilsinlər. Keyfiyyətli təhsili təşkil etmək asan olmasa da, məqsəd qoyanda, düzgün və düşünülmüş proqramlar tərtib edəndə mümkündür. Bu prosesdə müəllimlərin tapılması və yetişdirilməsi əsas məsələ idi. ADA-nı başlayanda elə ilk mərhələdə gördüyümüz iş dünyanın qabaqcıl universitetlərində oxuyan azərbaycanlıları tapmaq idi. Yadımdadır, ilk siyahımızda 120 ad var idi. Onlar Bakıda məktəbi bitirib, Türkiyədə bakalavr təhsili alıb, daha sonra Amerikada və Avropada doktoranturada davam edənlər idi. Bu siyahı üzrə hamıya məktub göndərdik və onları Bakıya dəvət etdik. Görüş vaxtını da Bakıya Yeni il bayramı üçün gəldikləri zamana uyğunlaşdırmışdıq. Üçgünlük tanışlıq proqramı düzəltdik. Onların işləri, tədqiqatları, tədris sahələri barədə söhbət etdik, planlarını öyrəndik. Və həmin 120 nəfərlik qrupdan təxminən 20 nəfəri ADA-ya işləməyə gəldi. Ehtimal edə bilərsiniz ki, onlar artıq oturuşmuş adamlar idi, xaricdə yaxşı maaşlar alırdılar. Bizim bacarığımız elə o oldu ki, onlara aldıqları maaşa yaxın maaş düzəldə bildik. Və bu təcrübə ilə də davam etdik. Buna görə də, doğru qeyd edirsiniz, valideynlər öz yetirmələrini bizə artıq tam əminliklə etibar edirlər. Çünki burada gözəl kampus da var, keyfiyyətli təhsil də, evə yaxın olmaq da və ingilisdilli tədris də. Qoyduğumuz qaydalara da ilk gündən riayət edirik - burada nə tapşırıq, nə də hər hansı güzəşt işləyir. İlk illərdə, xatırlayıram, düşünürdülər ki, rektora, dekana zəng vursalar nə isə dəyişə bilər. Lakin sonra anladılar ki, burada mədəniyyət fərqlidir. Sağ olsunlar, indi zəng vuran yoxdur daha-xahişlər, təzyiqlər bitib. Qəbul edibdlər ki, ADA-da belə şeylər işləmir. Məncə, bu şərti saxlamaq ADA Universitetinin nüfuzunu qaldıran amillərdən oldu.

*- İngilisdilli olmaq əvvəllər sensasiyaya bənzər idi. Məncə, son illər artıq belə deyil. Sərbəst danışanlar çoxdur. Bunu gənclərimiz arasında hiss edirsinizmi?*

- Abituriyentlər bizə müxtəlif yerlərdən gəlirlər - Azərbaycandilli məktəblərdən, rusdilli, ingilisdilli. Bunun əsasında onların hətta şəxsiyyətlərində belə fərqlər görmək olur. Bu mənada, ADA bu fərqlərin hamısını sanki sıfırlayır. Ümumiyyətlə, dil məsələsinə gəldikdə, əgər biz Azərbaycan vətəndaşı yetişdirmək istəyiriksə, o heç olmasa orta məktəbə qədər mütləq Azərbaycan dilində təhsil almalıdır, Azərbaycan məktəbinə getməlidir. Onlar məktəbdə Azərbaycan klassiklərini öz dillərində oxumalı, tariximizi, əsərlərimizi bilməlidir. Bununla bağlı, mən, hələ də çətinlik müşahidə edirəm. Bəzi cavan ailələr elə hesab edirlər ki, övladları hansısa əcnəbi dildə təhsilə başlasa, dünyaya daha hazırlıqlı olacaqlar. Amma, öz təcrübəmizdən deyə bilərəm ki, bizə Azərbaycan məktəblərindən gələn məzunlar bütün dünya trendlərinə qat-qat tez alışıb hazırlıqlı olurlar. Üstəlik, azərbaycandilli olaraq iş bazarına rahat uyğunlaşırlar. ADA Universitetinin təhsil fəlsəfəsində bu var - biz ADA məktəbi, yuxarı sinif məktəbi yaradanda təhsili ingilis dilində başladıqsa, ADA İbtidai Məktəbində tədrisi Azərbaycan dilində etdik. Bununla da artıq ibtidai təhsildən onları vətəndaş kimi yetişdiririk. Əgər bir tələbə uşaqlıqdan Cəlil Məmmədquluzadəni, Abbas Səhhəti və digər klassiklərimizin nümunələrini oxuyub bura gəlmirsə, o, Azərbaycan kimliyini, mədəniyyətini, irsini yuxarı yaşlarda tam qavraya bilmir. İbtidai səviyyədə təhsil Azərbaycan dilində, Vətən dilində olmalıdır. Bu günlərdə bizim məktəbə hətta xaricilər belə övladlarını gətirib azərbaycandilli ibtidai təhsilə verirlər. Görünür, onlar burada gələcək imkanları düzgün qiymətləndirərək övladlarının həyatını Azərbaycanla bağlayacaqlarını anlayırlar. Bizim də valideynlər eyni düşünməlidir - əgər onlar öz uşaqlarının həyatlarını Azərbaycanda görürlərsə, təhsilə Azərbaycan dillində başlanmalıdır. Baxın bu günlərdə nəinki dövlət təşkilatlarında, hətta özəl sektorda belə Azərbaycan dili işçi dili olmayanları qəbul etmirlər. Keçmişdə bunsuz, bəlkə də, keçinmək olardı. Amma indi olduqca vacib və lazımlıdır. Sovet vaxtlarında rusca oxumaq müəyyən bir dəb idi. İndi də dəb ingilis dilinədir. Niyə Azərbaycanca yox? Dil sadəcə bir alətdir. Amma sənin varlığını müəyyən edən Vətən dilindir. Azərbaycanda ibtidai mərhələdə təhsili Azərbaycan dilində almaq lazımdır.

*- ADA-nın əsas dəyərləri arasında akademik mükəmməllik xüsusi yer tutur. Sizcə, yaxşı tələbə necə olmalıdır?*

- Mənim fikrimcə, ilk növbədə yaxşı vətəndaş olmalıdır. Burada bilik alırlar, lakin mütəxəssislik daha sonra onun tətbiqi zamanı gəlir. ADA məzunu əvvəl yaxşı vətəndaş, daha sonra yaxşı mütəxəssis olmalıdır. Universitetdən qazandığı əsas qabiliyyət bu olmalıdır ki, qarşısına qoyduğu məqsədlərə necə çatacağını bilsin. Öz gəncliyimdən xatırlayıram, Moskvada Kurçatov İnstitutunda bizə deyirdilər ki, elmlər namizədi diplomu əslində sənin ali məktəbdə aldığın biliklərin təsdiqidir. Bununla hələ alim olmursan. Əsl alim doktorluğa yiyələnəndir. Yəni biz tələbələrə biliklə yanaşı, müəyyən bacarıqlar və vərdişlər verməliyik ki, həyatlarını necə davam etdirəcəklərini bilsinlər.

*- Bəs Sizin üçün yaxşı vətəndaş olmaq nədir?*

- Yaxşı vətəndaş nümunə olmaqdır. Mənim üçün budur. Yəni harada olduğunuzdan, nə işlə məşğul olduğunuzdan asılı olmayaraq, elə edəsiniz ki, sizə görə utanmasınlar. Mən həmişə bunu nəzərdə saxlamışam - mənə görə anam, atam utanmasın. Xaricdə işləyəndə Vətən mənə görə utanmasın. İndi təhsildəyəm - elə işləyim ki, cəmiyyətin universitetdən olan gözləntilərini doğruldum, cəmiyyət mənə görə utanmasın. Bu qədər sadə.

*- Yəni Sizin "düsturunuz" nümunədir?*

- Bəli, hər işdə nümunə olmaq. Məsələn, bu nümunələrdən ən yaxşısı cənab Prezidentdir. O, tək öz ölkəsi üçün yox, dünya üçün də nümunədir, bilirsiniz. Hətta media və kommunikasiyaya gəldikdə belə, cənab Prezident öz nümunəsi ilə jurnalistlərimizə böyük tərbiyə və bacarıq nümunəsidir. Azərbaycan diplomatiyası bu gün elə cənab Prezidentin diplomatiyasıdır. Onun diplomatik bacarığı nümunədir. Onun dərslərini yaxşı mənimsəyib öz tələbələrimizə çatdırmalıyıq. Müəllim sinif otağında nümunədir. Gənclərə ən yaxşı tərbiyə verməyin yolu odur. İşində, həyatında nümunə olmaq, amma bunu təvazökarlıqla etmək. Bizim şəhidlərimiz hər biri nümunədir. Bunu tələbələrimizə daim xatırladırıq ki, onların şəhidlik yolu Vətəni hərbidə müdafiə etmək idisə, sizin şəhidlik yolunuz öz sahələrinizdə Vətəni qorumaq və müdafiə etməkdir. Onların vuruşub, qazandığı qələbənin üzərində rahatlaşmaq olmaz. Bizi qarşıda daha çox və daha vacib işlər gözləyir. Bunun üçün hər bir gəncimiz işinə şəhid nümunəsi ilə məsuliyyətlə yanaşmalıdır.

*- Hafiz müəllim, bu il ADA kimi siz də xüsusi təqviminizi qeyd etdiniz. Adınızla bağlı söhbətlərdə deyirlər ki, bu yaşda intensiv iş rejimindən kənara çəkilib dincəlmək, sadəcə həyatdan zövq almaq olardı. Siz bunu necə şərh edərdiniz?*

- Mənim üçün həyatdan zövq almaq elə budur - işimdən, tələbələrlə və müəllimlərlə ünsiyyətdən zövq alıram. Təqaüdə çıxanlar cəmiyyətdən tam ayrılmırlar ki. Cavanlarla işləmək adamı ruhlandırır. Vətənin bu mərhələsində ehtiyaclar çoxdur. O cümlədən təhsil sahəsində. Bəlkə də elə ən böyük ehtiyac təhsildədir. Bu gün yetişdirdiyimiz gənclər Vətənin gələcəyini müəyyənləşdirəcəklər. Nə qədər onları yaxşı yetişdirsək, o qədər də Vətənin gələcəyi yaxşı olacaq. Mənim fikrim budur. Azərbaycan gözəl ölkədir. Onun daim qayğısına qalmaq vacibdir. Hər yeni tədris ilimizi bu fikirlə başlayaq.

# Dağların qoynunda yenidən boy atan Kəlbəcər

Azərbaycan təbiətinin bütün rənglərini özündə birləşdirən, yeraltı və yerüstü sərvətləri ilə seçilən Kəlbəcərin uca dağları, sıx meşələri, alp çəmənlikləri, buz kimi bulaqları, gur çayları, şəlalələri və mineral su mənbələri bu diyara bənzərsiz gözəllik bəxş edir. Ərazinin mürəkkəb geoloji və tektonik inkişaf tarixi onun yeraltı sərvətlərlə də zəngin olmasına şərait yaradıb.

Ölkəmizin dağlıq rayonlarından olan Kəlbəcərin ərazisinin böyük hissəsi dəniz səviyyəsindən 2000 metrdən yüksəkdə yerləşir. Rayonu sanki təbii qala kimi əhatə edən Murovdağ, Şərqi Göyçə, Mıxtökən silsilələrinin bir çox zirvələrinin hündürlüyü 3000 metri keçir. Tərtər çayı və onun çoxsaylı qolları dağların arasından keçərək ərazidə dərin dərələr, yarğanlar, mürəkkəb, bəzi yerlərdə isə keçilməsi çətin relyef formaları yaradıb. Bu sərt coğrafiya əsrlər boyu Kəlbəcərin həyat tərzini, təsərrüfat ənənələrini və insanlarının torpaqla münasibətini müəyyənləşdirib.



Bu gün isə həmin dağların qoynunda tamamilə yeni həyat qurulur. İşğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərdə də Prezident İlham Əliyevin tapşırığı və birbaşa nəzarəti ilə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Yaşayış məntəqələri yenidən qurulur, müasir infrastruktur yaradılır, sosial və iqtisadi layihələr reallaşdırılır, keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına qayıdırlar.

Kəlbəcərin bərpası yalnız yeni binaların tikilməsi, yolların çəkilməsi, kommunikasiya xətlərinin yaradılması demək deyil. Əsl dirçəliş insanların burada daimi yaşaması, işləməsi, təsərrüfat qurması, gəlir əldə etməsi və gələcəyini doğma torpaqda qurması ilə mümkündür. Buna görə də Böyük qayıdış prosesi çərçivəsində yaşayış məntəqələrinin yenidən qurulması ilə paralel olaraq məşğulluğun təmin edilməsinə, sahibkarlığın inkişafına və özəl investisiyaların cəlbinə də xüsusi diqqət yetirilir.

Burada ilk mərhələdən modul tipli sahibkarlıq subyektlərinin fəaliyyəti üçün şəraitin yaradılması da məhz bu məqsədə xidmət edib. Bununla bir tərəfdən, sakinlərin gündəlik istehlak tələbatının ödənilməsi, digər tərəfdən, yerli əhali üçün məşğulluq imkanlarının yaradılması nəzərdə tutulub. Rayonda həyata keçirilən özəl investisiya layihələrinin mühüm istiqamətlərindən biri də yeni iş yerlərinin açılmasıdır. Belə layihələr Kəlbəcərin böyük iqtisadi potensialının dövriyyəyə cəlb olunmasına, eyni zamanda sakinlərin rayonun sosial-iqtisadi həyatında fəal iştirakına imkan verir.

Böyük qayıdışın ən mühüm göstəricisi isə illər sonra Kəlbəcərdə yenidən evlərin işıqlarının yanmasıdır. Sakinlərin şəhərə qayıdışı nəticəsində hazırda Kəlbəcər şəhərində 162 ailə 681 nəfər məskunlaşıb. Bu rəqəmlərin qarşıdakı dövrdə daha da artması üçün yeni yaşayış sahələrinin yaradılması planlaşdırılır. Şəhərdə üç yeni yaşayış məhəlləsinin tikintisinə gələn il başlanılması nəzərdə tutulur. Hazırda layihələr yekunlaşdırılaraq ekspertiza mərhələsinə təqdim edilib. İkinci yaşayış məhəlləsində 182, üçüncü yaşayış məhəlləsində 476, dördüncü yaşayış məhəlləsində isə 807 mənzilin yaradılması planlaşdırılır. Yeni məhəllələr müasir yaşayış standartlarına uyğun qurularaq su, qaz, elektrik enerjisi və sürətli internetlə təmin ediləcək.

Şəhərin yalnız yaşayış fondu deyil, ümumi siması da dəyişir. Kəlbəcər şəhər parkının layihələndirilməsi artıq yekunlaşıb və parkın tikintisinə gələn il başlanılması nəzərdə tutulur. Şəhərdə inzibati binanın layihələndirilməsi də planlaşdırılıb. Bütün bunlar Kəlbəcərin tədricən müasir, rahat və funksional məkana çevrilməsinin ayrı-ayrı halqalarıdır.

Quruculuq rayonun kəndlərini də əhatə edir. Zar kəndində tikinti işləri artıq yekunlaşmaq üzrədir və yaxın zamanda kəndə köçün başlanması nəzərdə tutulur. Burada 547 fərdi ev, 100 yerlik uşaq bağçası və 528 şagird yerlik məktəb binası inşa edilib. Tikinti tam başa çatdıqdan sonra sakinlərin kəndə köçürülməsi həyata keçiriləcək. Beləliklə, bu yaşayış məntəqələrində yenidən ailələr məskunlaşacaq, məktəb qapıları uşaqların üzünə açılacaq, kənd təsərrüfatı və gündəlik həyat öz axarına qayıdacaq.

Kəlbəcərin adı çəkiləndə ilk yada düşən təbii sərvətlərdən biri də "İstisu"dur. Dəlidağ ərazisində, dəniz səviyyəsindən təxminən 1600 metr yüksəklikdə yerləşən mənbədən çıxan suyun temperaturu 60 dərəcədən yüksəkdir. Zəngin və balanslaşdırılmış mineral tərkibə malik "İstisu" təbii qazlı mineral su kimi tanınır. Mütəxəssislərin rəyinə görə, unikal təbii şəraitdə formalaşan bu su insan orqanizmi üçün faydalı xüsusiyyətlərə malikdir. Bu sərvət Kəlbəcərin gələcək turizm, sağlamlıq və iqtisadi inkişafı baxımından mühüm imkanlardan biridir.

Rayonun təbii üstünlüklərinin iqtisadi dəyərə çevrildiyi ənənəvi sahələrdən biri isə arıçılıqdır. Zəngin flora, geniş alp və subalp çəmənlikləri, təmiz ekoloji mühit Kəlbəcər balına xüsusi keyfiyyət qazandırır. Bu qədim təsərrüfat ənənəsi bu gün yenidən canlanır. Cari ilin mövsümi köç dövründə Kəlbəcər rayonu ərazisinə 3396 fermerə məxsus 148 min 308 arı ailəsinin köçürülməsinə icazə verilməsi bu sahənin miqyasını aydın göstərir. Sentyabrın 12-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Kəlbəcərdə növbəti Bal festivalının keçirilməsi də təsadüfi deyil. Artıq ikinci dəfə təşkil olunan festival Kəlbəcərin təsərrüfat həyatının dirçəlişinin, yerli məhsul istehsalının və bölgənin turizm imkanlarının tanıdılmasının rəmzlərindən birinə çevrilir.

II Bal Festivalında 40-a yaxın stend qurulub. Ötən illə müqayisədə arıçıların və stendlərin sayının artırılması festivala marağın genişləndiyini göstərir. Burada məqsəd yalnız Kəlbəcər balının satışını təşkil etmək deyil, həm də onun, ümumilikdə isə Azərbaycanda istehsal olunan bal məhsullarının tanıdılmasına imkan yaratmaqdır. Festivalın ənənəvi xarakter alması gələcəkdə Kəlbəcərin kənd təsərrüfatı, turizm və iqtisadi potensialının həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə təbliğinə əlavə imkanlar aça bilər.

Kəlbəcərin iqtisadi həyatının dirçəldilməsində heyvandarlıq və əkinçilik də mühüm yer tutur. 2021-ci ildən etibarən işğaldan azad edilmiş ərazilərə, xüsusilə Kəlbəcərə hər il mövsümi mal-qara köçü həyata keçirilir. Bu il Qarabağ və Şərqi Zəngəzura 400 mindən çox xırdabuynuzlu heyvan köçürülüb. Yeni salınan kəndlərdə və kəndətrafı ərazilərdə fermaların yaradılması üçün torpaq sahələrinin ayrılması gələcəkdə sakinlərin öz təsərrüfatlarını qurmasına və yerli istehsalın genişlənməsinə xidmət edəcək.

Bu gün Kəlbəcərdə şəhər və kəndlər yenidən qurulur, infrastruktur yaradılır, insanlar qayıdır, iş yerləri açılır, sahibkarlıq və kənd təsərrüfatı canlanır, festivallar keçirilir. Otuz ilə yaxın doğma sakinlərinin həsrətində qalan, səssizliyə qərq olmuş bu torpaqlarda həyat yenidən dirçəlir. Kəlbəcərin qarşıdakı illərdə inkişaf perspektivləri də onun təbii sərvətləri qədər genişdir. Həyata keçirilən layihələr, yaradılan yeni imkanlar və doğma yurda qayıdan insanların qurub-yaratmaq əzmi bu qədim diyarın gələcəyinin möhkəm təməllərini yaradır. Bu da onu göstərir ki, illərin sükutundan sonra Kəlbəcər artıq yeni inkişaf mərhələsinə qədəm qoyub.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

**Dünya sürətlə dəyişir. Bir vaxtlar inkişafın əsas göstəricisi təbii sərvətlər, iri sənaye müəssisələri və istehsal gücü hesab olunurdusa, bu gün dövlətlərin rəqabət qabiliyyətini müəyyənləşdirən amillər sırasına bilik, innovasiya, rəqəmsal texnologiyalar və insan kapitalı da daxil olub. Süni intellektdən rəqəmsal dövlət xidmətlərinə, yüksək texnologiyalardan elmi tədqiqatların kommersiyalaşdırılmasına qədər geniş bir sahəni əhatə edən yeni reallıq ölkələr qarşısında mühüm vəzifələr qoyur. Rəqəmsal keçid artıq seçim deyil, zamanın çağırışıdır. Azərbaycan dövləti də bu çağırışa özünün sistemli inkişaf modeli ilə cavab verir.**




# Azərbaycanın innovasiya vizyonu

Son illər ölkəmizdə rəqəmsallaşmanın dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsi təsadüfi deyil. Məqsəd yalnız ayrı-ayrı xidmətləri elektron formata keçirməklə məhdudlaşmır. Rəqəmsal transformasiya dövlət idarəçiliyi və iqtisadiyyatla yanaşı, təhsil, elm, biznes və vətəndaş xidmətləri də daxil olmaqla, cəmiyyətin bir çox sahəsini əhatə edir. Bu baxımdan, sentyabrın 14-də Prezident İlham Əliyevin Bakıda Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında qurulan "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirakı xüsusi əhəmiyyət daşıyır.

"SABAH.city", sadəcə, yeni tikililərdən və müasir infrastruktura malik ərazidən ibarət deyil. Burada əsas ideya elm, təhsil, texnologiya və biznes arasında birbaşa əlaqənin qurulmasıdır. Başqa sözlə, universitet auditoriyasında yaranan ideyanın laboratoriyada tədqiqata, oradan startapa, daha sonra isə real iqtisadi məhsula çevrilməsi üçün vahid ekosistem formalaşdırılır. Bu model Azərbaycanın bilik iqtisadiyyatına keçidini sürətləndirməyə, innovativ düşüncəli yeni nəslin imkanlarını genişləndirməyə hesablanıb.

Layihə ümumilikdə 20 hektar ərazidə icra olunacaq. Birinci mərhələ 5 hektardan çox ərazini və 20 min kvadratmetr tikili sahəsini əhatə edir. Tikinti işlərinə ötən ilin oktyabrında başlanılıb və bir-biri ilə əlaqələndirilmiş dörd korpusdan ibarət kompleks yaradılıb. Şəhərcikdə restoranlar, market, tədbirlər zalı ilə yanaşı, basketbol və futbol meydançaları, iki padel kortu, açıq istirahət zonaları, piyada və velosiped zolaqları, parklanma sahələri də təşkil edilib. Lakin layihənin əsl miqyasını onun fiziki infrastrukturu deyil, burada yaradılan intellektual mühit göstərir. "SABAH.city"də Bakı Dövlət Universitetinin, Azərbaycan Texniki Universitetinin və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mühəndislik, informasiya texnologiyaları və tətbiqi elmlər istiqamətlərində təhsil alan 1500-dən çox tələbəsinin tədrisə və praktiki fəaliyyətə cəlb olunması nəzərdə tutulur. Şəhərcik tam fəaliyyətə başladıqdan sonra gündəlik ziyarətçi sayının təxminən 3 min nəfərə çatacağı gözlənilir.

Burada diqqətçəkən əsas məqamlardan biri tələbənin yalnız nəzəri bilik alan tərəf kimi deyil, innovasiya prosesinin birbaşa iştirakçısı kimi nəzərdə tutulmasıdır. Universitet, laboratoriya, texnologiya şirkəti və startap eyni mühitdə fəaliyyət göstərdikdə təhsillə əmək bazarı arasındakı məsafə də azalır. Gənc mütəxəssis universiteti bitirdikdən sonra ilk dəfə real layihə ilə qarşılaşmır, əksinə, təhsil aldığı dövrdən onun içərisində olur. Bu isə müasir iqtisadiyyatın tələb etdiyi çevik, yaradıcı və texnoloji bacarıqlara malik insan kapitalının yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

"SABAH.city"də üç universitet tərəfindən yaradılan ümumilikdə 13 tədris və tədqiqat laboratoriyası fəaliyyət göstərəcək. Bu laboratoriyalarda süni intellekt, robototexnika, kompüter elmləri, kibertəhlükəsizlik, biotexnologiya, nanobiologiya, nanofizika, kimya, telekommunikasiya və digər prioritet elmi-texnoloji istiqamətlər üzrə tədqiqat və tətbiqi fəaliyyət nəzərdə tutulur. Bununla yanaşı, 12 startapın yerləşdiyi kovorkinq zonası və yerli, beynəlxalq texnologiya şirkətləri, korporativ tədqiqat və inkişaf mərkəzləri, eləcə də innovasiya ekosisteminin digər iştirakçıları üçün 22 ofis sahəsi yaradılıb. Birinci mərhələyə 3 ali təhsil müəssisəsi, 8 texnologiya və innovasiyayönümlü şirkət və 12 startap olmaqla ümumilikdə 23 əsas ekosistem iştirakçısı cəlb edilib.

Şəhərcikdə ASAN Süni İntellekt Mərkəzinin - "ASAN AI Hub"ın yaradılması isə Azərbaycanın rəqəmsal transformasiyasının digər mühüm istiqamətini önə çıxarır. Mərkəzin məqsədi süni intellekt sahəsində innovativ təşəbbüsləri dəstəkləmək, tədqiqatçıları, dövlət qurumlarını, özəl sektoru və fərdi istifadəçiləri vahid rəqəmsal platformada bir araya gətirmək, dövlət, biznes və təhsil müəssisələri arasında əməkdaşlığı gücləndirməkdir. Artıq burada 50 süni intellekt həlli təqdim olunub. Mərkəz ölkədə fəaliyyət göstərən səkkiz universitet, Azərbaycan Milli Elmlər Akademiyası, həmçinin Çinin Sinxua, Böyük Britaniyanın Oksford və Türkiyənin Boğaziçi universitetləri daxil olmaqla xarici tərəfdaşlarla əməkdaşlıq əlaqələri qurub.

İnnovasiyanın iqtisadi nəticəyə çevrilməsi baxımından startapların dəstəklənməsi də xüsusi əhəmiyyət daşıyır. "ASAN xidmət"in "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzindən indiyədək 150 startap yararlanıb, onlardan dördü xarici investorlar tərəfindən satın alınıb. Eyni zamanda "Süni İntellekt Assistent" platforması "ASAN xidmət"in müxtəlif fəaliyyət istiqamətləri barədə məlumatın sürətli və adi söhbət formatında əldə olunmasına, təhlil və proqnozlaşdırmaya imkan yaradır.

Bütün bunlar ölkədə son dövrdə rəqəmsallaşma istiqamətində atılan addımların ümumi məntiqi ilə üst-üstə düşür. Prezident İlham Əliyevin 27 fevral 2026-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılması rəqəmsal transformasiyanın vahid mərkəzdən əlaqələndirilməsi üçün yeni institusional mexanizm formalaşdırdı. Həmin gün dövlətimizin başçısının sərəncamı ilə "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" da təsdiqləndi. Sənəd müasir texnologiyaların tətbiqinin, yerli istehsal potensialının genişləndirilməsinin, dövlət idarəetməsi və infrastrukturun rəqəmsallaşdırılmasının dayanıqlı və rəqabətqabiliyyətli inkişafın mühüm şərtlərindən biri kimi müəyyənləşdirildiyini göstərir.

Rəqəmsal İnkişaf Şurasına Birinci vitse-prezident Mehriban Əliyevanın sədrlik etməsi bu sahəyə verilən yüksək önəmin göstəricisidir. İyunun 29-da şuranın ilk iclasında Mehriban Əliyeva qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını əhatə edən konkret yol xəritəsinin müəyyənləşdirildiyini vurğulayıb. Birinci vitse-prezidentin qeyd etdiyi kimi, məqsəd yalnız yeni texnologiyaları tətbiq etmək deyil, həm də iqtisadi inkişafa güclü təkan vermək, müasir innovasiya ekosistemi yaratmaq, yerli və xarici investisiyaları cəlb etmək, startapları dəstəkləmək və daha səmərəli dövlət idarəetmə sistemi formalaşdırmaqdır.

Mehriban Əliyevanın "Süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir" fikri əslində yeni dövrün mahiyyətini dəqiq ifadə edir. Bu gün süni intellekt iqtisadi üstünlük vasitəsi olmaqla yanaşı, dövlət idarəçiliyindən təhlükəsizliyə qədər çoxsaylı sahələrdə mühüm rol oynayır. Buna görə də Azərbaycanın qarşısında duran məqsəd texnologiyanın sadəcə istifadəçisi olmaq deyil, onun yaradıldığı, inkişaf etdirildiyi və iqtisadi dəyərə çevrildiyi ekosistemi qurmaqdır.

Prezident İlham Əliyevin "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirakı da dövlət səviyyəsində bu istiqamətə verilən diqqətin növbəti ifadəsidir. Azərbaycanın qarşısında duran hədəf artıq yalnız rəqəmsal xidmətlərin sayını artırmaq deyil. Məqsəd rəqəmsal dövlət, innovativ iqtisadiyyat, güclü elmi mühit və rəqabətqabiliyyətli insan kapitalını vahid inkişaf modelində birləşdirməkdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Bu il Gəncənin ümumtəhsil məktəblərində 47059 şagird təhsil alacaq

Gəncədə fəaliyyət göstərən ümumtəhsil məktəblərində 15 Sentyabr Bilik Günü münasibətilə tədbirlər keçirilmişdir.



Tədbirlərdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, Ulu Öndər Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Çıxışlarda qeyd olunmuşdur ki, yeni tədris ili şagirdlər üçün yeni biliklərə, yeni uğurlara və böyük hədəflərə aparan yolun başlanğıcıdır. Şagirdlərə elm və təhsilə həvəslə yanaşmaları, qarşılarına qoyduqları məqsədlərə inam və əzmlə addımlamaları tövsiyə olunmuş, onlara hər bir uğurun arxasında bilik, zəhmət və əzm dayandığı xatırladılmışdır.

Sonra 2026-2027-ci tədris ilinin ilk zəngi çalınmışdır.

Qeyd edək ki, bu tədris ilində Gəncə şəhəri üzrə təhsil sektorunun tabeliyində fəaliyyət göstərən 51 ümumtəhsil məktəbində 47 059 şagird təhsil alacaqdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Lənkəranda iki müasir məktəb binası əsaslı təmirdən sonra istifadəyə verilib

15 Sentyabr Bilik Günündə Lənkəran rayonu Viyən kənd tam orta və Lənkəran şəhəri Rövşən Bədəlov adına 9 nömrəli tam orta məktəblərin açılış mərasimi keçirilib. Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, elm və təhsil nazirinin müşaviri Rüstəm Ağayev, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdir müavini Rəhim Rəhimov, Lənkəran rayonu üzrə Təhsil sektorunun müdiri Ağammədə Şənmədov və şəhid ailələrinin üzvləri iştirak ediblər.



Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdir müavini Rəhim Rəhimov dövlətin təhsilə göstərdiyi diqqət və qayğının Lənkəran rayonunda da özünü aydın şəkildə büruzə verdiyini, rayonun bir sıra məktəblərində tikinti, yenidənqurma və əsaslı təmir işlərinin davam etdirildiyini söyləyib. Müdir müavini təhsilə qoyulan hər bir sərmayənin ölkəmizin gələcəyinə qoyulan investisiya olduğunu, bu gün sinif otaqlarında yetişdirilən şagirdlərin sabah ölkəmizin idarə olunmasında, elmində, iqtisadiyyatında və ictimai həyatında həlledici rol oynayacaqlarını bildirib.

Qeyd edək ki, Lənkəran rayonu Viyən kənd tam orta məktəbi 240 şagird yerlikdir, müəllimlərin sayı 47 nəfərdir, 2026-cı ildə birinci sinfə gedən şagirdlərin sayı 21 nəfərdir. Məktəb ən müasir səviyyədə təmir olunub, müəllim və şagirdlər üçün bütün lazımi şərait yaradılıb, yeni məktəb müasir sinif otaqları, laboratoriyalar, idman və akt zalları, eləcə də fasiləsiz istilik sistemi ilə təchiz olunub.



Şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad olunması və Dövlət himninin səslənməsi ilə başlayan açılış mərasimlərində giriş nitqi ilə çıxış edən Lənkəran ŞİH-in başçısı Taleh Qaraşov bildirib ki, təhsil hər bir dövlətin gələcəyini müəyyən edən strateji sahədir, ölkənin davamlı inkişafı, cəmiyyətin tərəqqisi və gələcək potensialı məhz savadlı, yüksəkintellektli, peşəkar və vətənpərvər nəslin yetişdirilməsindən asılıdır. Onun sözlərinə görə, məktəb yalnız bilik verilən məkan deyil, həm də şəxsiyyətin formalaşdığı, milli-mənəvi dəyərlərin aşılandığı və vətəndaşlıq mövqeyinin formalaşdığı mühüm tərbiyə ocağıdır. İcra başçısı Ümummilli Lider Heydər Əliyevin bütün fəaliyyəti boyu elmə, təhsilə və müəllim əməyinə böyük diqqət və qayğı göstərdiyini, Ulu Öndərin dövlətçilik fəlsəfəsində təhsilin insan kapitalının formalaşdırılmasının əsas vasitəsi hesab olunduğunu bildirib. T.Qaraşov Ümummilli Liderin uğurlu təhsil siyasətinin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə, uğurla və ardıcıl şəkildə davam etdirildiyini, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə ölkənin bütün ərazilərində, o cümlədən Lənkəran rayonunda da ümumtəhsil müəssisələrinin təmirinin və yenidən inşasının həyata keçirildiyini qeyd edib.

Elm və təhsil nazirinin müşaviri Rüstəm Ağayev son illərdə ölkəmizdə təhsil infrastrukturunun yenilənməsi, müasir məktəblərin tikilməsi və əsaslı təmiri istiqamətində genişmiqyaslı işlər həyata keçirildiyini vurğulayıb. Onun sözlərinə görə, dövlət siyasətinin əsas məqsədi hər bir şagird üçün keyfiyyətli və müasir təhsil imkanları yaratmaqdır. Maddi-texniki bazanın gücləndirilməsi ilə yanaşı, təhsilin məzmununun müasirləşdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və müəllimlərin peşəkarlığının artırılması da diqqət mərkəzindədir.

Repetitor asılılığını azaltmaq məqsədilə tətbiq olunan yeni təhsil modeli əsasında formalaşdırılan 540 şagirdlik Lənkəran şəhəri Rövşən Bədəlov adına 9 saylı tam orta məktəb artıq regionun ən uğurlu təhsil ocaqlarından birinə çevrilib. 2026-cı ildə məzun olan 131 şagirddən 124-ü qəbul imtahanlarında yüksək bal toplayaraq müxtəlif ali təhsil məktəblərinə, digər şagirdlər isə orta ixtisas və peşə təhsili məktəblərinə qəbul olunublar.

Hər iki təhsil ocağının açılış mərasimi təntənəli keçib. Qırmızı lentlər kəsilib və məktəb binaları qapılarını şagird və təhsilverənlərin qarşısında açıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Masallıda Bilik Günü qeyd olunub




15 Sentyabr Bilik Günü münasibətilə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, aparatın böyük məsləhətçisi, Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Zamin Məmmədov və Masallı Rayon Təhsil sektorunun müdiri Elman Rzayev Masallı şəhərində yerləşən Dəfinə məktəb-liseyində olublar. Rayon rəhbəri məktəb-liseyin kollektivini və şagirdləri yeni dərs ilinin başlanması münasibətilə təbrik edib, onlara təhsildə uğurlar arzulayıb.

Araz Əhmədov məktəbdə yaradılmış şəraitlə tanış olub, təhsil müəssisəsinin müəllim və şagird kollektivi ilə görüşüb. Görüş zamanı ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından, gənc nəslin hərtərəfli və savadlı yetişdirilməsinin əhəmiyyətindən danışılıb. İcra başçısı bildirib ki, müasir dövrdə bilik və təhsil cəmiyyətin inkişafının əsas amillərindən biridir. Şagirdlərin keyfiyyətli təhsil alması, onların milli-mənəvi dəyərlərə bağlı, vətənpərvər və savadlı gənclər kimi yetişməsi qarşıda duran əsas vəzifələrdəndir.

Tədbirdə müəllimlərin əməyi yüksək qiymətləndirilib, onlara gələcək fəaliyyətlərində uğurlar arzu edilib. Şagirdlərə isə yeni tədris ilində yüksək nailiyyətlər, möhkəm cansağlığı və bol uğurlar arzu olunub.

Sonda məktəb-liseyin müəllim və şagird kollektivi ilə xatirə fotosu çəkdirilib.

*S.CAVADOV,*
*"Azərbaycan"*

# Yeni məktəbdə 264 şagird təhsil alacaq




Sentyabrın 15-də Hacıqabul şəhərində 3 saylı tam orta məktəbin yeni binasının açılış mərasimi keçirilib. Beləliklə, builki Bilik Günü hacıqabullular üçün çox əlamətdar olub.

Azərbaycan Respublikası Prezidentinin 21 aprel 2021-ci il tarixli sərəncamına əsasən, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ayrılmış vəsait hesabına yenidən inşa olunan məktəb binası 264 şagirdin təhsil almasına imkan verən müasir təhsil infrastrukturu ilə təmin edilib. Müasir tələblərə uyğun inşa edilən yeni məktəb binasında şagirdlərin keyfiyyətli təhsil alması, müəllimlərin səmərəli fəaliyyət göstərməsi və tədris prosesinin səmərəli təşkili üçün zəruri şərait yaradılıb.

Açılış mərasimində Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Uşaq və Gənclərin İnkişafı şöbəsinin müdiri Elnur Əliyev, məktəbin müəllim və şagird kollektivi iştirak ediblər.

Yeni məktəb binasının istifadəyə verilməsi Hacıqabul rayonunda təhsil infrastrukturunun inkişafı, təhsilalanların müasir və əlverişli şəraitdə təhsilə çıxışının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat

## Böyük qayıdışın məşğulluq gündəliyi

### Prezident İlham ƏLİYEV: "Qarabağda və Şərqi Zəngəzurda işsizlik olmamalıdır"

**İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması dayanmadan həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzura əhalinin qayıdışı bölgədə yeni iş imkanlarının yaradılmasına xüsusi diqqət yetirilməsini tələb edir. Böyük qayıdış fonunda doğma yurda dönən əhalinin öz yaşayışını təmin etməsi üçün yeni iş yerləri yaradılır.**



Bu məqsədlə müxtəlif sahələrdə layihələr həyata keçirilir, yeni evlər və yollar inşa olunur, müəssisələr fəaliyyətə başlayır. Çünki doğma yurda qayıdış sadəcə evə dönüşlə xarakterizə olunmur. Həmin dönüş qarşıda yeni həyat qurmaq, işləmək və gələcəyə dair planlar kimi yeni bir mərhələ açır. Bu istiqamətdə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən işlərin əsas istiqamətlərindən biri əhalinin əmək bazarına uyğunlaşmasıdır. Və bu inteqrasiya fonunda işəgötürənlərlə əməkdaşlığın genişləndirilməsi, həmçinin də əhalinin məşğulluq imkanlarının artırılması ilə bağlı tədbirlər davam etdirilir. Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən bu işlər və əldə olunan nəticələr prosesin əsas hissəsini təşkil edir.

Prosesin davamlı olması, yurda qayıdanların yenidən qurulan yaşayış məkanlarında iqtisadi fəallığının artırılması vacib məsələ kimi hər zaman gündəlikdə dayanır. Bu mənada bir neçə gün əvvəl Xankəndi şəhərində "Regional məşğulluq ekosisteminin qurulması: işəgötürənlərlə birgə fəaliyyət mexanizmləri" mövzusunda keçirilən "dəyirmi masa"da regionda yeni iş imkanlarının yaradılması məsələləri müzakirə olunub.

Keçirilən müzakirələrdə regionlarda məşğulluğun artırılması üçün mövcud imkanlar, yeni layihələrin yaratdığı perspektivlər və qarşıda duran prioritetlər ətrafında fikir mübadiləsi aparılıb. Bütün bunlar azad edilmiş ərazilərdə sosial və iqtisadi dirçəlişin paralel şəkildə getdiyini göstərir. Qarabağ və Şərqi Zəngəzurda qurulan yeni həyatın əsas dayaqlarından biri də məhz insanın öz doğma yurdunda çalışması və gələcəyini burada qurmasıdır.

Tədbirin iştirakçısı olan İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktorunun müavini Təranə Salıfova çıxışında Böyük qayıdışın insanların doğma yurda dönməsi ilə yekunlaşmadığını vurğulayıb. Bildirib ki, qayıdışın davamlı və dayanıqlı olması üçün insanların burada öz gələcəyini qurması, işləməsi və əmək bazarında yerini tapması vacibdir. İşğaldan azad edilmiş ərazilərdə məşğulluğun artırılmasına dair tədbirlər planının monitorinqi və qiymətləndirilməsi çərçivəsində aparılan təhlillərin nəticələrini diqqətə çatdırıb. Həmçinin qeyd edib ki, azad olunmuş ərazilərdə əsas məsələ əmək bazarının ehtiyacları ilə qayıdan insanların bilik və bacarıqlarını bir araya gətirmək, işəgötürənləri bu prosesin fəal iştirakçısına çevirmək, məşğulluq xidmətlərini yeni reallıqlara uyğun qurmaqdır. Çünki doğma yurda qayıdış yeni həyata kök salmaqdır.

Bu prinsip dövlət siyasətində də əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyev 2025-ci il oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşündə məsələnin dövlət siyasətindəki yerini vurğulayıb: "Qarabağda, Şərqi Zəngəzurda işsizlik olmamalıdır. Bütün bu şəhər və kəndlər tikiləndə, bunu biz əsas vəzifə kimi qarşıya qoyuruq ki, burada yaşayan insanlar işlə təmin olunsunlar. Böyük qayıdışın əyani sübutu bu gün gözünüzün önündədir. Belə gözəl şərait yaratmaqla Azərbaycan dövləti bir daha öz siyasətini göstərir. İşğal dövründə ovaxtkı köçkünlərlə çoxsaylı görüşlərimdə mən demişdim ki, torpaqlar işğaldan azad olunandan sonra şəhərlərimiz, kəndlərimiz yenidən qurulacaq, əvvəlkindən daha gözəl olacaq. Bugünkü gün bu sözlərin əyani sübutudur". Təbii ki, belə yanaşma azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərinin yalnız fiziki infrastrukturun yaradılması ilə məhdudlaşmadığını göstərir. Yeni salınan şəhər və kəndlərdə həyatın tam bərpası üçün insanların işlə təmin olunması, iqtisadi fəallığının artırılması və öz gələcəyini bu torpaqlarda qurması əsas şərtlərdəndir. Artıq bu istiqamətdə əldə olunan nəticələr Böyük qayıdışın tədricən yeni mərhələyə keçdiyini göstərir.

30 il həsrətlə gözlənilən qayıdış artıq gerçəyə çevrilir. Vaxtilə səssizliyə bürünmüş torpaqlarda həyat yenidən canlanır, evlərə işıq, küçələrə səs-küy, insanlara isə ümid qayıdır. Bu böyük dönüşün miqyası görülən işlərlə ölçülür. Əslində, həmin dönüşü ehtiva edən rəsmi statistika doğma torpaqlarına qayıdan minlərlə insanın həyatında baş verən böyük dəyişiklikdən xəbər verir. Rəqəmlərin hər birinin arxasında illərlə davam edən həsrət, qayıdış arzusu və doğma yurdda yenidən həyat qurmaq hekayəsi dayanır. İnsanların öz yurduna dönməsi ilə yeni həyatın ritmi sürətlənir, ana torpaq canlanır.

Bu canlanma isə ən aydın şəkildə doğma yurda qayıdan ailələrin və insanların sayında əks olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu il avqustun 1-i tarixinədək işğaldan azad edilmiş ərazilərə 38 min 179 nəfər keçmiş məcburi köçkün geri qayıdıb. Bununla da həmin ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 91 min 746 nəfər təşkil edib.

Rəqəmlərin arxasında Böyük qayıdışın daha bir mühüm mənzərəsi görünür. Bu, o deməkdir ki, doğma yurda qayıdan insanların əmək və məşğulluq məsələsi olduqca vacibdir. Məşğulluğu təmin edilənlərin 7 min 915 nəfərinin, yəni təxminən 68 faizinin əmək bazarında mövcud real vakansiyalar üzrə işlə təmin olunması prosesin getdikcə daha sistemli xarakter aldığının, həmçinin Böyük qayıdışın artıq yeni mərhələyə qədəm qoyduğunun göstəricisidir. Çünki yurduna qayıdan insan sadəcə ünvan dəyişmir. Bu qayıdışın ən böyük mənası doğma torpaqda həyatın davam etdiyini görməkdir.

Əslində, Böyük qayıdışın ən böyük nəticəsi də illər sonra insanın öz yurdunda yenidən sabaha plan qurması, ailəsi ilə burada yaşaması, işləməsi və gələcəyini bu torpaqlarla bağlamasıdır. Dünən həsrət və nisgillə xatırlanan torpaqlar bu gün həyatın, əməyin və ümidin ünvanına çevrilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Şəmkirdə balıqçılıq inkişaf etdirilir

"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrası istiqamətində Şəmkir rayonunda da müvafiq tədbirlər həyata keçirilir.

Rayonun kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması, yeni istehsal sahələrinin yaradılması və aqrar sektorda fəaliyyət göstərən sahibkarların dəstəklənməsi istiqamətində müvafiq tədbirlər görülür. Qarşıya qoyulmuş vəzifələrin reallaşdırılması məqsədilə təsərrüfat sahibləri ilə mütəmadi görüşlər keçirilir, onların arzu və istəkləri dinlənilməklə mövcud problemlərin vaxtında aradan qaldırılması istiqamətində işlər həyata keçirilir.

Məlum olduğu kimi, dövlət proqramında balıqçılığın inkişaf etdirilməsinə də diqqətlə yanaşılması qeyd edilmişdir. Bunu nəzərə alan rayon icra hakimiyyətinin nümayəndələri tez-tez balıqçılıqla məşğul olan təsərrüfatlara gedir, mövcud vəziyyətlə yaxından tanış olur. Elə bu günlərdə görülən işlərin genişləndirilməsi və rayonda balıqçılığın inkişaf etdirilməsi məqsədilə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev rayonun Qapanlı kəndində yerləşən balıqçılıq təsərrüfatında olmuşdur. İcra başçısına təsərrüfatın fəaliyyəti, burada həyata keçirilən işlər, balıq yetişdirilməsi prosesi və istehsal imkanları barədə ətraflı məlumat verilmişdir. Təsərrüfatın rəhbəri Müsbət Həsənov bildirmişdir ki, burada əsasən sazan və belamur balıqları yetişdirilir. Balıq körpə-



ləri Suqovuşan və Bərdədən əldə olunur və iki su hövzəsində ildə 8-10 ton balıq istehsal edilir. Yem bazasının müəyyən hissəsi daxili imkanlar hesabına formalaşdırılır. Belə ki, təxminən 10 hektar sahədə yonca yetişdirilir və həmin yonca balıqlar üçün yem hazırlanmasında istifadə olunur. Bununla yanaşı, taxıl və digər ənənəvi yem komponentlərindən də yararlanılır.

Təsərrüfata baxış zamanı o da məlum olmuşdur ki, burada balıqçılığın ənənəvi istiqamətləri ilə yanaşı, nərəkimilərin yetişdirilməsinə də başlanılmışdır. Artıq iki ilə yaxındır bu istiqamətdə iş aparılır və ərazidə quraşdırılmış 4 hovuzda ümumilikdə 2000 ədəd nərə balığı körpəsi yetişdirilir.

Söhbət zamanı qeyd edilmişdir ki, dövlət proqramı kənd təsərrüfatı ilə yanaşı, balıqçılıq və akvakultura sahələrinin inkişafı üçün də geniş imkanlar açmışdır. Vurğulanmışdır ki, Şəmkirin mövcud təbii və iqtisadi potensialından səmərəli istifadə etməklə bu sahədə fəaliyyət göstərən təsərrüfatların genişləndirilməsi rayonun aqrar inkişafına mühüm töhfələr verə bilər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Yeddi ayda Qazaxıstanla Azərbaycanın ticarət dövriyyəsi 251 milyon dolları ötüb



**Cari ilin yanvar-iyul aylarında Qazaxıstanın Azərbaycanla xarici ticarət dövriyyəsi 251,5 milyon dollar təşkil edib.**

AZƏRTAC Qazaxıstanın Milli Statistika Bürosuna istinadla xəbər verir ki, bu ölkənin Azərbaycana ixracı 218,9 milyon dollara çatıb. Azərbaycandan Qazaxıstana idxal isə 32,5 milyon dollar təşkil edib.

Azərbaycan Qazaxıstanın ümumi xarici ticarət dövriyyəsinin 0,3 faizini təşkil edib. Ölkəmizin Qazaxıstanın ixracındakı payı 0,4 faiz, idxalındakı payı isə 0,1 faiz olub.

## Portfel investisiyalarında xalis xarici maliyyə öhdəlikləri açıqlanıb

**Bu ilin altı ayında portfel investisiyaları üzrə xalis xarici maliyyə aktivləri 0,3 milyard dollar, xalis xarici maliyyə öhdəlikləri isə 2 milyard dollar azalıb.**

AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, hesabat dövründə portfel investisiyaları üzrə aktivlər dövlət (23 milyon dollar) sektorunun hesabına artıb və bankların (265,2 milyon dollar), digər (39,2 milyon dollar) sektorun, kapitalda iştiraka təminat verən qiymətli kağızların (0,2 milyon dollar) sektorlarının hesabına isə azalıb.



Öhdəliklər isə əsasən, kapitalda iştiraka təminat verən qiymətli kağızların (57 min dollar) və digər (0,4 milyon dollar) sektorların artıb, dövlət (2 milyard dollar) sektorunun hesabına isə azalıb. Digər investisiyalar üzrə xalis xarici maliyyə aktivləri 0,7 milyard dollar azalıb, xalis xarici maliyyə öhdəlikləri isə 2,4 milyard dollar artıb.

Hesabat dövründə kreditlər və ssudalar üzrə xalis xarici maliyyə aktivləri 8,3 milyon dollar azalıb, xalis xarici maliyyə öhdəlikləri isə 2,5 milyard dollar artıb. Kreditlər və ssudalar üzrə xalis xarici maliyyə öhdəlikləri bank (0,2 milyard dollar) sektorunun, müəssisələrin kreditləri (0,1 milyard dollar) və neft-qaz sektorunun kreditləri (2,5 milyard dollar) hesabına artmış, dövlət kreditləri (0,2 milyard dollar) və dövlət zəmanətli kreditlər (0,1 milyard dollar) hesabına isə azalıb.

Depozitlər və nağd valyuta üzrə xalis xarici maliyyə aktivləri 1,3 milyard dollar, xalis xarici maliyyə öhdəlikləri isə 78,5 milyon dollar azalıb.

# Tərəfdaşlarımız

## INPEX Azərbaycanda fəaliyyətini şaxələndirmək niyyətindədir

**INPEX Azərbaycana 24 il əvvəl gəlib. Onun ölkəmizdə fəaliyyətə başlamasını Ulu Öndər Heydər Əliyev əlamətdar bir gündə - 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin təməlqoyma mərasimində çıxışı zamanı elan edib.**




Elə həmin vaxtlardan da "INPEX Corporation"un - Yaponiyanın ən böyük neft-qaz kəşfiyyatı və hasilatı şirkətinin ölkəmizdə uğurlu fəaliyyəti başlanıb. Şirkət bu layihədə 2,50 faizlik payla iştirak edir.

BTC-dən təxminən yarım il sonra INPEX möhtəşəm "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinə də qoşuldu. Belə ki, 2003-cü ilin aprel ayında layihədə iştirak payı (ilkin olaraq 10 faiz) aldı. Lakin şirkətin layihədəki mühüm addımları bununla yekunlaşmadı. 2010-cu ildə AÇG-də əlavə pay alaraq iştirakını 10,96 faizə çatdırdı.

Bu ilin martında isə INPEX şirkəti layihədəki payına sahib olan "INPEX South West Caspian Sea Petroleum" şirkətinin qalan 49 faiz səhmlərini də alaraq onun tam sahibinə çevrildi. Hazırda INPEXin AÇG layihəsində 9,31 faiz iştirak payı var.

Qeyd edək ki, INPEX 1966-cı ildə təsis edilib. Şirkərin baş ofisi Tokioda yerləşir.

Fəaliyyət sahəsinə gəldikdə isə bu, neft, təbii qaz və digər mineral ehtiyatların tədqiqini, kəşfiyyatını, hasilatını və satışını əhatə edir. O, eyni zamanda hidrogen, ammonyak, karbonun tutulması və saxlanılması, bərpaolunan enerji layihələrinə sərmayə yatırır. Başqa sözlə, INPEX hasilatdan başlayaraq mayeləşdirmə, daşınma və marketinqə qədər enerji dəyər zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən şirkət kimi geniş təcrübəyə malikdir.

Həm də bu fəaliyyətləri dünyanın 20-yə yaxın ölkəsindəki enerji layihələrində həyata keçirir.

Öz ölkəsində İTOÇU Yaponiya daxili qaz hasilatı layihələrini reallaşdırır.

Şirkətin ən böyük layihələrindən biri olan "Ichthys LNG" daxil olmaqla nəhəng qaz layihələri Avstraliyadadır. Birləşmiş Ərəb Əmirliklərində isə Əbu-Dabi dəniz və quru neft yataqlarını işləyir. İndoneziyadakı əsas layihələri "Abadi LNG", "Tangguh LNG" və geotermal enerji layihələridir.

INPEXin həmçinin Avropa, Asiya və Amerika qitələrində müxtəlif layihələri və ya nümayəndəlikləri var. Belə ki, şirkət Avropada Böyük Britaniya, Norveç, Qazaxıstanda fəaliyyət göstərir. Şimali və Cənubi Amerikada isə fəaliyyət məkanları ABŞ (Texas) və Braziliyadır. Cənub-Şərqi Asiyada Sinqapur, Malayziya, Vyetnam kimi ölkələrdə çalışır.

Qeyd etdiyimiz kimi, INPEXin əsas fəaliyyət məkanlarından biri Azərbaycandır. Şirkət həmçinin ölkəmizlə uzunmüddətli əməkdaşlığın yeni mərhələsinin qurulmasında maraqlıdır. Bunu cari ilin iyun ayında keçirilən Bakı Enerji Həftəsində INPEXin Avropa və Yaxın Şərq layihələri üzrə icraçı direktoru və baş vitse-prezidenti Munehiro Hosono bildirib. Onun sözlərinə görə, INPEX enerji keçidinin enerji təhlükəsizliyi, iqtisadi reallıqlar və bazarın faktiki vəziyyəti əsasında həyata keçirilməsinin vacibliyinə inanır. Şirkətin "INPEX Vision 2032" strategiyası da məhz bu prinsiplər üzərində qurulub.

Məlumdur ki, karbon emissiyalarının nisbətən aşağı olması səbəbindən təbii qaz yaxın gələcəkdə də, xüsusilə iqtisadi inkişaf üçün sabit və genişmiqyaslı enerji təchizatına ehtiyac duyulan regionlarda mühüm rol oynamaqda davam edəcək. INPEXin strategiyası da mövcud neft-qaz layihələrinin gücləndirilməsi ilə yanaşı, üç əsas inkişaf istiqamətini əhatə edir. Bunlar təbii qaz və enerji biznesinin genişləndirilməsi, karbon emissiyalarının azaldılmasına yönəlmiş texnologiyaların, o cümlədən karbonun tutulması və saxlanılması və hidrogen layihələrinin inkişafı, eləcə də enerji və təbii ehtiyatlar sektorunda qabaqcıl texnologiyaların tətbiqidir.

M.Hosono deyib ki, AÇG layihəsi daha yetkin inkişaf mərhələsinə keçdikcə, yataqların səmərəli idarə olunması və əməliyyat mükəmməlliyi daha da vacib əhəmiyyət kəsb edir. INPEX bu layihədə iştirakı sayəsində inkişaf edib və indi davamlı inkişafın təmin olunmasına töhfə verməyə çalışır. Şirkət Azərbaycanı yalnız mövcud aktivlər bazası kimi deyil, həm də böyük gələcək potensialına malik ölkə kimi qiymətləndirir: "Qaz yataqlarının işlənməsi, dəniz layihələrinin icrası və CCS kimi praktiki aşağıkarbonlu həllər sahəsində malik olduğumuz təcrübə Azərbaycanda əlavə dəyər yarada bilər. Yeni layihələrdə iştirak, mövcud aktivlərin daha da inkişaf etdirilməsi və səmərəli texnoloji həllərin tətbiqi vasitəsilə əməkdaşlığımızı genişləndirmək üçün ciddi imkanlar görürük".

*Flora SADIQLI,*
*"Azərbaycan"*





# Mədəniyyət





## Zamanı lentə alan sənətkar...



**Onun yaratdığı ekran əsərlərinə baxanda yalnız keçmişi görmürük. Həm də həmin dövrün nəfəsini, insanlarını, hadisələrini, sevincini və ağrılarını duyuruq. Tanınmış rejissor, kinooperator, ssenarist, Xalq artisti Muxtar Dadaşov yarım əsrdən artıq davam edən yaradıcılığı ilə milli kinomuzun inkişafına mühüm töhfələr verib, Azərbaycan tarixinin və mədəni həyatının bir çox səhifələrini kino dili ilə yaddaşa çevirib...**

### Kiçik addımlarla böyük sənətə...

Muxtar Dadaşov 1913-cü il sentyabrın 11-də Bakıda dünyaya gəlib. Bu şəhərin sənət və mədəniyyət mühiti onun dünyagörüşünün formalaşmasına mühüm təsir göstərib. Uşaqlıqdan incəsənətə maraq göstərən Muxtarın taleyi çox erkən yaşlarında səhnəyə bağlanıb. 1924-cü ildə Azərbaycan Dövlət Akademik Dram Teatrının səhnəsinə çıxanda onun on bir yaşı olub. Dörd il sonra isə Cəfər Cabbarlının "Sevil" pyesinin ilk tamaşasında Gündüz rolunu oynayıb. Beləcə, Muxtar Dadaşov uşaqlıq illərindən kiçik addımlarla böyük sənətə üz tutub. İllər keçəcək, o uşaq boya-başa çatacaq, Azərbaycan kino sənətinin tanınmış simalarından biri olacaq, aktyor, operator, rejissor, ssenarist kimi fəaliyyət göstərəcəkdi.

Teatr mühiti, səhnənin ab-havası, görkəmli aktyorlarla birgə çalışmaq və sənətin incəliklərini öyrənmək marağı Muxtar Dadaşovun sənət yolunu müəyyənləşdirib. 1929-cu ildə Gənc Tamaşaçılar Teatrında rejissor assistenti kimi fəaliyyətə başlayan Muxtar Dadaşov tamaşalarda müxtəlif rollar da oynayıb.

Səhnə yalnız ona həvalə edilən obrazın daxili aləminə varmağı, hadisəni tamaşaçıya çatdırmağı deyil, həm də ətrafında baş verənləri diqqətlə müşahidə etməyi, insanları tanımağı öyrədib. Sonralar operator və rejissor kimi fəaliyyət göstərərkən bu təcrübə Muxtar Dadaşov üçün çox gərəkli olub.

Gənc sənətkar 1931-ci ildə kinostudiyada operator assistenti kimi fəaliyyətə başlaması ilə yeni yaradıcılıq aləminə düşüb. Sənədli və bədii filmlərin çəkilişlərində iştirak edib. İlk gündən kamera onun üçün sadəcə texniki vasitə olmayıb. Onunla insanları, hadisələri lentə almaq Muxtar Dadaşova cəlbedici, əsrarəngiz görünüb.

Ali operator təhsili almaq, sənəti daha dərindən öyrənmək istəyi ilə Moskvaya gedib. Orada təhsil almaqla bərabər, aktyorluq fəaliyyətini də davam etdirib, filmlərdə çəkilib.

### Aktyor, operator, rejissor, ssenari müəllifi

Moskvada təhsilini başa vurduqdan sonra vətənə qayıdan Muxtar Dadaşov kinostudiyada operator kimi fəaliyyətini davam etdirib. 1935-ci ildə Abdulla Şaiqin "Oyunçu bağa" hekayəsi əsasında çəkilən "Rəqs edən bağalar" filminin qurluşçu operatoru olub. Sonrakı illərdə o, "Kəndlilər", "Yeni horizont", "Vətən oğlu" kimi bədii, eləcə də bir sıra sənədli filmlərin çəkilişlərində operator kimi çalışıb.

O həm operator, həm rejissor, həm də ssenari müəllifi kimi kino sənətinin inkişafına böyük xidmətlər göstərib. 1965-ci ildə lentə alınan "Arşın mal alan" filminin ssenari müəlliflərindən biri, 1968-ci ildə Xalq yazıçısı Süleyman Rəhimovun "Mehman" povesti əsasında ekranlaşdırılan "Qanun naminə" bədii filminin isə quruluşçu rejissoru və ssenari müəllifi Muxtar Dadaşov olub. O, 1974-cü ildə çəkilən "Bakıda küləklər əsir" bədii filminin quruluşçu rejissoru və ssenari müəlliflərindən biridir.

Muxtar Dadaşovun sənət dünyasında operator, rejissor və ssenarist kimi iştirak etdiyi sənədli filmlərin də xüsusi yeri olub. "Lökbatan", "Neft simfoniyası", "Ordenli Azərbaycan", "Sovet Azərbaycanı", "Arazın o tayında", "Səhər nəğməsi", "Səadət yolu ilə", "Bizim Azərbaycan", "Doğma torpaq, Azərbaycan", "Sabir", "Nəriman Nərimanov", "Kür", "Əbədi qardaşıq", "Respublikam haqqında həqiqət" və başqa sənədli filmləri ilə Azərbaycan kino salnaməsinin zənginləşməsində mühüm rol oynayıb.

### Müharibə illərinin kinoxronikasını yaradanlardan biri

Dövrünün mühüm ictimai-siyasi hadisələrini, insanlarını, Azərbaycanın təbiət mənzərələrini əks etdirən sənədli filmlər çəkə-çəkə onları tarixə çevirirdi. Bunu özü də bilirdi. Muxtar Dadaşov üçün hər kadrın arxasında bir tarix, bir insan taleyi, bir yaddaş dayanırdı. Odur ki, heç bir mövzuya səthi yanaşmayıb. Çəkilişlərə başlamazdan əvvəl araşdırıb, materiallar toplayıb, arxivlərə müraciət edib, hadisənin mahiyyətini öyrənməyə çalışıb. "Nəriman Nərimanov" sənədli filmini hazırlayarkən Nəriman Nərimanovun Genuya konfransındakı çıxışını əks etdirən kadrları Moskva arxivlərindən tapması sənətkarın işinə nə dərəcədə ciddi və məsuliyyətli yanaşdığını göstərir.

Alman faşizminə qarşı müharibə dövrünün kinoxronikasının yaradılmasında Muxtar Dadaşovun xüsusi xidmətləri olub. 1943-cü ildə hitlerçilərin cinayətlərini araşdıran komissiyanın sərəncamına göndərilən sənətkar köməkçisi İsmayıl Əfəndiyevlə birlikdə faşistlərin törətdikləri vəhşilikləri lentə alıb. Sonralar həmin kadrlar Nürnberq məhkəməsində sübut kimi nümayiş etdirilib.

1944-cü ildə rejissor müharibə mövzusunda "Bakı döyüşür" adlı sənədli film ekranlaşdırıb. Filmdə Azərbaycanın müharibə dövründəki vəziyyəti, xalqın arxa cəbhədəki əməyi, tanınmış ziyalılar və neftçilər öz əksini tapıb. Səməd Vurğun, Üzeyir bəy Hacıbəyli, Yusif Məmmədəliyev və başqa tanınmış insanların həmin dövrə aid görüntüləri bu gün milli kino salnaməmizin qiymətli sənədlərindəndir.

Muxtar Dadaşov "Sovet Azərbaycanı" filmindəki uğuruna görə, 1951-ci ildə Kann Beynəlxalq Kino Festivalında xüsusi mükafata layiq görülən ilk azərbaycanlı rejissor olub. Sənədli filmlərindən "Səadət yolu ilə" ona 1956-cı ildə Moskvada keçirilən Ümumittifaq Kənd Təsərrüfatı Sərgisinin qızıl medal, "Nəriman Nərimanov" 1967-ci ildə Tbilisidə keçirilən Zaqafqaziya və Ukrayna respublikaları kinofilmlərinin zona festivalında tarixi-inqilabi mövzunun ən yaxşı təcəssümünə görə mükafat, "L.İ. Brejnev Bakıda" 1980-ci ildə Dövlət mükafatı qazandırıb.

Yaradıcılığı dövlət tərəfindən də yüksək qiymətləndirilib. Sənətkar müxtəlif illərdə Əməkdar incəsənət xadimi, Xalq artisti fəxri adlarına, "Şöhrət" ordeninə layiq görülüb.

1977-1983-cü illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Sənədli Filmlər Birliyinin bədii rəhbəri vəzifəsində çalışan Muxtar Dadaşov artıq yalnız filmlər çəkməyib. O, həm də kino sənətinin inkişafına təsir göstərib, gənc sənətçilərin yetişməsinə öz təcrübəsi ilə yol göstərib.

Sənətkar uzun yaradıcılıq yolu keçib. Əlli ildən artıq kino sənətinə xidmət edib. Həmin illər Azərbaycan kino tarixinin mühüm bir mərhələsidir.

Muxtar Dadaşov 1998-ci il mayın 7-də dünyasını dəyişib. Ancaq onun sənət ömrü bitməyib. Çünki yaratdığı bədii və sənədli filmlər yaşayır. Onun kamerasından keçən insanlar, hadisələr, mənzərələr artıq tarixə çevrilib. Muxtar Dadaşov kamera ilə zamanı lentə alırdı. Zaman isə onun özünü və yaratdıqlarını yaddaşında saxladı...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Tək "Ananın səsi" şeiri bəs edir ki, ədəbiyyat tariximizdə əbədi yaşasın

### "Bəs deyilmi, ey insanlar, töküldü qan, axdı qan"

**Azərbaycan poeziyasının tanınan və sevilən nümayəndələrindən biri olan şair, dramaturq Novruz Gəncəlinin adı, imzası oxuculara yaxşı tanışdır. Onun yazdığı əsərlər bu gün də maraqla oxunur, sözlərinə bəstələnmiş mahnılar böyük sevgi ilə dinlənilir.**



Novruz Gəncəli (Novruz İsmayıl oğlu Sadıqov) sadə ömür yaşayıb. O, 1921-ci il sentyabrın 12-də Bakının Maştağa kəndində dəmirçi İsmayıl Zəbihin ailəsində dünyaya göz açıb. Atası dəmirçi olsa da, onda şairlik təbi də var imiş. Poeziyaya böyük maraq göstərərmiş, dilindən şeir, qəzəl düşməzmiş. Gözünü dünyaya açandan, həyatı dərk edəndən Novruz evdə beləcə şeir eşidib, poetik sözün qüdrətini duyub. Təəssüflər olsun ki, o, 8 yaşında atasını itirib. Kiçik yaşlarından atasızlığın ağrı-acısını yaşayıb. Böyük qardaşı Qulamhüseynin himayəsində yaşayıb.

Novruz 1934-cü ildə H.Z.Tağıyev adına Toxuculuq Fabrikinin nəzdində fəaliyyət göstərən 63 nömrəli orta məktəbdə ibtidai təhsil alıb. Sonralar ailə vəziyyəti ilə əlaqədar Gəncəyə köçüblər. Təhsilini bu qədim və gözəl şəhərdə davam etdirən Novruz 1939-cu ildə Gəncə 3 nömrəli beynəlmiləl orta məktəbini yüksək qiymətlərlə bitirib. Elə həmin il Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə qəbul olub.

Novruz Sadıqov universitetdə oxumaqla bərabər, 1939-1940-cı illərdə kitabxanada Azərbaycan şöbəsinin müdiri işləyib. 1940-1941-ci illərdə isə İncəsənət Muzeyində ekskursiya rəhbəri kimi fəaliyyət göstərib. Həm oxumaq, həm də işləmək onun üçün çətin olub. Buna görə də ikinci kursda oxuyanda əyani şöbədən qiyabi şöbəyə keçib. 1941-1943-cü illərdə Lerik rayonundakı orta məktəblərdə müəllim işləyib, məktəb direktoru vəzifəsinədək yüksəlib.

Novruz yaradıcılığa kiçik yaşlarından başlayıb. Yazdığı ilk şeirini şair Əhməd Cəmilə oxuyub. Ə.Cəmilin şeirdən xoşu gəlib. Əlini onun çiyninə qoyaraq deyib: "Mən bundan sonra sənə Gəncəli təxəllüsü verirəm. Mütləq bu imza ilə yazıb-yaratmalısan!" Əhməd Cəmilin bu tövsiyəsindən sonra, o vaxtdan da Novruz əsərlərinin altından həmin imzanı qoyub. Oxucular onu bu imzayla tanıyıblar. Şairin 22 yaşında işıq üzü görən "Odlu ürəklər" adlı ilk kitabı da "Novruz Gəncəli" imzası ilə nəşr olunub.

1943-1946-cı illərdə isə Novruz Gəncəli Bakıda Dövlət Təhlükəsizliyi orqanlarında məsul vəzifələrdə çalışıb. 1945-ci ildə Azərbaycan Yazıçılar İttifaqının üzvlüyünə qəbul olunub. 1946-1949-cu illərdə Yazıçılar İttifaqının "Natəvan" klubunda çalışıb. Bir müddət Azərbaycan Yazıçılar İttifaqında poeziya üzrə məsləhətçi kimi işləyib. Elə həmin illərdən də pedaqoji fəaliyyətindən uzaqlaşaraq ədəbiyyata, sözə bağlanıb.

1950-1960-cı illərdə Novruz Gəncəli "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi, "Ədəbiyyat və incəsənət" qəzetində tənqid şöbəsinin müdiri işləyib. Bir müddət Azərbaycan Baş Mətbuat İdarəsində və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təbliğat və təşviqat şöbəsində təlimatçı kimi fəaliyyət göstərib. 1960-1976-cı illərdə isə "Azərbaycan" jurnalında baş redaktorun müavini vəzifəsində çalışıb.

Bədii yaradıcılığa erkən yaşlarından başlayan şairin ilk kitabı olan "Odlu ürəklər"dən sonra "Unudulmaz günlər", "Şeirlər", "Dalğalar", "Mənim mahnılarım", "Üç dost", "Könüllər açılanda", "Unuda bilmirəm", "İnsan və qızılgül", "Pyeslər", "Şah və tutuquşu", "Seçilmiş əsərlər", "İnsan, od, su", "Ədəbi dost" və başqa şeir kitabları nəşr edilib. Novruz Gəncəli bədii yaradıcılıqla yanaşı, tərcümə işi ilə də məşğul olub. Dünyaca tanınmış yazıçı və şairlər C.Bayronun "Gavur", Y.Çarentsin "Hamı üçün" poemalarını, A.Makayonokun "Tribunal", C.Patrikin "Missis Sevinc", B.Brextin "Kuraj ana və onun uşaqları" pyeslərini, eləcə də şeirlərini doğma dilimizə çevirib.

O həm də bir dramaturq olaraq Azərbaycan teatrına maraqlı və orjinal səpgili, dövrünün aktual problemlərini özündə əks etdirən pyeslər yazıb. Ədibin komediyalardan ibarət kitabı Moskvada "Sovetski pisatel" nəşriyyatında rus dilində nəşr olunub, pyesləri rus dramaturqları tərəfindən tərcümə edilib.

Novruz Gəncəlinin şeirlərinə çoxsaylı mahnılar bəstələnib. Bu mahnılardan biri "Ananın səsi"dir. Şairin eyni adlı şeirinə bəstələnmiş mahnı təkcə ölkəmizdə deyil, bütün dünyada tanınmışdır. Çünki şeirdə şair müharibələrə, qan tökülməyə yox deyir, sülhü, əmin-amanlığı təbliğ edir. Yer üzündə yaşayan bütün insanları sülhə səsləyir:

*Ana qəlbim odlanır,*
*Söz düşəndə davadan.*
*Bəs deyilmi, ey insanlar,*
*Töküldü qan, axdı qan?*
*Bəs deyilmi qara torpaq*
*Su içdi göz yaşından.*
*Yer üzündə dostu olsun,*
*Gərək insan insanın,*
*Qəlbimdəki bu arzular,*
*Arzusudur zamanın.*
*Mən anayam bu səsimdə*
*Yerin, göyün, dərdi var.*
*Sülhə gəlin, ey insanlar*
*Yoxsa dünya məhv olar!*

Mahnının musiqisi görkəmli bəstəkar Ələkbər Tağıyevə məxsusdur. Mahnını tanınmış müğənnilər Zeynəb Xanlarova, Rübabə Muradova, Fatma Mehrəliyeva və başqaları oxumuşlar. Çox qəribədir ki, "Ananın səsi" şeiri və mahnısı bu gün də aktualdır.

Novruz Gəncəli 1995-ci il oktyabrın 19-da Bakıda vəfat edib, Maştağadakı Pirşəhid qəbiristanlığında dəfn olunub.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Rənglər dünyasında öz yeri olan sənətkar

**Yazıçı və şairlər fikirlərini, düşüncələrini sözlə, müğam ustaları musiqi ilə, rəssamlar isə rənglərin dili ilə ifadə edirlər. Bütün bunlar sənət sahiblərindən yüksək istedad, bacarıq və ən başlıcası, peşəkarlıq tələb edir. Belə sənətkarlardan biri də Oqtay Sadıqzadədir.**

Özündən sonra bir-birindən maraqlı rəsm əsərləri qoymuş Oqtay Sadıqzadə 1921-ci il fevralın 21-də Xızıda, Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələri - yazıçı Seyid Hüseynin və şair Ümgülsümün ailəsində dünyaya göz açıb. Kiçik yaşlarından rəssamlığa böyük həvəs göstərib. Rənglər dünyası hiss etmədən onu özünə cəlb edib. Anası Ümgülsüm xanım oğlunu şeir yazmağa həvəsləndirib, onu poeziya aləminə istiqamətləndirməyə çalışıb. Məqsədinə çatmaq üçün övladına özünün və başqa şairlərin şeirlərini oxuyub. Amma balaca Oqtay atasının da razılığı ilə rəssamlığı seçib. Bu sənətin sirlərinə dərindən yiyələnmək üçün 1935-ci ildə Bakı Rəssamlıq Texnikumuna qəbul olub. 1939-cu ildə təhsilini uğurla başa vurub. Çəkdiyi ilk əsərlər sənətşünaslar tərəfindən maraqla qarşılanıb və yüksək qiymətləndirilib. Bu da Oqtay Sadıqzadəni yeni və maraqlı əsərlər çəkməyə, yaradıcılıq yollarında daha da inamlı addımlar atmağa həvəsləndirib.

1941-ci ilin yanvarında Oqtay Moskvada oxuyan rəssam dostu Mikayıl Abdullayevdən bu məzmunda məktub alır: "Hörmətli qardaşım Oqtay, salam! Yeni il münasibətilə səni səmimi qəlbdən təbrik edir, cansağlığı, şən həyat və parlaq gələcək arzulayıram. Oqtay, Tretyakovkada "Sovet rəngkarlığı 23 ildə" sərgisi açılıb. Sənin "Çağırışçılar" əsərin ilə Sadıq Şərifzadənin "Kəndli" etüdü asılmışdı. Əsərini görəndə çox sevindim. Bizim gənclər arasında belə bir istedada malik olduğun üçün səni yenidən təbrik edirəm. Asan deyil, o sərgidə P.Konçalovski, İohanson, S.Gerasimov kimi korifeylərin işləri asılıb. Əlbəttə, bu, böyük müvəffəqiyyətdir".

Yaradıcılıq yollarında ilk addımlarını atan Oqtay Sadıqzadə məktubu oxuyandan sonra qazandığı ilk uğurlarına sevinib. Gələcəkdə daha da maraqlı, mənalı əsərlər yaradacağına inam artıb. Amma onun sevinci uzun çəkməyib. Elə bu ərəfədə, 1941-ci ildə repressiyaya məruz qalmış ailənin övladı olduğuna görə Oqtay Sadıqzadə Altay diyarına sürgün olunub. Həmin günlərdə onun 20 yaşı var idi. Bu sürgün Oqtay Sadıqzadə üçün böyük bir həyat məktəbi olub. Rəssam sürgün illərində çox ağır şəraitdə yaşayıb. Amma üzləşdiyi bu çətin şərait onun yaradıcılıq arzularını buxovlaya bilməyib. Bu ağır, dözülməz vəziyyətdə də yaradıcılıq işlərindən ayrılmayıb. Sənəti özünə bir təsəlli, ümid və azadlıq duyğusu bilib. Axır ki, günlərin birində uzun çəkən əzab-əziyyətlərlə dolu sürgün həyatına son qoyulub.

Oqtay Sadıqzadə 1946-cı ildə Bakıya qayıdıb. Həmişə maraq dairəsində olan kitab qrafikası ilə məşğul olmağa başlayıb. Çox keçməyib ki, bu sahədə diqqətçəkən uğurlar qazanıb. Oqtay Sadıqzadə yaradıcılıq işləri ilə yanaşı, təhsilini davam etdirmək arzusunu da unutmayıb. O, Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna qəbul olub, arzusunu reallaşdırıb. Oxuduğu illər ərzində rəssamlıq sənətinin sirlərinə dərindən yiyələnib. 1956-cı ildə qrafika ixtisası üzrə ali təhsilini uğurla başa vuraraq vətənə dönüb.

Moskvadan qayıtdıqdan sonra Oqtay Sadıqzadə "Azərnəşr"də bədii redaktor kimi əmək fəaliyyətinə başlayıb. Nəşriyyatda çalışdığı ilk illərdən Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinə çəkdiyi illüstrasiyalarla kitab qrafikası aləminə yeni nəfəs, yeni ruh gətirib. Həmin zamanlarda dünya



təsviri sənətinin son nailiyyətlərindən bəhrələnən O.Sadıqzadə ədəbi fikrin qüdrətli simalarından Balzakın, Hüqonun, Turgenevin, Qorkinin, Mirzə Fətəli Axundzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Rəşad Nuri Güntəkinin və başqa söz adamlarının əsərlərinin dərin emosional təsir gücünə malik yaddaqalan obrazlarını yaratmağı böyük ustalıqla bacarıb. Bu əsərlərlə rəssam böyük istedad sahibi olduğunu bir daha təsdiq edib.

Rəssam Oqtay Sadıqzadə Azərbaycanın görkəmli şair və yazıçıları Hüseyn Cavidin bütün pyeslərinə, Cəlil Məmmədquluzadənin, Seyid Hüseynin, Cəfər Cabbarlının bir çox əsərlərinə, Mirzə Fətəli Axundovun "Aldanmış kəvakib", Rəşad Nuri Güntəkinin "Çalı quşu" romanına maraqlı illüstrasiyalar çəkib. Bu illüstrasiyalarla həmin əsərlərə oxucu marağını, oxucu diqqətini daha da artırıb.

Rəssam Oqtay Sadıqzadənin əsərləri obrazların təkrarolunmazlığı, kompozisiya üsullarının bənzərsizliyi və rəngkarlıq həllinin mükəmməlliyi ilə seçilir və sevilir. Ona görə də bu əsərlər elə ilk baxışdan tamaşaçıları heyran qoyur, onları öz sehrinə salır. Müəllifin bu cür bənzərsiz əsərlərindən "Nizami Gəncəvi və dünya mədəniyyəti" adlı monumental silsilə, Qətran Təbrizinin, Xurşidbanu Natəvanın portretləri, "1937-ci il repressiyasının qurbanları" tablosu və "Hüseyn Cavidin aləmi"nin və başqalarının adlarını çəkmək olar.

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin, Milli Azərbaycan Tarixi Muzeyinin, Üzeyir bəy Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun və Bülbülün ev-muzeylərinin tərtibatı zamanı rəssam Oqtay Sadıqzadənin əsərlərinə geniş yer verilmişdir. Oqtay Sadıqzadənin əsərlərində yaratdığı obrazlar canlı, zəngin və düşündürücüdür. Onun fırçasından çıxmış Azərbaycanın elm və mədəniyyət xadimlərinin portretləri elə ilk baxışdan diqqəti cəlb edir. Çünki bu əsərlərin dərin qatlarında insan qəlbinin sirlərinə nüfuz etmək, qəhrəmanlarını sevmək, xeyirxahlığın və humanizmin qələbəsinə inam hissi aparıcı yer tutur.

Görkəmli fırça ustasının əsərləri bir çox dövlət və ev-muzeylərində, həmçinin Dövlət Şəkil Qalereyasında və Almaniya, ABŞ, Kanada, İsrail, Belorus və Pakistanda şəxsi kolleksiyalarda qorunub saxlanılır.

Görkəmli rəssam Oqtay Sadıqzadənin təsviri sənətin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilib. O, müxtəlif illərdə Azərbaycan Əməkdar incəsənət xadimi fəxri adına, Azərbaycan Xalq rəssamı adına və Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb. Rəssam "Şərəf" və "Şöhrət" ordenləri ilə də təltif edilib.

Oqtay Sadıqzadə 20 dekabr 2014-cü ildə 93 yaşında Bakı şəhərində vəfat edib.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# "AzerGold" Naxçıvanın mineral potensialını xarici şirkətlə birgə araşdıracaq

**"AzerGold" QSC Naxçıvan Muxtar Respublikasının mineral-xammal potensialının öyrənilməsi və perspektivli faydalı qazıntı yataqlarının müəyyənləşdirilməsi məqsədilə Birləşmiş Ərəb Əmirliklərinin International Resources Holding (IRH) şirkəti ilə əməkdaşlıq edəcək.**




Əməkdaşlıq çərçivəsində Naxçıvan ərazisində, ilk növbədə, strateji əhəmiyyət daşıyan və irimiqyaslı kritik metal perspektivlərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi istiqamətində birgə geoloji kəşfiyyat işlərinin aparılması nəzərdə tutulur.

Bu məqsədlə "AzerGold" QSC və IRH-nin törəmə şirkəti "Terra Mining Ltd" arasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində mineral-xammal potensialının və mədən sahələrinin birgə qiymətləndirilməsi və kəşfiyyatı haqqında Saziş" imzalanıb.

Sənəd 14 sentyabr 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Əbu-Dabi Əmirliyi hakiminin müavini, milli təhlükəsizlik müşaviri cənab Şeyx Tahnun bin Zayed Al Nəhyanın iştirakı ilə iki ölkə arasında bir sıra mühüm sənədlərin imzalanması mərasimi zamanı rəsmiləşdirilib. Sazişi "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov və IRH-nin baş icraçı direktoru Əli Rəşid Əl-Rəşdi imzalayıblar.

Əməkdaşlıq çərçivəsində işlərin mərhələli şəkildə həyata keçirilməsi planlaşdırılır. İlkin mərhələdə mövcud geoloji məlumatların təhlili, müasir geoloji kəşfiyyat və tədqiqat metodlarının tətbiqi, perspektivli sahələrin və potensial hədəflərin müəyyənləşdirilməsi nəzərdə tutulur.

İlkin axtarış-qiymətləndirmə işlərinin nəticələri müsbət olduğu təqdirdə, növbəti mərhələdə dəqiq kəşfiyyat aparılacaq, daha sonra isə birgə hasilat imkanları və bu istiqamətdə əməkdaşlığın perspektivləri müzakirə ediləcək. Qeyd edək ki, İRH şirkəti mədən aktivlərinin qiymətləndirilməsi və inkişafı sahəsində beynəlxalq təcrübəyə sahibdir və hazırda bu istiqamətlər üzrə Afrika, Cənubi Asiya və Yaxın Şərq regionlarında fəaliyyət göstərir. Şirkətin texniki və investisiya imkanlarının "AzerGold"un təcrübəsi ilə birləşdirilməsi Naxçıvanın mineral-xammal potensialının müasir beynəlxalq yanaşmalar əsasında daha dərindən öyrənilməsi üçün əlavə imkanlar yaradacaq.

"AzerGold" və IRH arasında əməkdaşlığın perspektivli nəticələrinin muxtar respublikada yeni investisiya imkanlarının formalaşmasına, mədən sənayesində əlavə dəyərin və məşğulluğun artmasına, regionun iqtisadi fəallığının genişlənməsinə və Azərbaycanın qeyri-neft sektorunun inkişafına əlavə töhfələr verməsi nəzərdə tutulur.

# AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyasında "Bilik Günü" keçirilib











**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Əmək və Sosial Münasibətlər Akademiyasında yeni tədris ilinin başlanması ilə əlaqədar "Bilik Günü" keçirilib.**

Tədbirdə AHİK-in və akademiyanın rəhbərliyi, professor-müəllim heyəti, tələbələr və valideynlər iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən AHİK sədrinin müavini Musa Mirzəyev müəllimləri, tələbələri və valideynləri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib. Ölkəmizdə gənclərə və təhsilə göstərilən dövlət qayğısından danışan Musa Mirzəyev təhsilin insan kapitalının inkişafında mühüm rolunu vurğulayıb, tələbələrə təhsil həyatında uğurlar arzulayıb.

Akademiyanın rektoru vəzifəsini icra edən Fərid Babayev ali təhsil ocağında tədrisin keyfiyyətinin yüksəldilməsi, müasir təhsil imkanlarının genişləndirilməsi və innovativ yanaşmaların tətbiqi istiqamətində görülən işlər barədə məlumat verib.

AHİK-in üzv təşkilatı Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Araz Paşayev tələbələri ölkəmizdə təhsil üçün yaradılmış imkanlardan və akademiyada yaradılan əlverişli təhsil mühitindən yararlanmağa, bilik və bacarıqlarını davamlı inkişaf etdirməyə çağırıb. Valideyn Vüsalə Əsgərova isə akademiyada tələbələrin hərtərəfli təhsil alması və inkişafı üçün yaradılan şəraitdən məmnunluğunu ifadə edib, gənclərin yüksəkixtisaslı mütəxəssis kimi formalaşmasında əməyi olan müəllimlərə təşəkkürünü bildirib.

Tədbir çərçivəsində tələbələr və valideynlər akademiyada təhsil üçün yaradılmış şəraitlə tanış olublar.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

# ABŞ ilk dəfə olaraq kosmosda silah yerləşdirdiyini etiraf edib

Bazar ertəsi günü Hava, kosmos və kibermüharibə konfransında çıxış edən ABŞ Hərbi Hava Qüvvələri naziri Troy Meynk, bu silahların yerləşdirilməsinin Amerika qüvvələrinin "inkişaf edən təhdidlərdən" qorumaq üçün zəruri olduğunu bildirib. O, silahların imkanlarını və ya orbitə nə vaxt buraxıldığını dəqiqləşdirməyib.



İndiyə qədər ABŞ rəsmiləri yalnız kosmosda hərbi imkanlarını gücləndirmək niyyətlərindən danışaraq, hərbi münaqişə halında Amerika peyklərinə hücum etmək və onların işini pozmaq üçün hazırlanmış Rusiya və Çin proqramlarına işarə edirdilər.

Tramp administrasiyası ABŞ ərazisini təhdid edən raketləri və digər hədəfləri ələ keçirmək üçün planlaşdırılan "Qızıl günbəz" sisteminin tutucu raketlər də daxil olmaqla kosmik komponenti əhatə edəcəyini bildirib.

Xatırladaq ki, 1967-ci ildə SSRİ və ABŞ kütləvi qırğın silahlarının kosmosda yerləşdirilməsini qadağan edən müqavilə imzalayıblar. Lakin bu, adi silahlara şamil edilmir və son illərdə Rusiya, Çin və ABŞ düşmən peyklərinə hücum etmək üçün rabitə, kəşfiyyat və naviqasiya üçün vacib olan müxtəlif vasitələri inkişaf etdirirlər. 2019-cu ildə ABŞ 70 ildən sonra ilk dəfə olaraq silahlı qüvvələrin yeni bir qolunu - Kosmik Qüvvələri yaradıb. Keçən il Prezident Donald Tramp Kosmik Qüvvələrin yalnız müdafiə deyil, həm də hücum missiyalarına malik olduğunu təsis edən sərəncam imzalayıb.

Kosmik Qüvvələrin nümayəndəsi izah edib ki, onlar bu məqsədlər üçün "kinetik və qeyri-kinetik imkanlara" malikdirlər. Fevralın əvvəlində məlum olub ki, Rusiyanın iki peyki Ukraynaya tammiqyaslı hücumu başladıqdan bəri yüksək ehtimalla ən azı 12 Avropa peykindən siqnalları ələ keçirib. Tutulan siqnallara Rusiya kəşfiyyatı daxil ola bilərdi və peyk nəzarətinin ələ keçirilməsi riski də var idi.

2024-cü ildə ABŞ Rusiyanın digər peyklərə hücum edə biləcək bir peyk buraxdığını bildirib. Moskva şərh verməyib.

ABŞ Kosmik Qüvvələri qeyd edir ki, Çin "hərbi modernləşdirmə strategiyasının bir hissəsi olaraq kosmik və əks-kosmik imkanları inkişaf etdirir və istismar edir", Rusiya isə "kosmosu müharibə sahəsi kimi görür və kosmik dominantlığı gələcək münaqişələrdə həlledici amil hesab edir".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Paşinyan davamlı sülhdə maraqlıdırsa, revanşizmin kökünü kəsməlidir

Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin bərqərar olması ilk növbədə Ermənistandakı siyasi mühitin sağlamlaşdırılmasından və revanşist ideologiyasının kökünün kəsilməsindən asılıdır.



Əgər Ermənistanın Baş naziri Nikol Paşinyan bəyan etdiyi kimi regionda həqiqi sülhün tərəfdarıdırsa və gündəliyə sadiqdirsə, o halda ilk növbədə daxildəki revanşist elementləri, müharibə tərəfdarlarını tamamilə neytrallaşdırmalıdır. Hazırda revanşist qüvvələrin daxildə maneəsiz fəaliyyəti, şovinist ritorikanı körükləməsi və sülh danışıqlarını baltalamaq cəhdləri fonunda İrəvanın verdiyi sülh bəyanatları inandırıcı görünə bilməz.

Bu baxımdan, Baş nazir Nikol Paşinyanın keçmiş hakimiyyət nümayəndələrinə, revanşist dairələrə və onların rəhbər şəxslərinə qarşı mübarizəsi formal xarakter daşımamalıdır. Hakimiyyəti əllərində saxladıqları dövrdə dövlət resurslarını mənimsəyən, ölkəni fəlakətə sürükləyən müharibə canilərinin məsuliyyətdən yayınmaq cəhdlərinə imkan verilməməli, məhkəmə və istintaq proseslərini ləngitmək üçün özlərini "xəstəliyə" vuran, hüquqi məsuliyyətdən qaçmaq üçün "timsah göz yaşları" tökən revanşist ünsürlərə qarşı prinsipal mövqe qorunub saxlanılmalıdır. Seçki vaxtı özlərini gümrah və güclü göstərən revanşist liderlərin, törətdikləri cinayətlərə görə ədalət qarşısında cavab vermək vaxtı çatanda dərhal xəstəlik maskası arxasında gizlənməyə çalışmaları onların hansı xislətdə olduqlarını ortaya qoyur.

Revanşist dairələrlə mübarizənin miqyası ölkənin daxili ilə məhdudlaşmamalıdır. Paşinyan hökuməti zərərli təfəkkürü körükləyən və daxili siyasətə müdaxilə etməyə çalışan erməni diasporunu da hədəf almalıdır. Çünki baş nazir özü də etiraf edir ki, erməni lobbisi kənar dövlətlərin əlində təsir vasitəsinə çevrilib və xalq diasporun başqa ölkələrə bağlı olduğunu bilmr. "Bu səhifəni bağlamalıyıq", - deyən baş nazir köhnə sistemin qalığı saydığı diasporu və xaricdən gələn radikal təsirləri neytrallaşdırmaqda qərarlı olmalıdır.

İrəvan hökuməti anlamalıdır ki, revanşist qüvvələrin sıradan çıxarılması istiqamətində atılan addımlar yalnız ölkə daxilində qanunun aliliyini təmin etmək baxımından deyil, eyni zamanda Ermənistan xalqı, dövlətçiliyi və bütün Cənubi Qafqaz regionu üçün əhəmiyyət kəsb edir. Çünki revanşist qüvvələrin və radikal dairələrin siyasi səhnədən silinməsi Ermənistanın inkişafına mane olan buxovların qırılması, cəmiyyətin normal mühitə qovuşması deməkdir. Başlıca məqam odur ki, revanşizmin və müharibə ritorikasının zərərsizləşdirilməsi Cənubi Qafqazda dayanıqlı sülhün və regional təhlükəsizliyin bərqərar olması üçün əlverişli zəmin yaradır. Erməni toplumunu illər boyu xəyali düşmən obrazları və fəlakətli macəralarla aldadan qüvvələrin siyasi səhnədən birdəfəlik kənarlaşdırılması həm də region dövlətləri arasında dinc yanaşı yaşama və əməkdaşlıq imkanlarını artırır. Bu mənada Paşinyan hökumətinin nümayiş etdirdiyi qətiyyətli mövqe revanşizmin kökünün kəsilməsi baxımından önəmlidir.

Digər tərəfdən, revanşist ideologiyanın yaşamasını təmin edən əsas amillərdən biri köhnə rejimin illər boyu mənimsədiyi qanunsuz kapitaldır. Paşinyan hökuməti revanşizmin maliyyə damarlarını kəsmək istiqamətində də ciddi addımlar atmalıdır. Çünki iqtisadi resurslardan və maliyyə rıçaqlarından məhrum edilən qüvvələrin cəmiyyətdə təsir imkanlarını qoruması və ya dövlətə qarşı hər hansı ciddi təxribat təşkil etməsi imkansız hala gəlir.

Lakin revanşizmlə mübarizə yalnız köhnə fiqurların neytrallaşdırılması ilə bitmir. Erməni cəmiyyətini illər boyu aşılanan revanşist və şovinist psixologiyadan təmizləmək də zərurətdir. Paşinyanın bəyanatları və revanşist rəhbərləri ifşa etməsi "qəhrəman" cildinə girmiş müharibə canilərinin əsl simasını göstərir. Bu, erməni cəmiyyətinin mövcud reallığı dərk etməsi istiqamətində mühüm addımdır.

Bu proses daxili informasiya məkanının və siyasi mühitin təmizlənməsini də tələb edir. Paşinyan hökuməti daxildə sülh prosesinin əleyhinə işləyən, media və sosial şəbəkələrdə manipulyasiya edənlər, hətta müəyyən siyasi dairələrdə regionda yenidən qeyri-müəyyənlik və sabitsizlik yaratmağa xidmət edən ziddiyyətli açıqlamalar səsləndirənlərə qarşı da adekvat addımlar atmalıdır. Cəmiyyətdə qorxu və nifrət toxumu səpənlərin, sülh danışıqlarını pozmağa yönəlmiş dezinformasiya yayanların qarşısının alınması və revanşist ideologiyanın informasiya ayağının kəsilməsi də mühümdür.

Paşinyan hökuməti cəmiyyətə özünü Qarabağ məsələsinə Ermənistanın əvvəlki hakimiyyətlərdən fərqli yanaşan, Azərbaycanın ərazi bütövlüyünü qəbul edən və ölkəni sülhə aparan siyasi qüvvə kimi təqdim edir. Lakin Qarabağla bağlı hər hansı hadisədən sonra hakimiyyət daxilindən və müxtəlif siyasi dairələrdən eyni reaksiyaların gəlməsi bu iddiaların praktik müstəvidə nə dərəcədə reallaşdığına dair sual yaradır. Sülh yalnız sənəddə qarşı tərəfin ərazi bütövlüyünü tanımaq demək deyil, bu, həmin dövlətin öz ərazisi üzərində suveren hüquqlarını tanımağı da tələb edir. Əks halda, ərazi bütövlüyünün tanınması barədə bəyanatlar formal xarakter daşıyır.

Bu çərçivədə mühüm məsələlərdən biri də sülhün hüquqi və konstitusion əsaslarının yaradılmasıdır. Bakının tamamilə haqlı və əsaslı tələblərindən biri olan Ermənistan konstitusiyasından Azərbaycan ərazilərinə iddiaları özündə əks etdirən müddəaların tamamilə çıxarılması və referendumun keçirilməsi məsələsi Paşinyanın daxili revanşizmlə mübarizəsinin həqiqi sınağına çevrilə bilər. Konstitusiyada nəzərdə tutulan dəyişikliklər eyni zamanda keçmiş rejimlərin miras qoyduğu təhlükəli hüquqi manipulyasiyalara birdəfəlik son qoyulması deməkdir. Məhz referendum yolu ilə bu iddiaların kənara atılması revanşistlərin "böyük Ermənistan" xülyasına vurulan ən böyük hüquqi zərbə olacaq. Revanşistlərin sıradan çıxarılması Ermənistanı təcriddən xilas edərək bu ölkəni regionun iqtisadi layihələrinə qoşulmağa və qonşuları ilə normal münasibətlər qurmağa sövq edən başlıca faktordur.

Eyni zamanda Paşinyan hökuməti Bakının irəli sürdüyü digər şərtləri də qeyd-şərtsiz icra etməlidir. Sülh müqaviləsinin imzalanması üçün keçmiş hakimiyyətin ideoloji platforması olan revanşizmin və müharibə ritorikasının qanunvericilikdə və dövlət institutu səviyyəsində kökündən kəsilməsi labüddür. İrəvanın regional reallıqları qəbul edərək praktiki addımlar atması revanşist dairələrin siyasi manevr imkanlarını tamamilə məhdudlaşdıracaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3320
Sifariş 1203

Qiyməti 60 qəpik